çıxmasına səbəb olmuşdur. Bu mövzu bəstəkar yaradıcılığında müxtəlif konsepsiyalarla ifadə olunur. Çünki, öz-özlüyündə sülh mövzusu müharibə və ya əmin-amanlıq şəraitində fərqli məzmun qazanır. Müharibə, inqilab, çevriliş kimi gərgin tarixi-siyasi şəraitdə sülh mövzusu ayrı-ayrı xalqların timsalında ümumbəşəri problemə çevrilərək təfsir edilir. Çünki, müharibə iki dövlət və ya bir neçə dövlət arasında baş versə də, burada insanlığa qarşı törədilən vəhşiliklər bütün dünyanı narahat edir. İnqilab və çevrilişlərdə daha çox sosial-siyasi məqamlar işıqlandırılır. Əmin-amanlıq şəraitində sülh mövzusu insanların rifahına yönələn addımların tərənnüm olunması ilə əlaqələnir. Bədii əsərlərdə böyük qurbanlarla əldə edilən sülhün qorunması uğruna edilən çağırışlar ön plana çıxır. Bu mənada şifahi xalq yaradıcılığı, epos və dastanlar, qəhrəmanlıq hekayələri və bu folklor mirasında təbliğ edilən sülh ideyası klassik ədəbiyyata, eləcə də musiqi sənətinə öz təsirini göstərmişdir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında sülh mövzusu hər zaman aktuallıq kəsb etmişdir. Xüsusilə müharibə dövründə (1941-1945) sülh mövzusu daha qabarıq planda müxtəlif janrlı əsərlərdə təmsil olunurdu. Ü.Hacıbəyli “Sovet Azərbaycanı musiqi mədəniyyətinin tərəqqisi” məqaləsində bu barədə yazırdı: “Müharibənin ilk dövründə Azərbaycan bəstəkarları müdafiə mövzusunda 400-dən artıq kütləvi mahnı, marş və xor mahnısı bəstələmişlər.<...> Azərbaycan musiqisi vətənpərvərlik hissi ilə dolu yeni əsərlərlə zənginləşmişdir. Bütün respublikanı əhatə edən yüksək vətənpərvərlik hissi Azərbaycan bəstəkarlarının yaradıcılığında da öz ifadəsini tapmışdır. Vətənə sədaqətlə xidmət, cəbhədə şanlı sovet döyüşçülərinin, arxada fəhlə və kolxozçuların misilsiz qəhrəmanlığı faşist Almaniyası ilə müharibə illərində Azərbaycan bəstəkarlarının yaratdığı vokal və instrumental əsərlərin əsas mövzusu olmuşdur. Müharibənin ilk dövründə Azərbaycan bəstəkarları müdafiə mövzusunda 400-dən artıq kütləvi mahnı, marş və xor mahnısı bəstələmişlər” (Hacıbəyli, Ü., s. ). Ü.Hacıbəylinin “Cəngi”, “Qəhrəmani”, “Vətən və cəbhə” kantatası, “Şəfqət bacısı”, “Döyüşçülər marşı”, “Çağırış” və s. mahnıları, A.Rzayevanın “Vətənpərvər gənclərin marşı”, Q.Qarayevin və C.Hacıyevin birinci simfoniyaları, eləcə də birlikdə bəstələdikləri “Vətən” operası və digər bəstəkarların bu mövzuda yazılmış mahnıları, marşları qeyd edilə bilər. Bu əsərlərdə müharibənin törətdiyi acı nəticələrlə yanaşı insanların vətən uğrunda göstərdiyi şücaət və qəhrəmanlığı, eləcə də sülhün qorunması yolunda aparılan mübarizə tərənnüm edilirdi.

XX əsrin son iyirmi ili Azərbaycan xalqının tarixində faciələrlə, işğal və qaçqınçılıq kimi üzücü hadisələrlə yadda qalmışdı. Qarabağın işğal edilməsi, minlərlə insanın öz evindən, yurdundan qovularaq didərgin düşməsi, qaçqın və

köçkünlərin acınacaqlı taleyi, müharibənin törətdiyi faciələr incəsənət insanlarına da dərindən təsir etmiş, bu dövrün hadisələri ilə bağlı əsərlərin yaranmasına gətirib çıxarmışdı. Bu dövrdə ədəbiyyatda və incəsənətin müxtəlif növlərində xeyli sayda əsərlər yaranmışdı. Bu əsərlərin mövzusu bir sıra məqamları işıqlandırır və bir sıra əsas istiqamətləri müəyyən etmək mümkündür. Azərbaycanın müstəqillik əldə etdiyi dövrün həm tarixi, həm də siyasi məzmunda qazandığı nailiyyətlər ilk növbədə milli özünəqayıdış ideyası ilə təcəssüm olunur. Lakin bu mövzu həm də müstəqillik əldə edilən zaman verilən qurbanlar, Keçən əsrin 90-cı illərində Azərbaycanda baş verən bu hadisələrin analoji nümunələri keçmiş sovet respublikalarının bir çoxunda baş vermiş və nəticədə insana, xalqa, dövlətə qarşı törədilən cinayətlər kimi dünya tarixinə daxil oldu.

Sülh mövzusunun aktuallaşması bir daha ölkəmizin böyük bir ərazisinin düşmən tərəfindən zəbt edilməsi ilə baş vermişdi. XX əsrin 90-cı illərində öz müstəqilliyi uğrunda mübarizə aparan xalq bir-birinin ardınca böyük qırğınlara, faicələrə məruz qalmış, yüzlərlə insanlar canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmişdi. Bu dövrdə Azərbaycan mədəniyyətində müharibə, azadlıq, qəhrəmanlıq mövzuları yenidən diqqət mərkəzinə gələrək xeyli sayda yeni əsərlərin yaranması ilə nəticələnmişdi. C.Hacıyevin VII simfoniyası, A.Rzayevin “Bakı-90” simfoniyası, O.Kazıminin “Şəhidlər”, A.Dadaşovun XI simfoniyası, T.Bakıxanovun “Qarabağ harayı” simfoniyası, R.Mustafayevin “Bu qan yerdə qalmayacaq” vokal-simfonik poeması, S.Fərəcovun “Matəm harayları” simfonik lövhəsi və bir çox digər əsərlər 1990-cı il 20 yanvar və Qarabağda baş verən faciələrə həsr edilmişdi (Vəzirova G, Quliyeva G, 2020, s. 15). Bu dövrdə sülh mövzusu eyni zamanda azadlıq və müharibə, qəhrəmanlıq, şəhidlik kimi obraz səciyyəsi ilə vəhdətdə təqdim olunurdu.

Dünyada sülh ideyasının tərənnümçülərindən biri də məhz bəstəkar Fərhəng Hüseynov idi. Musiqi sənətinə keçən əsrin 70-80-ci illərində bəstəkar və violin ifaçısı kimi daxil olan F.Hüseynov vokal və instrumental musiqi janrlarına müraciət etmiş, eyni zamanda opera və balet kimi musiqili səhnə əsərləri bəstələmişdir. F.Hüseynovun yaradıcılığı dünya xalqlarının mədəniyyətinə, tarixinə, folkloruna müraciətlə səciyyəvi olan əsərlərlə zəngindir. O, violin və simli orkestr üçün Konsertin (1982), Simli alətlər üçün Serenada (1982), violin üçün sonata (1980), violin və fortepiano üçün 5 pyes (1974), 10 alət və kamera orkestri üçün Konsert, qoboy və simli alətlər üçün “Aşıq Alının xatirəsinə”, soprano, bas, xor və orkestr üçün müharibə əleyhinə Kantata, Orqan üçün mərasimlər (1991), soprano və simli kvartet üçün “Stabat mater” (1998), Kamera orkestri üçün “Fantazia Ladino” (1998-1999), 2 simli kvartet, soprano

və simli kvartet üçün “Günəş himni”, Fortepiano üçün Sonata, uşaqlar üçün fortepiano silsiləsi, Prelüd və tokkata (İmprovizasiya və tokkata) (1974), Fortepiano üçün fuqa (1979), “Mənim arzularım hardadır” (1983), “Polad adalar” (1985), “Xalça haqqında dastan” (1985), “Abşeron qalaları” (1989) kimi sənədli filmlərə musiqinin, “Zaman üzrə səyahət” simfonik konsertinin (1991), “Balaca Şahzadə” (1990) və “Kodayu” operalarının (1993), “Kraliça Aba” baletinin (2005-2006), Kapriççio Quarani (2000) və digər əsərlərin müəllifidir (Abdullayeva Z, 2020, s.395).

Sülh mövzusu F.Hüseynovun yaradıcılığından qırmızı xətt kimi keçmişdir. Bəstəkarın sülh mövzusuna həsr olunmuş əsərləri sırasında “Müharibə əleyhinə kantata” (soprano, bas, xor və orkestr üçün) (1987), soprano və simli kvartet üçün “Stabat mater” (1998), soprano və simli kvartet üçün “Günəş himni”, “Yer üzündə sülhə nail olmalı” oratoriyası (1995) kimi vokal-simfonik kompozisiyaları yer alır. 1995-ci ildə bəstələnmiş bu oratoriya Fərhəng Hüseynovun yaradıcılığında önəmli nailiyyətlərdən biri kimi yer tutur. Belə ki, “Yer üzündə sülhə nail olmalı” oratoriyasına görə bəstəkar Birləşmiş Millətlər Təşkilatının “Sülh zirvəsi” tituluna layiq görülmüşdür (Abdullayeva Z, 2019, s.89). Mükafatın elan edilməsi ilə bağlı bəstəkara ünvanlanan məktubda dünyanın müxtəlif ölkələrindən 100-dən çox müəllifinin əsəri sırasında məhz F.Hüseynovun oratoriyasının “Sülh zirvəsi” tituluna layiq görülməsi ilə bağlı fikirlər bildirilmiş, o cümlədən parlaq və dərin, sülh üçün əsl musiqi töhfəsi kimi dəyərləndirilmişdi (Novruzov N, 2017, s.7).

“Yer üzündə sülhə nail olmalı” adlı oratoriyanın adı partiturada “Dünyada sülh bərqərar olsun” kimi qeyd edilmişdir. Bəstəkar əsərdə əcnəbi müəlliflərin sözlərinə müraciət etmişdir. Partitura üzərində Naney Newhall, Robert Fielding və Catholic text yazılıb. Göründüyü kimi ayrı-ayrı müəlliflərlə yanaşı, kilsə mətnləri də daxil edilmişdir. Vokal partiyalar xorla yanaşı, uşaqlar, Soprano, Mezzo-soprano, Tenor, Bas arasında paylanır.

I hissə – İntroduksiya adlanır və bu bölmə qiraətçinin ifasında Naney Newhall-ın mətni əsasında çıxışı ilə başlanır. Onun məzmunu dünya, insan və onun təbii qayğıları haqqında fəlsəfi fikirləri əhatə edir. Təbiətin gözəlliyi, insan ruhunun sevgi və musiqi kimi qidası bu mətnin əsas hədəfini təşkil etmişdir. Qiraətçinin çıxışı tamamlandıqdan sonra bəstəkar ilk xanələri məhz zərb alətlərinə həvalə edirsə də, mövzunun başlanması qoboy, klarnet və trubanın ifasında səslənir. Fəlsəfi və düşüncəli məzmunu ilə seçilən bu mövzuda Rast muğamına xas olan giriş intonasiyalarını açıq şəkildə duymaq mümkündür.

Nümunə 1. F.Hüseynov. “Yer üzündə sülhə nail olmalı”. I hissə – İntroduksiya.




Sərbəst improvizasiyalı reçitativ bir mövzunun həm də muğamlar içərisində ilk və qədim hesab edilən Rast intonasiyalarına əsaslanması təsadüfi deyil. Bəstəkar bu müdrik və təmkinli musiqi mətni ilə əsərin əsas qayəsi arasında bir bağlılıq yaratmağa nail olur. Bir qədər sonra qoboyun mövzusunu fleyta davam etdirir. Lakin bu dəfə alterasiyalı pərdələr də özünü göstərməyə başlayır. Onun inkişaf etdirdiyi musiqi mətni yenidən “re” mayəli Rast kadansına geri dönür və bu xanələrdə qiraətçinin partiyası daxil olur. Qeyd edək ki, bütün bu parçada ağac nəfəslilərlə birlikdə istifadə edilən zərb tembri də diqqəti cəlb edir. Oratoriyanın orkestr tərkibi zərb tərkibinin genişliyi ilə seçilir. Arfa, piano və orqan da daxil olmaqla partiturada 16 zərb aləti yer almışdır. İlk xanədən etibarən bu qrup aktivliyi ilə seçilir. Tədricən orkestrin digər üzvləri də musiqi mətninin formalaşmasında iştirak edir və 6 rəqəmindən etibarən mövzu həm imitasiya, həm də motivlərin paylanması ilə təqdim olunur.

Oratoriyanın I hissəsindən etibarən əsərin musiqi dilində bəstəkarın üslubu üçün səciyyəvi olan pentatonika intonasiyalarına da təsadüf edirik.

Fleyta piccolo partiyasında aşağı istiqamətli passaj (a-fis-e-d-h-a-fis-e-d) anqemiton pentatonika (xalis kvintalar ardıcıllığı) tərkibini dəstəkləyir. Bu tərkibi bəstəkar bir neçə yüksəklikdə vermişdir.

II hissə – The song for child’s voice and mezzo-soprano and chorus (children’s and adult’s) (Uşaq səsi, mezzo-soprano, uşaq xoru və böyüklər xoru üçün mahnı) – uşaq xoru və orkestrin ifasında verilən sadə və səmimi melodiyası ilə seçilən musiqi nömrəsidir. Arpeciolu müşayiət arfa və pianoya həvalə edilmişdir. Əvvəlcə klarnetin ifasında verilən əsas mövzu ilk frazadan sonra uşaq xorunun ifasında yenidən başlanır. Diatonik fis-moll səslənməsində ilk xanələrdən pentatonika intonasiyalarını duymaq mümkündür. Onun xarakteri pentatonika əsaslı qədim folklor melodiyalarını xatırladır.

Nümunə 2. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". I hissə, fraqment




Nümunə 3. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". II hissə, uşaq xorunun partiyası




Mərkəzə doğru xorun səsləri iki və üç səsaltı ilə çoxsəslilik yaradır. Əvvəlcə uşaq xorunda yaranan divizi ilə başlanan çoxsəslilik daha sonra Soprano, Alt, Tenor və Bas səslərindən təşkil edilmiş qarışıq xorla əvəzlənir. Bununla belə, bəstəkar xorun partiyasını vertikal fakturada təqdim edir və xoral səslənməsi əldə edir.

III hissə "Reflections and recitativo for Tenoro and Basso" (Tenor və bas üçün refleksiya və reçitativ) adlanır. Bu hissədə qiraətçinin mətni daxil edilir. Marş xarakterli mövzu diatonik minor intonasiyaları ilə slavyan melodiyalarını xatırladır. Violoncelli və Contrabasso partiyasında verilən ostinato hissə boyu davam etdirilir. Qiraətçinin mətni həyat və ölüm haqqında fəlsəfi düşüncələri əks etdirir. Musiqinin xarakteri həm dərin, həm də emosional baxımdan pafoslu

xarakteri nümayiş etdirir. Bəstəkar məqsədli şəkildə ağac nəfəsli tembrə üstünlük versə də, simlilər əsas mövzunun təqdimatında iştirak edir.

IV hissəyə "Rondeau for peace" ("Sülhə həsr olunmuş rondo") adı verilmişdir. Burada Robert Fieldingin sözlərinə müraciət edilmişdir. Soprano, xor və orkestr üçün yazılmışdır. İlk baxışdan diqqəti cəlb edən qeyri-sabit metr ardıcıllaşması ritmik baxımdan sərbəst reçitativlik yaradır. Bu cəhət həm vokal, həm də orkestr partiyalarında özünü göstərir. Klarnetin partiyasında ostinatolu müşayiət verilir. Fleytanın ifasında isə əsas mövzu lirik melodiya ilə təqdim olunur. Daha sonra bu melodiya xorun partiyasında səsləndirilir. Burada kilsə mətnləri və İsa peyğəmbərlə bağlı ifadələr verilmişdir. Maraqlıdır ki, bəstəkar əsər boyu həm ingilis, həm latın, həm də azərbaycan dilində mətnlərə müraciət etmişdir. Qiraətçinin çıxışı demək olar ki, azərbaycan dilində verildiyi halda, xor və solistlərin partiyaları ingilis və latın dillərində mətnlərlə səciyyəvidir.

V hissə – Reflections II sərt replikalarla başlanır. Yenidən qiraətçinin mətni başlanır və burada insanlığa bir çağırış səslənir. Hələ hər şeyin itirilmədiyi, doğulacaq körpələr üçün yer üzünün xilas edilməsi üçün şansın olduğunu ifadə edən fikirlər səslənir. Oratoriyanın bu hissəsində ilk dəfə orqan partiyası daxil edilir. Uzun müddətli səslənən akkord tərkiblərinin fonunda qiraətçinin mətni emosional təsir gücünü bir qədər də artırmış olur. Xromatik keçidlər, geniş sıçrayışlar, alterasiyalı motivlərin sayı digər hissələrə nisbətən çoxluq təşkil edir və bu fakt orkestrin bütün partiyalarında özünü göstərir.

VI hissə – "Come, Holy Ghost" (Gəl, müqəddəs ruh) – campane və mis nəfəslilərin ifasında çağırış intonasiyaları əks etdirən girişlə başlanır. Bu hissədə yenidən kilsə mətnləri ön plana çıxır. Xorun ifasında verilən əsas mövzu bu dəfə zərb (tamburo sullante) ostinatosu və simlilərin müşayiətində səsləndirilir.

Xorun çıxışı yekunlaşdıqdan sonra mövzu fleyta və arfa duetində davam edir. Burada nisbətən lirik əhval-ruhiyyə və yumşaq, mərhəmətli obraz təqdim olunur. Əvvəlki hissələrdən yüklənmiş gərginlik hissi nisbətən azalaraq tədricən itir. Qadın xoru 6 rəqəmində bərpa edilir və simli, ağac nəfəsli (qoboy, klarnet) və arfa müşayiətində çıxış edir. Hər iki partiyada yanan divizi dördsəslilik yaradır və xoral fakturasını yaradır. İnstrumental partiyada mövzunun dəstəklənməsi ilə orkestr və xor arasında bir bütövlük, vəhdət yaranır. Bu hissədə bəstəkar sanki bir sülh himni yaratmağa nail olur. Hissənin sonunda qadın xoru kişi xoru ilə əvəzlənir.

Nümunə 4. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". VI hissə




VII hissə kimi qeyd edilən "İntermesso" solo Tenor və orkestr üçün bəstələnmişdir. Burada oratoriyanın əsas ideyasını əks etdirən "May peace prevail on Easth" (Qoy Yer üzündə sülh bərqərar olsun!) cümlə ilə başlanır. Çağırış intonasiyaları ilə xarakterik olan bu mövzu orqan və bir qədər sonra qoboy, trombonun müşayiəti ilə təqdim olunur.

Past 8- A sentence "May peace prevail on Easth" on ninteen languages / Recitations for childreen ("Qoy Yer üzündə sülh bərqərar olsun" – 19 dildə / uşaqların reçitativi) – təntənəli final hissəsidir. Burada sülh ideyasını təbliğ edən şüar 19 dildə uşaqların ifasında təqdim edilir. İlk dəfə şüar azərbaycanlı uşaqlar tərəfindən oxunur. Daha sonra ingilis, alman, rus, koreya, yunan və s. dillərdə davam etdirilir. Orkestrin strettalarla qurulan fakturası maraqlı mənzərə yaradır. Bununla belə, xalis kvarta-kvinta səslənməsi ilə təşkil edilən musiqi intonasiyaları sülhün və sabitliyin təmsilçisi kimi özünü göstərir.

Əsas ideyanı təmsil edən bu şüar nəzərdə tutulan bütün dillərdə təkrar edildikdən sonra, yenidən azərbaycan dilində səsləndirilir. Orkestr tuttisi və xorun ifasında oxunan bu ifadə koda mövqeli marşda təqdim olunur. Ruh yüksəkliyi, həyatsevər və işıqlı xarakterdə tamamlanan oratoriyada bütün dünyanın sülh naminə birləşməyə çağıran şüarın sanki öz hədəfinə çatması marşın obrazlı məzmununu əks etdirir.

Nümunə 5. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". Past 8.




Əsərdə vokal və instrumental musiqinin bərabər hüquqda paylanması, sülh konsepsiyasının təcəssümündə orkestrin rolu, əsas təmsilçilər olaraq uşaq xoru və dini mətnlərin tətbiqi F.Hüseynovun oratoriyasında müşahidə edilən əsas amillərdir. Məhz bu amillər bəstəkara sülhün obrazını yaratmağa, eləcə də onun təbliğini emosional təsir qüvvələri vasitəsilə həyata keçirməyə imkan yaratmışdır. Xüsusilə, dünyanın yaranmasına, insan və təbiət münasibətinin ilkin mərhələsinə, hər kəsin xoşbəxt ola biləcəyi sakit və hüzurlu yaşamın mümkünlüyünə dair fəlsəfi düşüncələrlə uşaq dünyasının saf duyğularının qovuşdurulması sülh obrazının yaradılması üçün maraqlı tapıntıdır. Orkestrdə orqan, arfa, rəngarəng zərb tembrlərinin tətbiqi ilə yanaşı əsas mövzuların ifasında ağac nəfəslilərin üstünlük nümayiş etdirməsi də əsas ideyaya qulluq edən yanaşmalardan biridir. Bu seçim daha çox həmin alətlərin oratoriyanın fəlsəfi məzmunundan doğan dərin və təmkinli mövzuların təqdimatı üçün uyğunluğu fikrindən irəli gəlmişdir.

Bəstəkarın sülh mövzusuna müraciəti dünyada baş verən müharibələrə qarşı yönəlmiş bir çağırış mövqeyi daşıyır. Xüsusilə bu çağırış nidalarını bəstəkarın “Müharibə əleyhinə kantata”sında duymaq mümkündür. Soprano, bas, xor və orkestr üçün 1987-ci ildə yazılmış bu kantata eyni zamanda Azərbaycanda və keçmiş sovetlər birliyində böhran dövrünə təsadüf edir. Bu böhran həm 70 illik imperiyanın dağılmasına yönələn siyasi hadisələrlə, həm də onun tərkibində olan xalqlar arasında süni şəkildə qızışdırılan milli ədavət problemindən yaranmışdı. Azərbaycan və Ermənistan arasında tədricən dərinləşən gərginləşmələr 1990-cı ildə Qanlı yanvar və Qarabağ uğrunda müharibənin başlanması ilə nəticələnmişdi. F.Hüseynovun bu kantatası

T.Aslanlının sözlərinə bəstələnmişdir. Əsər sovet dönəmi üçün mühüm tarixi hadisə hesab edilən Böyük Oktyabr İnqilabının 70 illik yubileyinə həsr olunmuşdu. Lakin, F.Hüseynovun yaradıcılığında sülh mövzusunun mövqeyinə nəzər salsaq, bu əsər ithafdan daha geniş və dərin ideyaları özündə birləşdirmişdir. Bir hissədən ibarət kompozisiyada ifadə edilən əsas məzmun daha çox dissonans səslənmələr, əksidilmiş intervallar, alterasiyalı intonasiyalar vasitəsilə çatdırılır. Maraqlıdır ki, F.Hüseynov bu əsərində daha çox müharibənin dəhşətlərini anlatmağa çalışmış, inqilaba həsr olunmasına baxmayaraq, kantatada əslində insanlığa qarşı cinayət obrazında verilən müharibənin qorxu və gərginlik törədən siması təsvir olunur.

F.Hüseynovun yaradıcılığında sülh mövzusu əsərin ümumi ideyasının tərkibində də özünü göstərir. Məsələn, bəstəkarın "Kodayu" operasında Rusiya və Yaponiya arasında gərgin münasibətlərin fonunda tacir Kodayunun rus balıqçıları tərəfindən xilas edilməsi, onun və yoldaşlarının sağ qalmasında göstərdikləri fədakarlıq sülh obrazının təcəssümü kimi çıxış edir. Eyni şəkildə "Kraliça Aba" baletində Olba krallığı və Roma imperiyası arasında münasibətlərin gərginləşməsinin Abanın sülhsevər siyasəti nəticəsində aradan qaldırılması səhnəsi misal ola bilər. Soprano və simli kvartet üçün 1998-ci ildə yazılmış "Stabat mater" sülh mövzusunu əzab çəkən ana obrazında təcəssüm etdirmişdir.

**Nəticə**

Bəstəkar yaradıcılığında sülh mövzusunun müxtəlif rakurslardan tərənnüm edilməsinə parlaq misal kimi Fərhəng Hüseynovun əsərləri diqqəti cəlb edir. Bu əsərlərdə sülh mövzusu həm müharibə, həm də rifah və əmin-amanlıq baxımından tərənnüm olunur. Bəstəkar sülhün anlamını həm obraz, həm də əsas ideyanın çatdırılması üçün aparıcı qüvvəyə çevrilir. Eyni zamanda F.Hüseynov sülh mövzusu üçün vokal-instrumental, xor, musiqili səhnə janrlarına müraciət edərək onun ümumbəşəri dəyərini ortaya qoymuşdur. Xor kollektivçilik və güc ifadə edir, kantatalar önəmli tarixi qələbələrə, qəhrəmanlıqlara həsr olunur, oratoriya janrı monumentallığı ilə güclü təsir qüvvəsinə malik bir janrdır. Bütün bu üstünlüklər F.Hüseynovun sülh mövzulu əsərlərində ustalıqla dəyərləndirilmişdir. Təhlilə cəlb etdiyimiz "Yer üzündə sülhə nail olmalı" oratoriyasında bəstəkar musiqi ifadə vasitələrinin gücündən məharətlə bəhrələnmiş, bu əsərdə sülh mövzusunu daha çox fəlsəfi məzmunda göstərməyə nail olmuşdur.

## Ədəbiyyat siyahısı

1. Abdullayeva Z. (2009). Fərhəng Hüseynov – 60. Musiqi dünyası, № 3-4(41), 118-119.
2. Abdullayeva Z. (2020). Fərhəng Hüseynov. Azərbaycan musiqi tarixi, V cild. Bakı: Elm, s.390-413.
3. Əliyeva A. (2024). Azərbaycan musiqi mədəniyyətində Fərhəng Hüseynovun yaradıcılıq nailiyyətləri. Musiqi dünyası, 4(101), s.86-90.
4. Hacıbəyli Ü. Sovet Azərbaycanının musiqi mədəniyyətinin tərəqqisi. URL: https://uzeyir.musigi-dunya.az/az/article44.html
5. Heydərova Ş. (2014). Fərhəng Hüseynov. Bakı: Şərq-Qərb nəşriyyatı.
6. Hüseynov F.R. (1995). "Yer üzündə sülhə nail olmalı" oratoriyası [Notlar] / Partitura. Əlyazma.
7. Novruzov N. Unudulmaz iki ömrün dastanı / Respublika. − 2017, 22 dekabr. − s.7.
8. Vəzirova G., Quliyeva G. (2020). Müstəqillik dövründəAzərbaycan musiqi mədəniyyətinin inkişaf təmayülləri. Azərbaycan musiqi tarixi, V cild. Bakı: Elm, s.10-53.

rus dilində

9. Алиева Ф.Ш. Японские дни Фарханга Гусейнова / Ирс. − 1999. − с.95-98.

**Айнура Алиева Тахир кызы**

# КОНЦЕПЦИЯ МИРА В ПРОИЗВЕДЕНИЯХ ФАРХАНГА ГУСЕЙНОВА

**Резюме:** В статье исследуются художественно-эстетические и философские аспекты воплощения темы мира в творчестве азербайджанского композитора Фарханга Гусейнова. Рассматриваются исторические предпосылки формирования идеи мира в музыкальном искусстве, а также особенности её интерпретации в азербайджанской композиторской школе. Особое внимание уделяется произведениям композитора, посвящённым гуманистическим идеалам, в числе которых кантата «Против войны», *Stabat Mater*, «Гимн солнцу» и оратория «Да восторжествует мир на Земле». Анализ показывает, что тема мира в

творчестве композитора раскрывается не только как антивоенный призыв, но и как философская концепция духовной гармонии человека, его единства с природой и утверждения общечеловеческих ценностей. Существенную роль в музыкальной драматургии произведений играют детский хор, религиозные тексты, многослойная оркестровая фактура, выразительные тембры деревянных духовых и богатая палитра ударных инструментов, усиливающие эмоционально-смысловое воздействие художественного образа мира. Таким образом, произведения Фарханга Гусейнова на тему мира являются ярким примером воплощения гуманистических идеалов в азербайджанской музыкальной культуре и обладают значительным художественно-философским содержанием.

**Ключевые слова:** Фарханг Гусейнов; тема мира; оратория; вокально-симфоническая музыка; азербайджанская композиторская школа.

**Aynura Aliyeva Tahir**

## THE CONCEPT OF PEACE IN THE WORKS OF FARHAN GHUSEYNOV

**Summary:** The article explores the artistic, aesthetic, and philosophical aspects of the embodiment of the theme of peace in the creative work of Azerbaijani composer Farhang Huseynov. It examines the historical prerequisites for the formation of the idea of peace in musical art, as well as the distinctive features of its interpretation within the Azerbaijani composer school. Particular attention is given to the composer’s works devoted to humanistic ideals, including the cantata Against War, Stabat Mater, Hymn to the Sun, and the oratorio May Peace Prevail on Earth. The analysis demonstrates that the theme of peace in the composer’s oeuvre is revealed not only as an anti-war appeal, but also as a philosophical concept embodying the spiritual harmony of humanity, its unity with nature, and the affirmation of universal human values. A significant role in the musical dramaturgy of these works is played by the children’s choir, sacred texts, multilayered orchestral texture, expressive woodwind timbres, and a rich palette of percussion instruments, all of which intensify the emotional and semantic impact of the artistic image of peace. Thus, Farhang Huseynov’s peace-themed compositions represent a vivid embodiment

of humanistic ideals in Azerbaijani musical culture and possess substantial artistic and philosophical depth.

**Key words:** Farhang Huseynov, theme of peace, oratorio, vocal-symphonic music, Azerbaijani composer school.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 09.05.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.05.2026**

**UOT 78.**
**ORCID: 0000-0002-5685-5628**
**DOI: 10.52094/CRZI7521**

**İqbal Orucov Qardaşxan oğlu**
**Qarabağ Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**iqbal.orucov@gmail.com**

# İ.S. BAXIN Es-Dur FLEYTA SONATASI (BWV 1031): FORMA, ÜSLUB VƏ MƏNBƏ PROBLEMLƏRİNİN TƏDQİQİ

**Xülasə:** Bu məqalə, İohan Sebastian Baxa aid edilən və Barokko dövrü fleyta repertuarının aparıcı əsərlərindən biri hesab edilən Es-dur fleyta sonatasını (BWV 1031) tarixi, forma və musiqi baxımından hərtərəfli şəkildə tədqiq və təhlil etməyi hədəfləyir. Əsərin müəllifliyi ətrafında uzun müddətdir davam edən mübahisələr nəzərə alınaraq, əvvəlcə onun bəstəkarlıq mənsubiyyəti ilə bağlı mənbə problemləri və üslub təhlilləri müqayisəli şəkildə araşdırılmışdır. Əlyazmaları və dövrün nüsxələri üzərində aparılan tədqiqatlar, əsərin İ.S. Baxın oğlu Karl Filip Emanuel Baxa da aid edilə biləcəyini göstərir; bu isə əsərin orijinallığı ilə bağlı musiqişünaslıq ədəbiyyatında mühüm müzakirə sahəsi yaradır. Məqalənin metodologiyası analitik musiqişünaslıq, tarixi musiqi tədqiqatları və ifa praktikası prinsipləri üzərinə qurulmuşdur. Əsərin üç hissəsi (Allegro moderato, Siciliano, Allegro) forma, tonal və kontrapunkt quruluş və bəzək (ornamentasiya) texnikası baxımından da təhlil edilmişdir. Xüsusilə Siciliano hissəsinin melodik quruluşu və emosional dərinliyi, Barokko estetikasının tipik xüsusiyyətləri kontekstində şərh edilmişdir. Həmçinin, əsərin Barokko dövrünün ifa təcrübəsi ilə müasir interpretasiyaları arasındakı fərqlərə də toxunulmuş, həmin dövrün traverso adlı fleytası ilə müasir fleyta arasındakı texniki və estetik fərqlər vurğulanmışdır. Tədqiqat çərçivəsində, dövrün üslub anlayışı ilə sonata formasının təkamülü arasındakı əlaqəyə də diqqət yetirilmişdir. Xüsusilə, Bax ailəsində üslub müxtəlifliyinin necə formalaşdığı və bunun kamera musiqisinə necə əks olunduğu barədə nəticələr çıxarılmışdır. Əsərin musiqi dili yalnız texniki deyil, eyni zamanda ifadə gücü baxımından da dəyərləndirilmiş, bu da araşdırmaya həm struktur, həm də estetik səviyyədə dərinlik qazandırmışdır. Bundan əlavə, əsərin dövrün hansı sosial mühitlərində

ifa edilə biləcəyi, həmçinin musiqi məzmununun bu kontekstlərlə necə əlaqələndirilə biləcəyi də müzakirə edilmişdir. Nəticə etibarilə, BWV 1031 sonatası yalnız bir kamera musiqisi nümunəsi kimi deyil, eyni zamanda Bax ailəsinin üslub keçidlərini sənədləşdirən mühüm musiqi abidəsi kimi dəyərləndirilir. Bu araşdırma, əsərin həm tarixi bağlamda, həm də müasir ifa praktikaları baxımından daha dərindən anlaşılmasına töhfə verməyi hədəfləyir.

**Açar sözlər:** Bax, fleyta sonatası, Barokko üslubu, müəlliflik problemi, musiqi analiz

## Giriş

İohan Sebastian Bax (1685-1750) Qərb musiqisi tarixində yalnız Barokko dövrünün bəstəkarı kimi deyil, həm də harmonik quruluş, kontrapunkt texnikaları və formanın bütövlüyü baxımından dövrləri aşan bir musiqi dahisi kimi qəbul olunur [25, s. 276]. Onun zəngin və çoxqatlı musiqi irsi daxilində, kamera musiqisi repertuarı həm tədris məqsədli əsərləri, həm də konsert və sonata səviyyəsində Barokko üslubunun ən incə nümunələrini təqdim edir. Bu repertuara daxil olan *Es-dur fleyta sonatası (BWV 1031)* həm ifaçılar, həm də tədqiqatçılar tərəfindən xüsusi maraqla öyrənilmiş, quruluş zərifliyi və emosional dərinliyi ilə seçilmişdir. Lakin əsərin müəlliflik problemi – İohan Sebastian Baxmı, yoxsa oğlu Karl Filip Emanuel Baxmı? – müasir musiqişünaslıq ədəbiyyatında hələ də aktuallığını qoruyan bir mübahisə mövzusudur [28, s. 45]. Bu vəziyyət əsərin yalnız musiqi baxımından deyil, həm də tarixi-tənqidi çərçivədə araşdırılmasını zəruri edir.

Bu tədqiqatın əsas məqsədi BWV 1031 nömrəli Es-dur fleyta sonatasının tarixi kontekst, forma quruluşu, üslub xüsusiyyətləri və ifa praktikaları baxımından çoxqatlı təhlilini təqdim etməkdir. Araşdırma bir tərəfdən əsərin dövrünə xas estetik və üslubi elementlərini təhlil etməyi, digər tərəfdən isə onun müasir ifa yanaşmaları ilə necə yenidən mənalandırıldığını qiymətləndirməyi qarşısına məqsəd qoyur. Bundan əlavə, əsərin pedaqoji funksiyası Barokko dövründəki fleyta sonatalarının ümumi xarakteri ilə müqayisəli şəkildə qiymətləndiriləcək və bununla da sonatanın musiqi tarixindəki mövqeyi yenidən müəyyənləşdiriləcəkdir.

Baxın kamera musiqisi sahəsindəki yaradıcılığı, xüsusilə alət müxtəlifliyi və kontrapunkt tarazlığı baxımından yüksək səviyyədə orijinallıq ehtiva edir [6, s. 45]. Fleyta, violin, violonçel və klavesin kimi alətlər üçün yazdığı sonatalar həm alətlərarası dialoq, həm də harmonik qatlaşma quruluşu baxımından

Barokko dövrünün inkişaf etmiş sintez bacarığını nümayiş etdirir. Bu kontekstdə BWV 1031 əsəri travers (Barokko üfüqi fleytası) və klavesin üçün yazılmış olması, həm texniki, həm də tembr xüsusiyyətləri etibarilə Barokko dövrünə xas özəllikləri əks etdirir. Lakin, müasir fleyta ilə ifa zamanı yaranan tembr fərqi, yeni estetik yanaşmaların meydana çıxmasına səbəb olur; bu isə tədqiqatın tarixi ifa praktikasını və çağdaş interpretasiyalar arasındakı qarşılıqlı əlaqəni araşdırmasını zəruri edir. Musiqi analizləri forma quruluşu (forma analizi), tonallıq dəyişmələri, kontrapunkt əlaqələri, bəzək texnikaları (ornamentasiya) və ritmik təşkil başlıqlar çərçivəsində aparılacaqdır. Həmçinin əsərin üçüncü hissəsi olan *Allegro*-nun rəqsvarı quruluşu və birinci hissədəki tematik inkişaf ayrıca nəzərdən keçiriləcəkdir.

Barokko dövrünün musiqi anlayışı - xüsusilə *Affektenlehre* (duyğu nəzəriyyəsi), kontrapunkt yazı tərzi, *basso continuo* funksiyası və bəzək dili - Baxın sonata yaradıcılığında müəyyənedici ünsürlər kimi qarşımıza çıxır [9, s. 21]. Bu kontekstdə Es-dur fleyta sonatası həm dövr estetikasını əks etdirən bir nümunə, həm də Bax ailəsinin musiqi düşüncəsindəki üslubi keçidləri göstərən bir sənəd xarakteri daşıyır. Bu xüsusiyyətləri ilə sözügedən əsər həm ifaçılar, həm də tədqiqatçılar üçün zəngin təhlil imkanları təqdim edir.

XVIII əsrin ilk yarısı Avropada musiqinin forma və üslub baxımından dərin dönüşümlər yaşadığı bir dövr kimi diqqət çəkir. Bu dövr, Barokko üslubunun təmtəraqlı kontrapunkt quruluşundan *“galant style”* adlanan daha sadə, melodiya yönümlü və duyğusal baxımdan fərdi ifadəsinə doğru inkişaf etdiyi bir zaman intervalını təmsil edir. İ.S. Bax bu keçid mərhələsində yaşamasına baxmayaraq, Barokko estetikasının ən inkişaf etmiş formalarını təcəssüm etdirən bir bəstəkar olaraq qalmışdır. Onun musiqisində müşahidə olunan sıx kontrapunktal toxuma, harmonik mürəkkəblik, tematik işlənmə və struktur bütövlük, onu müasirlərindən, hətta öz övladlarından aydın şəkildə fərqləndirir. Xüsusilə Karl Philip Emanuel Baxın daha *“galant* və *Empfindsamer Stil”* istiqamətində əsərlər yaratması, ata ilə oğul arasındakı bəstəkarlıq anlayışının nəsillər üzrə musiqi təkamülünü necə əks etdirdiyini göstərir.

İ.S. Bax yaşadığı müddət ərzində əsasən Lüteran kilsə musiqisinə, orqan repertuarına və tədris məqsədli əsərlər üzərində cəmləşmiş olsa da, kamera musiqisi sahəsində də diqqətəlayiq bir irs qoymuşdur. Fleyta üçün yazdığı sonatalar – BWV 1031 də onlardan biridir. Həm dövrün zadəgan mühitində ifa olunması üçün nəzərdə tutulmuş, həm də texniki baxımdan ifaçının inkişafına xidmət edən pedaqoji məzmun daşıyır. Xüsusilə fleyta Barokko dövründə

aristokrat alət kimi qəbul edilmişdi; bir çox zadəgan həvəskar musiqiçi bu alətdə ustalaşmağa çalışmışdır. Bu səbəbdən, fleyta sonataları çox zaman həm əyləndirici, həm də öyrədici funksiyaları daşımışdır [29, s. 495]. BWV 1031-in mümkün bəstələnmə konteksti də bu çərçivədə – 1730-cu illərin ortalarında Leypsiq və ya Drezden kimi mədəniyyət mərkəzlərində bir həvəskar musiqiçinin sifarişi ilə yaranmış ola bilər.

Baxın əsərləri yalnız səs quruluşu ilə məhdudlaşmır, eyni zamanda dövrünün düşüncə mühitini (intellektual fon) də özündə əks etdirir. Onun musiqisində lüteranlıq, kosmoloji nizam anlayışı, rəqəm (say) simvolizmi və teoloji anlayışlar kimi elementlər melodik və harmonik səviyyədə konkretləşir. Halbuki, K.F.E. Baxın musiqi dili daha fərdi duyğulara yönələn, ani hiss dəyişikliklərini əks etdirən, daha dramatik və spontan ifadə prinsiplərinə əsaslanır. *Empfindsamer Stil* (həssas üslub) adlandırılan bu yanaşma, Klassik dövrə keçid prosesində mühüm bir ara mərhələsi olmuş, *"galant style"*nin struktur sadəliyini dramatik dərinliklə birləşdirmişdir [11, s. 112]. Bu kontekstdə BWV 1031-in üslub baxımından hansı ənənəyə daha yaxın olduğu sualı yalnız tarixi bir müzakirə deyil, eyni zamanda musiqi üslubunun təhlili baxımından da əhəmiyyətlidir.

Barokko dövrünün ifa anlayışı da bəstəkarlıq qədər mühüm bir amildir. Həmin dövrdə nota yazılmayan bəzəklər, improvizasiya keçidləri (passajları) və *basso continuo* tətbiqləri, əsərin canlı musiqi kontekstində yenidən yaradılmasını tələb edirdi. Müasir ifalarda bu praktikalardan yenidən istifadə və onların bərpası, ifa təcrübəsi baxımından böyük əhəmiyyət daşıyır. Buna görə də BWV 1031-in hazırda necə ifa olunduğu və həmin ifaların dövrün anlayışı ilə nə dərəcədə uyğunluq təşkil etdiyi tədqiqatın əsas problemlərindəndir.

Nəticə etibarilə, bu kontekstual zəmin həm əsərin orijinallığı müzakirəsinə tarixi dərinlik qazandırır, həm də İ.S. Baxın kamera musiqisi estetikasını öz dövrü və sonrakı nəsillər baxımından daha aydın şəkildə dəyərləndirməyimizə imkan yaradır. Bu cəhətdən, tədqiqatımız Es-dur fleyta sonatasının yalnız bir musiqi əsəri kimi deyil, eyni zamanda mədəni və tarixi bir sənəd kimi yenidən nəzərdən keçirilməsini təklif edir.

## Əsas hissə

**Tarixi və bioqrafik kontekst: İ.S. Baxın həyatı və dövrünə ümumi baxış.** İohan Sebastian Bax (1685-1750) Barokko dövrünün ən mühüm bəstəkarlarından biri kimi qəbul edilir. Almaniyanın Ayzenax şəhərində anadan olan Bax həm ailə irsi, həm də dövrün musiqi inkişafları baxımından çoxqatlı bir

mənəvi-mədəni mühitin daşıyıcısı idi. Baxlar ailəsi nəsillər boyu musiqi ilə məşğul olmuş, bu ənənə İ.S. Baxın yaradıcılığına da ötürülmüşdür. İohan Sebastian xüsusilə kilsə musiqisi, oratoriyalar, kantatalar və instrumental əsərlər sahəsində son dərəcə məhsuldar bir fəaliyyət göstərmişdir [27, s. 123]. Baxın yaşadığı dövr Avropada musiqi nəzəriyyəsi və ifa praktikasının ciddi şəkildə sistemləşdiyi, kontrapunkt və çoxsəsli yazı texnikalarının zirvəyə çatdığı bir dönəm idi. Barokko estetikasının əsasını təşkil edən *affekt nəzəriyyəsi* çərçivəsində məqsəd, duyğuların musiqidə sistemli şəkildə ifadə olunmasını hədəfləyirdi [15, s. 457]. Bu kontekstdə Baxın əsərləri yalnız texniki ustalığı ilə deyil, eyni zamanda dərin mənəvi məzmunu və ritorik ifadə gücü ilə də seçilir. Yaşadığı həyatı boyu Veymar, Köten və Leypsiq kimi mühüm alman şəhərlərində fəaliyyət göstərmişdir. Xüsusilə Leypsiqdəki *Thomaskantor vəzifəsi* (1723-1750) onun dini musiqi yaradıcılığının ən məhsuldar dövrü olmuşdur. Bununla yanaşı, həmin illərdə o, instrumental musiqisi sahəsində də mühüm əsərlər yaratmağa davam etmişdir [27, s. 211-220].

**Fleyta sonatalarının tarixi mövqeyi.** Barokko dövründə travers fleyta (dövrün fleytası) aristokrat mühitlərdə böyük rəğbət bəslənən bir solo alətə çevrilmişdi. Fleytanın texniki imkanları, dinamik çeşidliliyi və melodik xətlərdəki zərifliyi, onu solo və kamera musiqisi repertuarının mərkəzinə yerləşdirmişdi. Həmin dövrdə fleyta üçün yazılan sonatalar xüsusilə zadəgan musiqi zövqünün göstəricisinə çevrilmişdir [20, s. 61]. Baxın fleyta sonataları həm texniki bacarıq, həm də bədii ifadə baxımından dövrün digər nümunələrindən fərqlənir. Adətən *continuo* müşayiəti ilə yazılmış bu əsərlər ifa dialoqu və kontrapunkt quruluşu baxımından zəngin nümunələr təqdim edir. Baxın fleyta sonataları arasında BWV 1030-1035 nömrələri altında toplanan altı sonata, repertuarın təməl daşlarını təşkil edir [27, s. 315]. Bu sonataların bəziləri birbaşa Baxın özü tərəfindən bəstələnmiş olsa da, bəzilərinin onun tələbələrinin və ya oğullarının qələmindən çıxmış olması mümkündür. Bununla belə, onların hər biri Bax mühitində formalaşmış üslubi (stilistik) dünyaya işıq tutur. Fleyta sonataları, eyni zamanda, Baxın ifa virtuozluğuna olan marağının və kamera musiqisinə dair anlayışının göstəricisidir [20, s. 63].

**BWV 1031-in bəstələnmə prosesi və orijinallığı.** BWV 1031, İ.S. Baxa aid edilən, fleyta və klavesin (adətən continuo deyil, obligato partiyalı[1]) üçün yazılmış üçhissəli bir sonatadır: *Allegro moderato*, *Siciliano*, *Allegro*. Əsər üslub

[1] İt. *obbligato;* lat. *obligatus* – musiqi ansamblında müşayiət olunan alətin məcburi bir hissəsi.

baxımından tipik Bax kontrapunktundan çox, "galant style" təsirlərini daşıyır. Məhz bu xüsusiyyətlərinə görə BWV 1031-in birbaşa Baxın öz qələmindən çıxıb-çıxmaması, yoxsa onun oğullarından biri – xüsusilə K.F.E. Bax (1714-1788) tərəfindən bəstələnib-bəstələnməməsi məsələsi uzun illərdir müzakirə mövzusudur [7, s. 24].

Xüsusilə XX əsr musiqişünaslarından Alfred Dür (1918-2011) və Peter Vollny (1961) BWV 1031-in üslub xüsusiyyətlərinin K.F.E. Baxa daha yaxın olduğunu qeyd etmişlər [7, s. 23]. Digər tərəfdən, əlyazma mənbələri əsərin İ.S. Bax tərəfindən yazıldığını və ya ən azı onun nəzarəti altında meydana gəldiyini göstərir. Əsərin bir nüsxəsi K.F.E. Baxın əl yazısı ilə mövcuddur ki, bu da onun atası ilə sıx əməkdaşlığını göstərir [20, s. 64; 7, s. 25; 27, s. 322]. Sonatanın ikinci hissəsi olan *"Siciliano"* xüsusilə lirik quruluşu, arpecciolu klavesin müşayiəti və melodik sadəliyi ilə "galant style"nin – həm Barokko sonata formasının, həm də son Barokkodan Klassik dövrə keçidin izlərini daşıyır; bu səbəbdən bəzi tədqiqatçılar əsərin K.F.E. Bax tərəfindən bəstələnmiş ola biləcəyini irəli sürürlər. Bununla belə, bir çox musiqişünas üslub fərqlərinə baxmayaraq, BWV 1031-in yenə də İ.S. Baxın bəstəkarlıq nəzarəti altında meydana gəldiyini düşünür [20, s. 63]. BWV 1031 əsəri, həm Baxın kamera musiqisi yaradıcılığının mühüm bir hissəsi kimi, həm də stilistik keçid dövrünün nümayəndəsi kimi diqqətəlayiqdir. Əsərin bəstələnmə prosesi təkcə Baxın fərdi yaradıcılığının nəticəsi deyil, həm də ailə daxilindəki musiqi mübadiləsinin məhsulu kimi qiymətləndirilə bilər. Bu isə Barokko dövrü musiqi yaradıcılığının kollektiv mahiyyətini və Bax ailəsinin musiqidəki mərkəzi rolunu ortaya qoyur.

**Əsərin mənbələri və orijinallığı haqqında müzakirələr: Əlyazmalar, nüsxələr və köçürənlər haqqında məlumatlar.** Əsərin orijinal əlyazma nüsxəsi günümüzədək gəlib çatmamışdır. Bu vəziyyət, əsərin orijinallığı ilə bağlı ilk şübhələri doğurur. BWV 1031 nömrəli əsərin bu günədək qorunub saxlanılmış ən erkən mənbələri K.F.E. Bax tərəfindən yazılmış nüsxələrlə təmsil olunur. Ən tanınmış surət Berlin Dövlət Kitabxanasının *(Berlin Staatsbibliothek)* arxivində qorunan və K.F.E. Baxın öz əli ilə yazılan əlyazmadır (Mus.ms. Bach P 1062). Bu nüsxə əsərin olduqca dəqiq və diqqətlə köçürülmüş variantını ehtiva etdiyindən, tədqiqatçılar arasında uzun müddət əsərin K.F.E. Baxa aid ola biləcəyi istiqamətində şübhələr yaratmışdır [20, s. 112]. Əsərin başqa bir nüsxəsi isə İ.S. Baxın tələbəsi və yaxın çevrəsindən olan Kristian Fridrix Penzel (1737-1801) tərəfindən qələmə alınmışdır. Penzel, Leypsiqdəki Tomas məktəbində son illərində İ.S. Baxın tələbəsi olmuş və onun bir çox əsərini köçürərək

günümüzədək çatdırmışdır. Penzelin əlyazması həmçinin əsərin Bax ailəsinin repertuarına daxil olduğunu və ifa praktikasında istifadə edildiyini göstərir [23, s. 287]. Hər iki əlyazma da birbaşa İ.S. Baxa aid deyil, buna görə də onun orijinallığı mübahisəlidir. Lakin xüsusilə Penzel kimi tələbələrin müəllimlərindən eşitdikləri musiqiləri yazıya köçürmələri o dövrdə tez-tez rast gəlinən bir təcrübə idi. Bu baxımdan, hər iki mənbə dolayısı ilə Bax ailəsinə işarə edir.

**Əsərin müəllifliyi və musiqi paleoqrafiyası baxımından qiymətləndirilməsi.** Musiqi paleoqrafiyası baxımından qiymətləndirildikdə, əsər təəssüf ki, İ.S. Baxın öz əlyazması ilə sənədləşdirilmədiyi (təsdiqlənmədiyi) üçün *“birbaşa (birinci dərəcəli)”* sayılacaq mənbələrdən deyildir. Müasir musiqişünaslıqda bir əsərin *“etibarlı (otoritativ) mənbə”* statusu qazana bilməsi üçün ya müəllifin avtoqraf nüsxəsinin mövcudluğu, ya da bəstəkarın təsdiqi ilə nəşr edilmiş bir çap variantı olması zəruridir [27, 2000]. Bu baxımdan, BWV 1031 əsəri üçün *“müəlliflik səlahiyyəti”* anlayışı yalnız dolayı mənbələr və stilistik analiz əsasında qurulmalıdır. Berlin Dövlət Kitabxanasındakı kataloq (Bach Digital layihəsi çərçivəsində rəqəmsallaşdırılmışdır) həm K.F.E. Baxın əlyazmasını, həm də musiqinin strukturunu öyrənmək imkanı təqdim edir. Xüsusilə not yazısı, artikulyasiya və bəzək elementlərindəki fərqliliklər, köçürənin şərhinin musiqiyə nə dərəcədə təsir etdiyini göstərir [Bach Digital, Berlin Staatsbibliothek Manuscript Database: Mus.ms. Bach P 1062].

İ.S. Baxın bəstəkarlığı ilə bağlı ən əsas səlahiyyət mənbəyi adətən onun əlyazma avtoqraflı nüsxələridir. Lakin BWV 1031 əsəri üçün belə bir avtoqraf mövcud deyil. Bu səbəbdən, mənbə tənqidi baxımından, əsərin səlahiyyəti mübahisəli bir zəmin üzərində dayanır. Bəzi musiqişünaslar stilistik elementlərin (xüsusilə 2-ci hissə olan “Siciliano”nun lirik melodik quruluşu və harmonik axınının) İ.S. Baxın yetkin dövr üslubunu əks etdirdiyini irəli sürürkən, bəziləri isə bu cür zərif, “galant” təsirli üslubun daha çox K.F.E. Bax və ya İ.Y. Kvants (1697-1773) kimi adlarla üst-üstə düşdüyünü qeyd edirlər [12, s. 198-202]. Musiqinin forma quruluşu və kontrapunkt elementləri baxımından təhlil etdiyimizdə, xüsusilə final hissəsindəki texniki ustalıq İ.S. Baxın stilistik imzasını daşıyır kimi görünür. Lakin bu vəziyyət, əsərin bir əməkdaşlıq nəticəsində meydana gəlmiş ola biləcəyi və ya İ.S. Baxın bəzi tematik materialları oğlu K.F.E. Baxa vermiş ola biləcəyi barədə hipotezləri də dəstəkləyir.

**Stilistik müqayisələr: "Galant"mı, kontrapuntalmı? K.F.E. Bax yoxsa İ.S. Bax?** BWV 1031 əsərinin ikinci hissəsi olan Siciliano, "galant" üslubunun ən gözəl nümunələrindən biri kimi qiymətləndirilir. Sabit ritmik quruluş, homofonik toxuma və zərif melodik xətt K.F.E. Baxın erkən dövr əsərləri ilə yaxınlıq təşkil edir. Bununla belə, əsərin üçüncü hissəsi olan *Allegro*, sıx səkkizlik pasajlarla bəzədilmiş, canlı ritmik quruluş və modulyasiyalara malik olması ilə İ.S. Baxın yetkin dövr üslubunu xatırladır [12, s. 218-222]. Bəzi musiqişünaslar bu iki üslubun eyni əsərdə mövcudluğunu "birgə müəlliflik" *(collaborative authorship)* ehtimalı kimi şərh etmişlər. Yəni, ata-oğul arasında tematik ideyaların, eskizlərin və ya tamamlanmamış hissələrin mübadilə edilə biləcəyi düşünülür [14, s. 313-357]. İkinci suala gəlincə, eyni fikrin təkrarı olaraq, cavabı - həm stilistik analiz, həm də sənəd araşdırmaları baxımından hələ də aydınlıq qazanmayıb. K.F.E. Baxın öz əli ilə bu əsərin nüsxəsini hazırlaması, onun sadəcə bir köçürənmi, yoxsa bəstəkarmı olduğu sualını gündəmə gətirmişdir. K.F.E. Baxın musiqisində müşahidə olunan "galant style" elementləri BWV 1031 əsərində də mövcud olmaqla yanaşı, İ.S. Baxın son dövr əsərlərində də bu cür ifadələrlə qarşılaşmaq mümkündür. Digər tərəfdən, P. Vollny kimi tədqiqatçılar əsərin tamamilə K.F.E. Bax tərəfindən bəstələnmiş fikrinin müdafiəçisidir və atasının adı ilə nəşr edilmiş ola biləcəyini ehtimal daxilində qiymətləndirir [26, s. 67].

**Əsərin forma və struktur analiz: 1-ci hissə: Allegro Moderato.** BWV 1031 əsərinin açılış hissəsi olan *Allegro moderato*, klassik Barokko sonata formasının tipik xüsusiyyətlərini daşıyır və təxminən 4-5 dəqiqə davam edir. Hissə ümumiyyətlə *da capo (ABA)* formasında qurulmuşdur; bu, əsas temanın (A) təqdim olunması, ardınca zidd temanın (B) təqdim edilməsi və sonda yenidən əsas temaya qayıtmaq şəklindədir. Tonallıq baxımından Es-dur-da başlayır və hissə boyu qısa müddətli modulyasiyalar müşahidə olunur. Bu modulyasiyalar adətən dominant (B-dur) və relativ (müvafiq) minor tonallıqlar (c-moll) arasında keçid edərək dinamik bir tonallıq hərəkətliliyi yaradır. Melodik quruluş baxımından birinci tema olduqca kanonik və simmetrik struktura malikdir. Mövzu ritmik baxımdan nizamlı və hərəkətli səkkizlik motivlərlə işlənmişdir; bu da əsərə canlılıq və axıcılıq qazandırır. Mövzu üzərində edilən kiçik variasiyalar əsərin hərəkətliliyini saxlayır və monotonluğa düşməsini əngəlləyir. Müşaiyət hissəsi (klavsen) adətən arpeccio üslubundadır; fleytanın melodik xəttini dəstəkləyərkən kontrapunkt baxımından da tarazlı bir quruluş nümayiş etdirir və hissənin ritmik axıcılığını gücləndirir.

**2-ci hissə: Siciliano.** Sonatanın ikinci hissəsi olan *Siciliano,* Barokko musiqisində tez-tez rast gəlinən bir rəqs formasını təmsil edir və əsərə lirik, emosional bir fasilə təqdim edir. Bu hissə adətən *6/8 və ya 12/8 ölçü* quruluşunda və yüngül dalğalı, sadə bir ritmlə ifa olunur. Əsərdə sicilianonun[2] xarakterik xüsusiyyətləri aydın şəkildə müşahidə olunur. Forma baxımından, hissə əsasən *sadə ABA* quruluşuna malikdir. *A* hissəsində əsas tema zərif, dalğalı melodiyalar yer alarkən, *B* hissəsi adətən kontrast yaratmaq üçün daha hərəkətli və ya fərqli tonallıq hissəsinə keçə bilər. Bu hissədə tonallıq c-moll və ətraf tonlarda davam edir. Melodik quruluş olduqca bəzəkli və təbii xarakter daşıyır; fleytanın ifadəyə əsaslanan cümlələri geniş intervallarla və yumşaq keçidlərlə işlənir. Müşayiət hissəsi klavsendə, birinci hissədə olduğu kimi daha sakit, arpeccio şəklində və balanslaşdırılmış kontrapunktla davam edir. Üslub baxımından, Siciliano hissəsi Barokko dövrünün lirik və emosional tərəfini ön plana çıxarır. Burada K.F.E. Baxın "galant style" xüsusiyyətlərinin izlərinə də rast gəlmək mümkündür; xüsusilə daha aydın, şəffaf və melodik ifadə forması dövrün klassik musiqi estetikası ilə üst-üstə düşür. Bu hissədə bəzəklər əsərin ifadəsini zənginləşdirən vacib elementlərdəndir. Hissə daxilində hər iki bəzək notu genişləndirilmiş şəkildə ifa olunan və təxminən səkkizlik not uzunluğunda olan *forşlag*-lardır (alm. *Vorschlag*). Bundan əlavə, hissənin sonuna yaxınlaşarkən, final xanəsindən dərhal əvvəlki *lya* notunun adətən *trel* ilə ifa olunması geniş yayılmış bir təcrübədir. Bu tətbiq əsərə yüngül bir parlaqlıq və dramatik vurğu qataraq dinləyici üzərində emosional təsir yaradır. Bu bəzəklər həm əsərin Barokko bəzək ənənəsi ilə uyğunluğunu, həm də bəstəkarın stilistik seçimlərini göstərir. Bəzəklərin tətbiqi dövrün ifa praktikası və yazılı işarələrlə dəstəklənməsə də, ifaçıya müəyyən bir interpretasiya azadlığı da təmin edir.

**3-cü hissə: Allegro.** Es-dur sonatasının üçüncü və son hissəsi olan *Allegro,* əsərin enerjisini və texniki parlaqlığını üzə çıxarır. Bu hissə, Barokko sonatalarının final hissələri üçün səciyyəvi olan dinamik və virtuoz xarakter daşıyır. Forma baxımından bu hissə, sadə sonata formasının xüsusiyyətlərini göstərir. Əsas tema aydın və ritmik baxımdan hərəkətlidir; ondan sonra gələn kontrastlı temalar modulyasiyalarla dəstəklənir və hissənin sonunda əsas tema yenidən təkrarlanır. Bu quruluş dinləyicidə bütövlük hissi yaradır. Hissə *Es-dur* tonallığında başlayır, təxminən 22-ci xanədən etibarən $B^{b}$*-dur* tonallığına keçir

[2] İt. *Siciliano* - tər. *siciliyalı.* Siciliya mənşəli olduğu güman edilən, pastoral xarakterli qədim italyan rəqsi. XVII-XVIII əsrlərdə instrumental və vokal musiqidə xüsusilə yayılmışdır.

və bu tonal istiqamət 60-cı xanədəki reprizayadək davam edir. Bu müvəqqəti modulyasiya, əsərin forma quruluşundakı ikinci tematik sahəni müəyyənləşdirir və Barokko dövrünün sonata anlayışına uyğun olaraq dominant mərkəzli yönüm təqdim edir. Repriza ilə birlikdə Es-dur tonallığına dönüş təmin olunsa da, hissənin gedişində tonal sabitlik zaman-zaman pozulur; xüsusilə 61-113-cü xanələr arasında *As-dur* və *f-moll* ətrafında qısamüddətli harmonik yönəlmələr müşahidə olunur. Bu müvəqqəti yönəlmələr əsas tonallığın dönüşünü gecikdirərək dramatik təsiri gücləndirir. Son hissələrdə isə güclü kadanslarla Es-dur tonallığına qayıdılaraq əsərin balanslı və tamamlanmış quruluşla sona çatması təmin edilir. Burada da bəzək notlarının səkkizlik notlar şəklində ifa edilməsi tövsiyə olunur. *Melodik quruluş* sürətli arpeccio fiqurları və onaltılıq pasajlarla işlənmişdir. Fleytanın virtuozluğu burada ön plana çıxır; pasajların hərəkətliliyi əsərə canlılıq və enerji qatır. Bundan əlavə, hissədə kontrapunktal toxuma aydın şəkildə hiss olunur; xüsusilə fleyta və klavesin arasında baş verən qarşılıqlı dialoqlar, çoxsəsli musiqinin incəliklərini nümayiş etdirir. *Müşayiət hissəsi* (klavesin) sürətli arpecciolarla dəstəklənməklə yanaşı, zaman-zaman sıx kontrapunktal elementlərlə də özünü göstərir. Klavesinin ritmik və harmonik rolu fleytanın melodik xəttini gücləndirməklə kifayətlənmir, eyni zamanda əsərin bütövlükdə quruluşunu da möhkəmləndirir. Bu son hissə, sonatanın texniki və musiqi baxımından zirvəsi hesab olunur; dinləyicini coşğulu bir finala aparır və əsərin ümumi quruluşunu təsirli şəkildə tamamlayır.

**Üslub xüsusiyyətləri və ifa şərhləri.** BWV 1031 sonatasının ifası yalnız notların düzgün ifasından ibarət deyil; əsərin Barokko dövrü üslub xüsusiyyətlərini əks etdirə bilməsi üçün bəzəklər, artikulyasiya, dinamika və alət seçimi kimi bir çox parametrlərin diqqətə alınması tələb olunur. Əsərin ifasında dövrün üslub xüsusiyyətlərini nəzərə almaq, əsərin düzgün başa düşülməsi və ötürülməsi baxımından son dərəcə önəmlidir. Barokko dövrünün ornamentasiyası bu əsərdə, xüsusilə ikinci - yavaş hissədə mühüm yer tutur. Əlyazmalarda rast gəlinən bəzək işarələri (məsələn, *forşlaq, trel*) çox vaxt ətraflı şəkildə yazılmamış, ifaçıya müəyyən qədər sərbəstlik verilmişdir. Bununla belə, dövrün mənbələri (məsələn, C.Ph.E. Bach - *"Versuch über die wahre Art das Clavier zu spielen"* əsəri, 1753) bu bəzəklərin necə tətbiq edilməli olduğu barədə mühüm ipucları təqdim edir. Əsərin ikinci hissəsindəki forşlaqlar qısa və vurğulu deyil, əksinə melodik quruluşun bir hissəsi kimi uzadılaraq ifa edilir. Bu da göstərir ki, bəzəklər təkcə texniki deyil, eyni zamanda ifadəvi elementlər olduğunu ortaya qoyur. Xüsusilə əsərin ikinci hissəsi olan Siciliano, bəzəklər

baxımından diqqət çəkicidir. Hissədə üç yerdə açıq şəkildə qeyd olunmuş forşlaq mövcuddur; onların tətbiqində dövrün ifa praktikasına uyğun olaraq bu notlar qısa və vurğulu deyil, əksər hallarda demək olar ki, səkkizlik not uzunluğunda ifa olunur [17, s. 135; 4, s. 92]. Bundan əlavə, son xanədən dərhal əvvəlki *lya* notunun bir çox müasir ifalarda *trel* ilə bəzədilməsi yazılı olmasa da, dövrün üslubuna uyğun bir ifa anlayışına işarə edir. Barokko bəzəkləri çox zaman yazılı mənbələrlə məhdudlaşmadığı üçün, ifaçının dövrün estetik anlayışına və frazaların təbiətinə uyğun şəkildə improvizasiya etməsi gözlənilir [2, s. 81-84]. *Artikulyasiya və dinamika* baxımından, dövrün ifa praktikasında aydın *leqato* və ya *stakkato* işarələri çox nadir hallarda istifadə olunmuşdur. İfaçılar frazaları təbii nitq ritminə uyğun formalaşdıraraq, nəfəs alma nöqtələrini və vurğu yerlərini intuitiv şəkildə müəyyənləşdirirdilər. Dinamika isə klavesinin mexaniki quruluşu səbəbindən məhdud olduğuna görə, daha çox artikulyasiya və notların müddəti ilə ifadə olunurdu. Müasir fleyta və klavesin ifalarında bu məhdud dinamik diapazona sadiq qalmaq, üslub baxımından mühüm hesab edilir. Əsərdə artikulyasiya və dinamika baxımından da oxşar bir elastiklik mövcuddur. Barokko dövründə, müasir notasiya sistemindəki kimi ətraflı artikulyasiya və ya dinamika işarələrindən adətən istifadə olunmurdu. Buna görə də ifaçılar musiqi cümlələrini nitqin ritmi və təbii nəfəs axınına uyğun şəkildə formalaşdıraraq, zəruri vurğuları və keçidləri intuitiv yolla yaradırdılar [12, s. 142]. Klavesinin məhdud dinamik imkanları nəzərə alındıqda, artikulyasiya və notların müddəti bu mənada daha həlledici rol oynayır.

Əsərin dövr alətləri ilə ifası üslub baxımından böyük fərqliliklər yaradır. Barokko dövrünün taxta fleytası (*traverso*), müasir fleyta ilə müqayisədə daha yumşaq və isti səs rənginə malikdir. Bu, xüsusilə Siciliano kimi kantilen melodiyaların daha təbii və zərif şəkildə ifa olunmasına imkan verir [22, s. 498]. Klavesin müşayiəti adətən arpeccio tərzindədir və melodik xətti dəstəkləməklə yanaşı, kontrapunkt baxımından da tarazlı bir quruluş yaradır. Bu quruluş hissənin ritmik axıcılığını gücləndirir [12, s. 144].

Müasir və tarixi ifa anlayışları arasında da əhəmiyyətli fərqlər mövcuddur. XX əsrin ortalarında Jan-Pyer Rampal (1922-2000) kimi fleyta ifaçıları, bu əsəri müasir fleyta ilə, romantik bir ifadə anlayışı çərçivəsində ifa etmişlər. Bu dövrdə müasir fleyta ilə həyata keçirilən ifalar adətən daha parlaq səs rəngi və romantik ifadə xüsusiyyətləri ilə seçilsə də, 1970-ci illərdən etibarən inkişaf edən *tarixi ifa yanaşması* (*HIP - Historically Informed Performance*), əsərin dövrünə uyğun alətlərlə və estetik anlayışla səsləndirilməsinə üstünlük vermişdir. Frans Brüggen

(1934-2014), Bartold Küyken (1949) və Rayçel Braun (1975) kimi sənətçilər dövr mənbələrinə əsaslanaraq bəzəklər, templər və artikulyasiya məsələlərində tarixi dəqiqliyə əsaslanan nümunələr təqdim etmişlər [5, 2002].

Xülasə olaraq, BWV 1031-in ifasında texniki bacarıqdan daha vacib, tarixi bilik, üslub intuisiyası və dövr estetikasına uyğun bir yanaşma tələb olunur. Bu amillər nəzərə alındıqda, əsər yalnız instrumental bir forma olmaqla kifayətlənmir, eyni zamanda dövrün duyğu dünyasını əks etdirən bir ifadə sahəsinə çevrilir.

**Əsərin musiqişünaslıqdakı yeri və təsiri: Digər Bax əsərləri ilə müqayisələr**. BWV 1031, Es-dur sonatası, İ.S. Baxın nəfəs aləti üçün yazdığı kamera musiqisi repertuarının xüsusi nümunələrindən biridir. Xüsusilə fleyta və klavesin dueti üçün bəstələnmiş olması, onu *b-moll sonatası, BWV 1030* və ya *A-dur sonatası, BWV 1032* kimi digər fleyta sonataları ilə birbaşa müqayisə etməyə imkan verir. Sonata, xüsusilə zərif melodik xətti və rəqs formaları təsirindəki quruluşu ilə, Baxın kontrapunktik sıxlığının xaricində, daha "galant" üsluba meylli əsərlərinə nümunə təşkil edir. Bu baxımdan, Andante hissəsindəki lirik ifadə, BWV 1030-dakı mürəkkəb fuqal quruluşdan fərqli olaraq, daha homofonik bir ifadə sərgiləyir [16, s. 47]. Bu vəziyyət əsərin ehtimal ki, K.F.E Bax ilə üslub paylaşdığını və 1730-cu illərdən sonra baş verən stilistik dəyişiklikləri əks etdirdiyini göstərir [30, s. 212]. Bundan əlavə, BWV 1031-in üç bölməli quruluşu italyan konsert formasından təsirlənmiş görünür. Bu forma anlayışı, İ.S. Baxın XVIII əsrin əvvəllərindəki italyan üslubuna olan heyranlığını əks etdirməklə yanaşı, onun fransız və alman üslublarını da birləşdirərək orijinal bir musiqi dili yaratdığını sübut edir [3, s. 132].

**Barokko repertuarına təsiri.** BWV 1031, Barokko dövrünün son mərhələsində solo alət və *basso continuo* anlayışının xaricində bir müşayiət konsepsiyasını təmsil edir. Klavesinin yalnız bas xəttini deyil, həm də kontrapunktik müşayiət elementlərini öz üzərinə götürməsi, bu sonatanın klavesin partiyasını *"obbligato"* (məcburi) edir. Bu yanaşma Barokko dövrü üçün tipik hesab olunmayan və daha çox erkən Klassik dövrünə xas bir anlayışı göstərir [19, s. 198]. Əsərin Siciliano hissəsi, Barokko dövrü ərzində sıxlıqla müraciət olunan lirik və rəqs xarakterli orta hissələr ənənəsinin uğurlu bir nümunəsidir. Bu hissə, həm texniki cəhətdən əlçatan olması, həm də emosional dərinliyi sayəsində sonrakı bəstəkarlar tərəfindən tez-tez örnək kimi götürülmüşdür. Məsələn, K.F.E Baxın fleyta sonatalarında oxşar *"affekt"* istifadəsi müşahidə olunur [18, s. 268]. Əsər, xüsusilə fransız və italyan

üslublarının sintezini təqdim etməsi baxımından Barokko repertuarında üslubi bir keçid mərhələsi rolunu oynamış və “galant style”nin fleyta repertuarına daxil olmasında öncül əsərlərdən biri olmuşdur.

**Nəticə.** Baxın Leypsiq dövrü ilə əlaqələndirilən digər fleyta sonataları ilə müqayisədə, bu əsərdə müşahidə edilən melodik xətlər və forma anlayışı daha “galant” bir ifadəyə yönəlmişdir. Bu da əsərin yalnız İ.S. Baxın bəstəkarlığına deyil, həm də K.F.E. Baxın stilistik təsirlərinə açıq bir quruluş nümayiş etdirdiyini göstərir. Eyni zamanda, əlyazma mənbələri arasında görülən nüsxə fərqlilikləri və bəzək notlarındakı müxtəliflik, əsərin dövrün ifa praktikaları kontekstində heterogen bir struktur nümayiş etdirdiyini əks etdirir.

Əldəki mövcud olan məlumatlar göstərir ki, əsərin İ.S. Baxın birbaşa nəzarəti və ya təsdiqi altında formalaşdığı yönündə ümumi musiqişünaslıq fikri mövcuddur. Bununla belə, xüsusilə “Siciliano” hissəsində hiss olunan estetik seçimlərin K.F.E. Baxın Berlin dövrü üslubu ilə oxşarlıq göstərməsi, əsərin orijinallığı müzakirələrinə yeni bir ölçü əlavə edir. Nəticə etibarilə, əsər ilə bağlı əldə olunan tapıntılar, onun müəllifliyi və tarixi mövqeyi haqqında qəti bir qənaətə gəlməyi çətinləşdirir. Bunun əksinə, çoxqatlı və keçid xarakterli bir quruluşa işarə edir. Bu səbəbdən əsər həm üslub baxımdan, həm də mənbə tənqidi kontekstində, gələcəkdə daha ətraflı araşdırmalara açıq bir sahə təşkil edir.

Bu araşdırma çərçivəsində həyata keçirilən mənbə təhlilləri və stilistik qiymətləndirmələr, BWV 1031 Es-dur sonatasının müəllifliyi ilə bağlı qəti bir nəticəyə gəlməyi çətinləşdirir. Əsər İ.S. Bax tərəfindən bəstələnmiş hesab olunsa da, xüsusilə K.F.E. Bax başda olmaqla dövrün digər bəstəkarları ilə paylaşdığı üslub oxşarlıqları, əsərin mənsubiyyəti barədə fərqli təfsirlərə yol açır. Əsərin heç bir əlyazma nüsxəsinin Baxın öz xətti ilə yazılmaması isə, onun orijinallığı haqqında davam edən müzakirələrə konkret istiqamət verməkdə yetərsizdir. Əsərin həm Barokko dövrünə xas olan kontrapunktik elementləri, həm də “galant style”yə məxsus aydın melodik-harmonik sadəliyi özündə birləşdirməsi, onun keçid dövrü əsəri kimi qiymətləndirilməsini mümkün edir. Bu üslub müxtəlifliyi təkcə bəstəkarlıq texnikası baxımından deyil, həm də dövr estetikasının dəyişən mahiyyətini üzə çıxarır. Bu baxımdan, BWV 1031 kimi əsərlər musiqişünaslıq sahəsində yalnız musiqi quruluşu əsasında deyil, həm də tarixi və sosial-estetik kontekstlərdə çoxşaxəli şəkildə araşdırılmalıdır. Bundan əlavə, əsərin pedaqoji repertuarda da yer alması, onun öz dövründə tədris məqsədləri üçün istifadə edildiyini də düşündürür. Lakin bu istifadənin əsərin

üslub baxımından sadələşdirilmiş versiyaları üzərindənmi həyata keçirildiyi, yoxsa mövcud mənbələrin birbaşa istifadə olunub-olunmadığı məsələsi hələ də açıq qalan bir sualdır. Əlyazmalarda müşahidə olunan bəzi ziddiyyətli nüanslar və bəzəklər isə, ifa ənənələri ilə mənbə ötürülməsi arasındakı münasibətin də araşdırılmasını zəruri edir. Bu kontekstdə Hans-Georg Qadamerin (1900-2002) *"anlama üfüqlərinin qovuşması"* (*Horizontverschmelzung*) kimi təyin etdiyi yanaşma, əsərin müasir şərhində tarixi biliklə çağdaş estetik həssaslığın qaçılmaz şəkildə iç-içə keçdiyini göstərir (Gadamer H-G., 1975, s. 264). Digər tərəfdən, Riçard Taruskinin tarixi ifa praktikasına dair tənqidləri, keçmişə yönəlmiş mütləq *"autentik ifa"* axtarışının əksər hallarda müasir bir idealizasiya olduğunu vurğulayır (Taruskin R., 1995, s. 102). Bu iki yanaşma birlikdə nəzərdən keçirildikdə, BWV 1031 əsərinin həm tarixi bir sənəd, həm də müasir musiqi obyekti kimi daşıdığı ikitərəfli funksiyası aydın şəkildə ortaya çıxır. Nəticə etibarilə, əsərin müəllifliyi, üslubu və mənbələri ətrafında aparılan mövcud müzakirələr daha geniş miqyaslı paleoqrafik tədqiqatlar və stilistik müqayisələr vasitəsilə dərinləşdirilməsi zəruridir. Xüsusilə əlyazma mənbələrin texniki və diplomatik baxımdan yenidən qiymətləndirilməsi, bu müzakirələrin gələcəkdə daha aydın bir elmi əsas üzərində qurulmasına töhfə verəcəkdir.

## Ədəbiyyat siyahısı:

1. Bach Digital, Berlin Staatsbibliothek Manuscript Database: Mus.ms. Bach P 1062.

2. Bach, C.Ph.E. (1753). Versuch über die wahre Art das Clavier zu spielen. Berlin.

3. Boyd, M. (1993). Bach. Oxford University Press.

4. Brown, R. (1999). The Early Flute: A Practical Guide. Cambridge University Press.

5. Butt, J. (2002). Playing with History: The Historical Approach to Musical Performance. Cambridge University Press.

6. Butt, J. ( 2010). Bach's Dialogue with Modernity: Perspectives on the Passions. Cambridge: Cambridge University Press.

7. Dürr, A. (1960). "Zur Echtheit der Flötensonate Es-dur BWV 1031". Bach-Jahrbuch.

8. Gadamer, H.-G., (1975). Truth and Method (J. Weinsheimer & D. G. Marshall, Trans.). Continuum, (Original work published 1960).

9. Harnoncourt, N. (1988). Baroque Music Today: Music As Speech. Tər. Mary O'Neill. Portland: Amadeus Press.

10. Haskell, H. (1988). The Early Music Revival: A History. Thames & Hudson.

11. Heartz, D. (2003). Music in European Capitals: The Galant Style, 1720-1780. New York: W.W. Norton & Company.

12. Ledbetter, D. (2009). Unaccompanied Bach: Performing the Solo Works. Yale University Press.

13. Marshall, R. L. (1974). "The Authenticity of the Flute Sonatas Attributed to J. S. Bach". The Musical Quarterly, c. 60 (4).

14. Marshall, R. L. (1976). "Bach the Progressive: Observations on His Later Works". The Musical Quarterly, vol. 62, no. 3.

15. Marshall, R. L. (1981). "The Compositional Process of J. S. Bach". The Musical Quarterly.

16. Marshall, R. L. (1990). The Music of Johann Sebastian Bach: The Sources, the Style, the Significance. Schirmer.

17. Quantz, J. J. (1752). Versuch einer Anweisung die Flöte traversiere zu spielen. Berlin.

18. Sadie, S., & Tyrrell, J. (Eds.). (2001). The New Grove Dictionary of Music and Musicians (2nd ed.). Macmillan.

19. Schulenberg, D. (2006). The Music of Carl Philipp Emanuel Bach. University of Rochester Press.

20. Schulenberg, D. (2014). The Music of Carl Philipp Emanuel Bach. Rochester: University of Rochester Press.

21. Taruskin, R. (1995). Text and Act: Essays on Music and Performance. Oxford University Press.

22. Taruskin, R. (2005). The Oxford History of Western Music. Vol. 2: The Seventeenth and Eighteenth Centuries. Oxford University Press.

23. Terry, Ch. S. (1928). Bach: A Biography. Oxford University Press.

24. Toff, N. (2012). The Flute Book: A Complete Guide for Students and Performers (3rd ed.). Oxford University Press.

25. Williams, P. (2007). J.S. Bach: A Life in Music. Cambridge: Cambridge University Press.

26. Wollny, P. (1999). "Zur Echtheit von BWV 1031". Bach-Jahrbuch.

27. Wolff, Ch. (2000). Johann Sebastian Bach: The Learned Musician. New York: W.W. Norton & Company.

28. Wollny, P. (2005). “Carl Philipp Emanuel Bach and the Flute Sonatas Attributed to J. S. Bach”. Early Music.

29. Zaslaw, N. (1977). “The Baroque Flute and Its Context”. The Musical Quarterly, c. 63 (4).

30. Zohn, S. (2008). Music for a Mixed Taste: Style, Genre, and Meaning in Telemann’s Instrumental Works. Oxford University Press.

**Игбал Оруджев Гардашхан оглы**

# ФЛЕЙТОВАЯ СОНАТА ES-DUR И.С. БАХА (BWV 1031): ИССЛЕДОВАНИЕ ФОРМЫ, СТИЛЯ И ПРОБЛЕМ ИСТОЧНИКОВ

**Резюме:** Статья направлена на всестороннее изучение и анализ флейтовой сонаты Es-Dur (BWV 1031), приписываемой Иоганну Себастьяну Баху и считающейся одним из ведущих произведений флейтового репертуара эпохи барокко, с исторической, формальной и музыкальной точек зрения. С учетом длительных споров относительно авторства (аутентичности) произведения, сначала были сравнительно исследованы вопросы источников и стилистический анализ, связанные с принадлежностью сонаты композитору. Исследования рукописей и копий того времени показывают, что произведение также может быть приписано сыну Иоганна Себастьяна Баха - Карлу Филиппу Эммануэлю Баху; это создает значительное поле для дискуссий в музыковедческой литературе относительно подлинности сонаты. Три части произведения (Allegro moderato, Siciliano, Allegro) были проанализированы с точки зрения формы, тональной и контрапунктной структуры, а также техники орнаментации. Кроме того, рассмотрены различия между исполнением в эпоху барокко и современными интерпретациями, подчеркнуты технические и эстетические различия между флейтой traverso того времени и современной флейтой. Музыкальный язык произведения оценивался не только с технической, но и с выразительной точки зрения, что добавило исследованию глубину как на структурном, так и на эстетическом уровне. В результате соната BWV 1031 рассматривается не только как пример камерной музыки, но и как важный музыкальный памятник, документирующий стилевые переходы внутри семьи Бахов. Данное исследование направлено на более глубокое понимание произведения как в историческом контексте, так и с точки зрения современной исполнительской практики.

**Ключевые слова:** Бах, флейтовая соната, барочная стилистика, проблема авторства, музыкальный анализ

**Igbal Orujov Gardashkhan**

## J.S. BACH'S ES-DUR FLUTE SONATA (BWV 1031): A STUDY OF FORM, STYLE AND SOURCE ISSUES

**Summary:** This article aims to conduct a comprehensive study and analysis of the Es-Dur flute sonata (BWV 1031), attributed to Johann Sebastian Bach and regarded as one of the leading works of the Baroque flute repertoire, from historical, formal, and musical perspectives. Considering the long-standing debates surrounding the authorship (authenticity) of the work, it first examines the source issues and stylistic analyses related to its compositional attribution in a comparative manner. Research on manuscripts and period copies indicates that the work could also be attributed to Johann Sebastian Bach's son, Carl Philipp Emanuel Bach; this creates a significant area of discussion in musicological literature concerning the work's authenticity. The three movements of the sonata (Allegro moderato, Siciliano, Allegro) have been analyzed in terms of form, tonal and contrapuntal structure, and ornamentation techniques. Additionally, the study addresses the differences between Baroque performance practice and modern interpretations, emphasizing the technical and aesthetic distinctions between the period traverso flute and the modern flute. The musical language of the work has been evaluated not only technically but also in terms of expressive capacity, adding depth to the study both structurally and aesthetically. Consequently, the BWV 1031 sonata is regarded not only as an example of chamber music but also as an important musical monument documenting the stylistic transitions within the Bach family. This study aims to contribute to a deeper understanding of the work both in its historical context and in terms of contemporary performance practices.

**Key words:** Bach, flute sonata, Baroque style, authorship problem, musical analysis.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 18.02.2026**

**Məqalənin çapa qəbul olunma tarixi: 27.02.2026**

**UOT 78:004.032.6:530.145**
**ORCID: 0000-0001-6251-7556**
**DOI: 10.52094/SIUJ7299**

**Yasin Xələf oğlu Xəlilov**
**Bakı Mühəndislik Universiteti**
**Dosent**
**yxalilov@beu.edu.az**

# MUSİQİ VƏ KVANT İNFORMASİYA MODELİ

**Xülasə:** Məqalə musiqi fenomeninin təbiətini izah etmək üçün ənənəvi akustika, psixologiya və nevrobilim yanaşmalarının kənarına çıxan yeni bir ontoloji-enerji modeli təklif edir. Tədqiqatın əsas məqsədi, musiqi, səs və şüur arasındakı qarşılıqlı əlaqəni vahid bir "Kvant İnformasiya Modeli" çərçivəsində izah etməkdir. Giriş hissəsində musiqinin universal təsir qüvvəsi və onun ənənəvi elmlə izahında qalan boşluqlar – yaradıcılığın mənşəyi, harmonikaların universallığı və subyektiv məna problemləri qeyd olunur.

Əsas hissədə ilk növbədə musiqinin tarixi kökləri, Pifaqorun harmonik nisbətləri və müasir nevromusiqologiya, psixoakustika kimi elmi yanaşmaların musiqinin qavranılması prosesini necə izah etdiyi, lakin ontoloji çətinliklər qarşısında necə çətinlik çəkdiyi təhlil edilir. Daha sonra, bu çətinlikləri aradan qaldırmaq üçün Kvant Fizikası prinsipləri əsasında qurulan alternativ bir model təqdim olunur. Bu modelə görə, musiqi fundamental bir "kvant informasiya sahəsi"ndə superpozisiya halında mövcud olan ehtimal dalğaları kimi başa düşülür; bəstəkar, ifaçı və dinləyici isə bu sahə ilə qarşılıqlı əlaqədə olaraq informasiyanı "çökdürən" və fiziki reallığa köçürən amillərdir. Modelin dekoherensiya problemi ilə necə məşğul olduğu və ənənəvi kvant şüur nəzəriyyələrindən konseptual fərqi izah olunur.

Nəhayət, modelin izah qüvvəsi Azərbaycan muğamı, azan və ana laylası kimi konkret mədəni və təbii nümunələr üzərində yoxlanılır. Bu nümunələr əsasında modelin musiqinin emosional və transsendental təsirlərini necə vahid bir enerji-informasiya mübadiləsi prinsipi ilə izah edə biləcəyi göstərilir. Müqayisəli təhlildə isə təklif olunan ontoloji-enerji modelinin ənənəvi musiqi nəzəriyyələri qarşısındakı üstünlükləri və məhdudiyyətləri müzakirə olunur.

**Açar sözlər:** Kvant informasiya modeli, musiqi ontologiyası, enerji-informasiya mübadiləsi, muğam və şüur, harmonik universallıq

**Giriş.** Musiqi, insanlıq tarixinin bütün mərhələlərində və bütün mədəniyyətlərdə mövcud olan universal bir fenomendir. O, nəinki bir incəsənət forması, həm də insanın emosional, psixoloji və hətta fizioloji vəziyyətinə birbaşa təsir göstərən mürəkkəb bir hadisədir. Bu qədər universal və dərin təsir qüvvəsinə malik olması, onun təbiətini anlamaq üçün davamlı bir axtarışa səbəb olmuşdur.

Ənənəvi olaraq, musiqi fizika (akustika), psixologiya və musiqişünaslıq çərçivəsində öyrənilmişdir. Fiziki baxımdan o, müəyyən tezlik və amplitudalara malik səs dalğaları kimi təsvir olunur. Psixoloji baxımdan isə, musiqi xatirələr, assosiasiyalar və emosional proseslər vasitəsilə öyrənilir. Lakin, bu yanaşmaların hər bizi öz-özünə cavabsız suallar buraxır: Musiqinin müəyyən bir insanda niyə avtomatik olaraq göz yaşı axırtdıran və ya dərin trans vəziyyətinə salan gücü haradan gəlir? Niyə ana laylası bütün dünya körpələrini eyni dərəcədə sakitləşdirir? Musiqinin bu primitiv və eyni zamanda mürəkkəb təsirinin təməl mexanizmi nədir?

Müasir elm, xüsusilə nevrobilim və psixoakustika, musiqi qavrayışının başlanğıc nöqtəsini fiziki səs dalğaları kimi qəbul edir və onun qulaq, ilbiz, eşitmə siniri və nəhayət beyin korteksi, limbik sistem və mükafat mərkəzlərində necə emal olunduğunu ətraflı təsvir edir (Koelsch, 2014, s.170-180; Levitin, 2006). Funksional maqnit rezonans tomoqrafiyası (fMRI) kimi metodlar sayəsində musiqinin geniş neyronal şəbəkələri, o cümlədən emosiyaların idarə olunduğu amiqdala və həzzlə əlaqəli nukleus akkumbensi aktivləşdirdiyi sübuta yetirilmişdir. Lakin, bu empirik uğurlar bəzi fundamental sualları kölgədə qoyur:

**Yaradıcılıq problemi:** Neyrobilim, artıq mövcud olan musiqinin emalını izah edir, lakin bəstəkarın zehnində tam formada yaranan yeni bir melodiyanın – "ilham anı"nın – ontoloji mənbəyini izah edə bilmir;

**Universallıq problemi:** Niyə müəyyən harmoniyalar və interval nisbətləri (Pifaqorun kəşf etdiyi kimi) mədəniyyətlər arasında universal olaraq gərginlik və ya rahatlıq hissi yaradır? Bu, sadəcə öyrənilmiş bir konvensiya və ya bioloji bir adaptasiya ilə izah edilə bilərmi?

**Məna problemi:** Musiqinin yaratdığı subyektiv məna və bəzən "transsendental" olaraq təsvir edilən dərin təcrübələr (muğam dinləyicisinin yaşadığı katarsis) sırf neyrokimyəvi proseslərlə tam izah oluna bilərmi?

Bu çətinliklər, hadisəni yalnız beyin aktivliyi və ya səs fizikası səviyyəsində deyil, daha fundamental bir reallıq müstəvisində anlamağa ehtiyac olduğunu göstərir. Məhz bu boşluq, bizə musiqinin təbiətini anlamaq üçün daha geniş, transdisiplinar bir modelin zəruri olduğunu göstərir. Son illərdə kvant fizikası, informasiya nəzəriyyəsi və şüurun tədqiqi sahələrində əldə edilən irəliləyişlər, yeni bir baxış bucağı təklif etmə potensialına malikdir. Kvant fizikasının "hər şey enerji və vibrasiyadır" prinsipi ilə musiqinin fiziki təbiəti arasında birbaşa əlaqə qurmağa cəhd etməkdə fayda var, deyə düşünürük. Eyni zamanda, kvant nəzəriyyələri musiqinin kökdən necə yarandığını və insan şüuruna necə təsir etdiyini izah etməyə kömək edə bilər. Musiqi, **kvant informasiya sahəsindəki superpozisiya halında olan ehtimalların**, **qeyri-səlis məntiq qaydalarına əsasən** şüur tərəfindən 'çökdürülməsi' və fiziki reallığa keçirilməsi prosesidir. Bu proses xətti və diskret deyil, spektral və davamlıdır, deyə düşünürük.

Bu **tədqiqatın əsas məqsədi**, musiqi, səs və şüur arasındakı qarşılıqlı əlaqəni izah etmək üçün vahid bir **"Enerji-informasiya modeli"** çərçivəsi qurmaqdır. Bu model çərçivəsində:

- Musiqinin yalnız fiziki bir hadisə deyil, həm də fundamental bir informasiya sahəsinin məhsulu olduğu,
- Bəstəkar, ifaçı və dinləyicinin bu enerji-informasiya axınında müxtəlif rollar oynadığı,
- Musiqinin təsirinin, enerjinin şüur sahəsi ilə rezonansı nəticəsində yarandığı fikri irəli sürüləcəkdir.

Kvant fizikasının 'hər şey enerji və vibrasiyadır' prinsipi ilə musiqinin fiziki təbiəti arasında əlaqə qurmaq üçün Zadeh (1965)-in qeyri-səlis çoxluqlar nəzəriyyəsi əsasında yeni bir baxış təklif olunur.

Bu yanaşma, təkcə elmi dairələrdə deyil, həm də musiqi terapiyası, maarifləndirmə və insan şüurunun öyrənilməsi kimi sahələrdə də yeni perspektivlər aça bilər.

## 1. MUSİQİ HARMONİYASI

**1.1. Harmoniyanın "tarixi kökləri"**. Musiqi nəzəriyyəsinin əsasları qədim dövrlərdə riyazi-harmonik prinsiplər kimi formalaşmışdır. Pifaqor məktəbi (e.ə. VI əsr) tərəfindən kəşf edilmiş səsli interval nisbətləri (oktava – 2:1, kvinta – 3:2, kvarta – 4:3) musiqi ilə riyaziyyat arasında birbaşa əlaqəni ortaya qoymuşdur. Pifaqorçular üçün bu nisbətlər kainatın fundamental qaydalarını əks etdirirdi – "kosmosun musiqisi" anlayışı məhz onların təsiri ilə formalaşmışdır.

Platon "Dövlət" əsərində musiqi nəzəriyyəsini etika ilə bağlamış, müəyyən ladların insan xarakterinə (ethos) təsir göstərdiyini iddia etmişdir. Onun fikrincə, dor ladı qəhrəmanlıq, frig ladı isə hədsiz həyəcan oyadırdı. Aristotel də "Poetika" əsərində musiqi terapiyası anlayışını inkişaf etdirmiş, katarzis (təmizlənmə) konsepsiyasını irəli sürmüşdür.

İslam Qızıl Əsri alimləri musiqi nəzəriyyəsini yeni mərhələyə qaldırdılar. Əl-Kindinin "Musiqi haqqında risalə" əsəri ərəb dilində ilk sistemli musiqi traktatı hesab olunur. Əl-Farabi "Böyük musiqi kitabı"nda səsin fiziki təbiətini təhlil etmiş, səs titrəyişlərinin riyazi izahını vermişdir. İbn Sinanın "Əş-Şifa" əsərində isə musiqi terapiyasına dair fikirləri müstəqil fənn kimi təqdim olunmuşdur.

**1.2. Müasir elmi yanaşmalar: neyromusiqologiya və psixoakustika**. Müasir dövrdə musiqi tədqiqatları əsasən neyromusiqologiya və psixoakustika çərçivəsində inkişaf edir. Neuromusiqologiya – musiqi və beyin arasındakı qarşılıqlı əlaqəni öyrənən fənlərarası sahə kimi formalaşmışdır. Tədqiqatlar göstərir ki, musiqi zamanı beyində eşitmə, emosiya və hərəkət mərkəzləri eyni vaxtda aktivləşir (Zatorre, 2003, s. 4-14). Limbik sistemin, xüsusilə də amiqdalanın musiqi zamanı aktivliyi onun emosional təsir mexanizmini aydınlaşdırır.

Psixoakustika isə səsin psixofizioloji qavranışını öyrənir. Bu sahənin banisi sayılan Gustav Fechnerin (1801-1887) işləri səs fizikası ilə onun subyektiv qavranışı arasındakı əlaqəni müəyyən etmişdir. Müasir tədqiqatlar hər bir musiqi intervalının spesifik psixoloji təsirə malik olduğunu göstərir (Krumhansl, 1990).

**1.3. Musiqi qavrayışının izahında ontoloji çətinliklər**. Musiqi təcrübəsinin elmi izahı, onun fiziki bir hadisədən psixoloji bir reallığa çevrilməsinin mürəkkəb zəncirini təsvir edir. Bu prosesin hər bir halqası diqqətlə öyrənilmiş olsa da, onun son həqiqəti izah etmək qabiliyyəti fundamental çətinliklərlə üzləşir.

**1.3.1. Musiqi qavrayışının səyahəti**. Musiqi qavrayışının səyahəti fiziki dünyada səs dalğaları kimi başlayır. Bu dalğaların tezliyi (pitch), amplitudası (loudness) və mürəkkəb spektral quruluşu (timbre) musiqi parçasının xammalını təşkil edir. Qulaq seyvanı bu enerjini toplayaraq orta qulağa ötürür, burada ossikullar titrəyişi gücləndirir. Daxili qulaqda yerləşən koklea isə bu mexaniki titrəyişi neyral siqnala çevirən bir transduser kimi çıxış edir. Kokleanın bazilyar membranı üzərində yerləşən

minlərlə tük hüceyrəsi, müxtəlif tezliklərə uyğun rezonansa girərək, fiziki dünya üçün sinir sisteminin qapısını açır. Bu nöqtədə, səs enerjisi elektrokimyəvi impulslara çevrilərək eşitmə siniri vasitəsilə beyin kötüyünə doğru yola düşür.

**1.3.2. Beyində neyral emalın mərhələləri.** Beyin, bu neyral siqnalları mənalı bir musiqi təcrübəsinə çevirmək üçün iyerarxik və paralel bir emal sistemindən istifadə edir:

**İlkin emal: Xammalın təşkili:** Siqnallar ilk növbədə ilkin eşitmə qabığında (primary auditory cortex) emal olunur. Burada səsin əsas xüsusiyyətləri – ton yüksəkliyi, ucalıq və lokalizasiya – bir-birindən ayrılır. Bu, musiqi üçün xammalın hazırlandığı emal zonasıdır;

**Yüksək səviyyəli analiz: Mənanın axtarışı:** İlkin emaldan sonra məlumat, yuxarı yanqı oynağında (superior temporal gyrus) daha mürəkkəb analiz üçün paylanır. Bu bölgə melodiyanın konturunu, harmoniyanın ardıcıllığını və musiqi ifadələrinin strukturunu emal edir. Daniel Levitinin (2006) tədqiqatları göstərir ki, beyin daimi olaraq gələcək səslərə dair proqnozlar irəli sürür. Gözləntilərimiz təsdiqləndikdə (məsələn, tonik akkorda qayıdış) bir növ kognitiv mükafat, pozulduqda isə təəccüb və ya gərginlik hissi yaranır. Carol Krumhansl-ın (1990) tonal iyerarxiya nəzəriyyəsi də bu prosesi təsdiqləyir: dinləyicilər şüuraltı olaraq tonikanı (əsas not) və dominantı (beşinci notu) digər notlardan daha sabit və gözlənilən hesab edir, bu da musiqi dilinin qrammatikasının psixoloji əsasını təşkil edir;

**Emosional və bədii rənglənmə:** Musiqi yalnız struktur deyil, həm də emosiyadır. Bu aspektdə limbik sistem, xüsusilə də emosional yaddaş və reaksiyalarla bağlı amiqdala və hippokamp həlledici rol oynayır. Musiqi bu strukturları birbaşa aktivləşdirərək, güclü emosional xatirələr və assosiasiyalar oyada bilir;

**Bədənin cavabı və həzz:** Musiqinin ritmik tərəfi beyinciyi (cerebellum) və bazal qanqliyaları aktivləşdirərək, ayaq döymə və ya rəqs kimi motor reaksiyaları təşviq edir. Lakin ən diqqətçəkən kəşflərdən biri, musiqi ilə mükafat sisteminin əlaqəsidir. Ferreri və həmkaralarının (2019) tədqiqatları sübut edir ki, xoşumuza gələn, xüsusilə də gözləntilərimizi təmin edən və ya təəccübləndirən musiqi parçaları dinləyərkən, nukleus akkumbensdə dopamin ifraz olunur. Bu, qida, pul və ya sosial mükafat kimi digər həzz mənbələrindən alınan zövqlə eyni neyrokimyəvi mexanizmdir.

**1.4. Ontoloji çətinliklər: Elmin "Niyə" sualları qarşısında dəlilsiz qalması**. Nevrobilim və psixoakustikanın bu detallı xəritəsi müəyyən bir səviyyəyə

qədər "necə" sualına cavab verir: *Musiqi beyində necə emal olunur?* Lakin, bu, daha dərin ontoloji suallar qarşısında aciz qalır:

**Yaradıcılığın mənşəyi problemi:** Bu model, artıq mövcud olan bir musiqinin dinləyici tərəfindən emalını izah edir. Lakin bəstəkarın zehnində tamamilə yeni, heç vaxt eşidilməmiş bir melodiyanın, ya da harmonik irəliləyişin *ex nihilo* (heçdən) necə peyda olduğunu izah etmək qabiliyyətindən məhrumdur. Neyronların təsadüfi atəşi və ya keçirilmiş təcrübələrin yeni kombinasiyaları kimi izahlar, ilham anının keyfiyyətini – onun tamlıq, uyğunluq və gözlənilməz dərinlik hissini – tam əks etdirmir. Neyronların aktivlik nümunələri ilə tam formalaşmış musiqi ideyası arasındakı uçurum necə aradan qaldırılır?

**Məna və təcrübənin özünəməxsusluğu problemi:** Beynin müəyyən bir akkorda dopamin ilə cavab verməsi onun niyə "kədərli" (məsələn, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Leylinin qəbri üstündə Məcnunun fəryadı və ölümü, VI hissə) və ya "qəhrəmanlıq" (məsələn, Üzeyir Hacıbəyovun "Koroğlu" operasında Koroğlu uverturası) hissi oyatdığını izah etmir. Musiqi ilə emosiya arasındakı əlaqə, şəxsi yaddaş, mədəni kodlar və məna ilə bağlıdır. Eyni beyin aktivliyi nümunəsi bir şəxsdə xatirə, digərində isə boş bir emosional reaksiya yarada bilər. Fizioloji proseslər subyektiv məna və transsendental təcrübələri (məsələn, muğam dinləyərkən yaşanan katarsisi) necə yaradır?

**Harmonik universallıq problemi:** Niyə Pifaqor intervalları (məsələn, 3:2 nisbətində olan kvint) və ya müəyyən akkord irəliləyişləri (gərginlikdən həllə) dünyanın demək olar ki, bütün mədəniyyətlərində oxşar emosional reaksiyalar oyadır? Bu, sadəcə öyrənilmiş bir konvensiya və ya təbii seçmə nəticəsində yaranmış bir adaptasiya ilə tam izah edilə bilməz. Bu universal dil, onun yalnız beyin quruluşumuzun təsadüfi bir məhsulu olduğu fikri ilə kifayət qədər əsaslandırıla bilməz. Bu harmonik qanunların kökləri yalnız bioloji deyil, daha fundamental, riyazi-ontoloji bir səviyyədə yerləşirmi?

**Nəticə:** Musiqi qavrayışının elmi modeli, heyrətamiz bir mürəkkəblik və dəqiqliklə qurulmuşdur. Lakin, o, özünü təsvir etdiyi fenomenin mahiyyətini tam əhatə edə bilmir. O, musiqi təcrübəsinin "partiturasını" (neyronların necə "çaldığını") verir, lakin bu musiqinin niyə "gözəl" və ya "mənalı" olduğunu, onun haradan gəldiyini və niyə ürəyimizə belə dərin yolla çatdığını izah edə bilmir. Bu ontoloji boşluq, daha fundamental bir izah axtarışını – məsələn, musiqinin ilkin olaraq fiziki deyil, informasiya və ya ehtimal səviyyəsində mövcud olduğu fikrini – zəruri edir.

**1.5. Kvant paradigması və şüur**. Kvant fizikasının konseptual çərçivəsi musiqi tədqiqatları üçün yeni perspektivlər təqdim edir. Kvant mexanikasının əsas prinsipləri - dalğa-hissəcik dualizmi, müşahidəçi təsiri və enerjinin kvantlanması - informasiya və enerji mübadiləsinin təbiətini başa düşmək üçün fəlsəfi baza yaradır.

Kvant informasiya nəzəriyyəsi (John Wheeler, David Bohm) kainatın əsasının fiziki deyil, informatika olduğu fikrini irəli sürür. Bu baxımdan, musiqi qanunları fundamental informasiya sahəsinin təzahürü kimi şərh oluna bilər.

Penrose-Hameroffun "Orkestrləşdirilmiş obyekt çökümü" nəzəriyyəsi şüurun kvant əsaslarını ortaya qoymağa çalışır (Hameroff & Penrose, 2014, s.39-78). Bu nəzəriyyəyə görə, şüur prosesləri neyronların mikrotubullarında baş verən kvant halları ilə əlaqədardır. Onun əsas tezisləri aşağıdakılardır:

**Kvant hesablama mikrotubullarda:** Penrouz və Hameroff iddia edirlər ki, şüur klassik neyrokimyəvi proseslərin (sinapslar arasında siqnal ötürülməsi) birbaşa məhsulu deyil. Əksinə, o, beyin neyronlarının daxilindəki **mikrotubul-** adlanan zülal strukturlarında baş verən kvant hesablamalarının nəticəsidir.

**Mikrotubullar kvant sahəsi kimi:** Nəzəriyyəyə görə, bu mikrotubullar kvant superpozisiya vəziyyətlərini ("ehtimallar buluduun") qorumaq üçün kifayət qədər qapalı bir mühit təmin edirlər. Onlar kvant kompüterinin prosessorları kimi fəaliyyət göstərirlər.

**Obyektiv reduksiya:** Penrouzun fikrincə, superpozisiya vəziyyətinin özözünə çökməsi (reduksiya) xarici bir müşahidəçidən asılı deyil, obyektivdir və kosmik cazibə qüvvəsi kimi fundamental fiziki qanunlarla baş verir. Bu çökmə anları, şüur anlarının özüdür. "Orkestrləşdirilmiş" ifadəsi isə beyin biokimyasının bu kvant çökmələrini idarə etdiyini bildirir.

Beləliklə, Orch-OR nəzəriyyəsinə görə, düşüncə, emosiya və o cümlədən musiqi təcrübəsi də, nəhayət, neyronların daxilində baş verən bu kvant miqyaslı hadisələrin nəticəsidir.

Bu yanaşma musiqi təsirinin kvant səviyyəsində başa düşülməsi üçün konseptual baza təqdim edir. Əslində beyində baş verən proseslərin də kvant xarakterli olması iddiası aşağıda bizim tərəfdən irəli sürülən modelimizi daha da gücləndirir, çünki kvant informasiya sahəsi ilə beyinin kvant idarəetmə mexanizmləri arasında əlaqə eyni prinsipə bağlanır. Digər tərəfdən iddia olunur ki, kvant superpozisiya vəziyyətləri son dərəcə kövrəkdir. Ətraf mühitlə (atomlar, molekullar) ən kiçik bir istilik və ya fiziki qarşılıqlı təsir, onların koherent vəziyyətini məhv edir. Bu prosesə dekoherensiya deyilir. Fizik Maks Teqmark (2000) he-

sablamaları ilə göstərmişdir ki, beyin "isti, nəm və səs-küylü" bir mühitdir. Belə bir mühitdə, mikrotubullarda baş verən hər hansı bir kvant superpozisiyasının, şüurlu təcrübə üçün lazım olan vaxt miqyasında (millisaniyələr və ya daha çox) sağ qalması fiziki olaraq qeyri-mümkündür. Kvant effektləri nano- və ya pikosaniyələr ərzində dəkoherensiyaya uğrayarkən, beyin prosesləri min dəfə daha yavaş baş verir. Beləliklə, kvant effektlərinin belə bir sistemdə funksional bir rol oynayacağı fikri, mövcud fiziki biliklərlə ziddiyyət təşkil edir.

Kvant şüuru nəzəriyyəsinə qarşı əsas elmi etirazlardan biri də onunla bağlıdır ki, tənqidçilər iddia edirlər ki, şüurun yaranması üçün kifayət qədər mürəkkəb hesab edilən neyron şəbəkələri artıq mövcuddur, onların alt səviyyəsində daha bir kvant mexanizmini axtarmağa ehtiyac yoxdur. Bu, "həddən artıq izah" kimi qəbul edilə bilər. Belə çox ciddi tənqidlərə baxmayaraq, "kvant şüuru" fikri hələ tamamilə söndürülməyib. Bunun bir neçə səbəbi var:

**1. Anesteziya misteriyası:** Stuart Hameroff (2006) (anesteziologdur) qeyd edir ki, müəyyən qaz molekulları (xloroform, xenon və s.) şüuru söndürür, lakin onların sinir hüceyrələrinə heç bir zərəri yoxdur. Onun fikrincə, bu qazlar mikrotubulların kvant rezonansını pozur və beləliklə şüuru "söndürür". Bu, nəzəriyyə üçün dolayı bir dəlil kimi təqdim olunur.

**2. Kvant biologiyanın yüksəlişi**: Son illərdə, "kvant biologiyası" sahəsində sübutlar ortaya çıxır. Məsələn: **Quşların mexaniki kompası: Lambert və h. (2013)-ün qeyd etdiyi kimi,** bəzi quşların gözlərində Yerin maqnit sahəsini hiss etmələrini təmin edən kvant dolaşıqlığı əsaslı bir mexanizm aşkar edilib. **Fotosintez:** Bitkilər fotosintez zamanı enerjini ötürmək üçün kvant effektlərindən səmərəli şəkildə istifadə edirlər.

Bu kəşflər göstərir ki, "isti, nəm və səs-küylü" bioloji sistemlərdə də kvant effektləri mümkündür. Lakin, bunlar çox xüsusi, lokal və qısa müddətli proseslərdir. Şüur kimi mürəkkəb bir fenomeni idarə etmələri isə tamamilə fərqli bir məsələdir.

**3. Fəlsəfi cəlbedicilik:** Kvant nəzəriyyəsi, şüurun ən böyük fəlsəfi problemlərindən biri olan "İştirak problemi"nə (Hard Problem of Consciousness) – yəni fiziki bir prosesin (beyin) necə olub subyektiv bir təcrübə (hiss) yaratdığına – potensial bir həll təklif edir. Bu, onu bir çox filosof və alterativ elm tərəfdarları üçün cəlbedici edir.

Hazırkı elmi konsensus budur ki, beyin, şüurun yaranması üçün kifayət qədər mürəkkəb olan, lakin əsasən klassik (kvant olmayan) prinsiplərlə işləyən bir sistemdir.

Bizim təqdim etdiyimiz izahat kvant proseslərinin, o cümlədən superpozisiyanın beyində yox, kvant informasiya şəbəkəsində baş verdiyini iddia edir, beyində isə biz kollapsı müşahidə edirik.

## 2. KVANT İNFORMASİYA MODELİ VƏ DEKOHERENSİYA PROBLEMİNİN HƏLLİ

Təklif olunan **Kvant İnformasiya Modeli**, musiqi-şüur əlaqəsinə fundamental yeni bir baxış təqdim edir. Onun həqiqi dəyərini və statusunu qiymətləndirmək üçün onun əsas üstünlüklərini, qarşılaşdığı etirazları və xüsusilə də ən ciddi elmi problem olan dekoherensiya ilə necə davrandığını nəzərdən keçirmək vacibdir.

**2.1. Modelin üstünlükləri: "Niyə" sualına cavab**. Modelin əsas gücü, ənənəvi elmin metodoloji sərhədləri xaricində qalan suallara fəlsəfi bir izah çərçivəsi təqdim etməsindədir:

**Yaradıcılıq və ilhamın problemini həll edir:** Model, bəstəkarı yoxdan var edən deyil, fundamental informasiya sahəsində artıq mövcud olan ehtimalları kəşf edən və onları fiziki dünyaya "köçürən" bir kanal kimi təqdim edir. Bu, ilham anının təbiətini daha vüsətli bir şəkildə izah edir.

**Universallığı əsaslandırır:** Müxtəlif mədəniyyətlərdən insanların eyni harmonik qanunlara oxşar reaksiyalar verməsinin səbəbini hamımızın eyni fundamental **informasiya şəbəkəsinə** "qoşulmuş" olmamızla izah edir.

**Subyektiv məna və təcrübənin önəmini bərpa edir:** Model, musiqi təcrübəsini sırf fiziki bir proses kimi deyil, şüur ilə fundamental reallıq arasında baş verən mənalı bir qarşılıqlı əlaqə kimi qələmə verir.

**2.2. Dekoherensiya probleminin aradan qaldırılması: Əsas konseptual fərq**. Ən güclü elmi etiraz – **dekoherensiya problemi** – kvant şüuru nəzəriyyələrinə (məsələn, Orch-OR) qarşı yönəlmişdir. Lakin, bizim modelimiz bu problemdən əsaslı şəkildə fərqlənir və buna görə də onun tənqidinə məruz qalmamalıdır.

- **Ənənəvi kvant şüuru nəzəriyyələri (Orch-OR):** Bu nəzəriyyələr **kvant hesablamalarının özünün beyində baş verdiyini** iddia edir. Yəni, superpozisiya, dolaşıqlıq kimi kvant hadisələri beynin fiziki strukturlarında (mikrotubullar) cərəyan etməlidir. Məhz buna görə də, beyinin "isti, nəm və səsküylü" mühiti bu incə kvant hallarını nanosaniyələr ərzində məhv edir (Tegmark, 2000).

- **Bizim kvant informasiya modelimiz:** Bu modeldə, əsas kvant prosesləri (superpozisiya vəziyyəti) beyində deyil, ondan xaricdə – fundamental "kvant in-

formasiya şəbəkəsində" baş verir. Bu şəbəkə, beyin kimi bioloji məhdudiyyətlərə məruz qalmır və kvant hallarını qorumaq üçün ideal şəraitə malik ola bilər.

Buna görə də, beyinin vəzifəsi kvant hesablamaları aparmaq deyil, artıq hazır olan bu informasiya ilə qarşılıqlı əlaqədə olmaq və onu "çökdürmək"dir. Beyin, informasiya şəbəkəsindəki superpozisiya halındakı ehtimalları qəbul edən və onlardan birini – xüsusi bir melodiyanı, sözü, anlamı – öz neyron-fizioloji strukturu vasitəsilə konkretləşdirən (kollaps edən) bir qurğudur. Kvant hadisəsi (superpozisiya) şəbəkədə, klassik hadisə (çökmə/emal) isə beyində baş verir. Bu, dekoherensiya problemini kökündən aradan qaldırır, çünki model beyində uzunmüddətli kvant koherentliyinə ehtiyac duymur.

**2.3. Modelin məhdudiyyətləri və statusu: Elmi nəzəriyyə yoxsa, hermenevtik metafora?** Bu konseptual uğura baxmayaraq, modelin digər məhdudiyyətləri onun statusunu aydınlaşdırır. Belə ki, hazırki dönəmdə hər hansı bir empirik sınaq mümkün deyil, modelin "informasiya şəbəkəsi" və "enerji rezonansı" kimi mərkəzi anlayışları hazırkı elmi metodlarla ölçülə bilmir və ya birbaşa yoxlanıla bilmir, ona görə də kvant terminlərinin bu şəkildə istifadəsi onların dəqiq riyazi mənasını deyil, daha çox izahedici bir analogiyanı ötürür.

**Nəticə etibarilə, Kvant İnformasiya Modeli, elmi bir nəzəriyyə olmaq iddiasında deyil. Onun həqiqi dəyəri, bir hermenevtik (izahverici) metafora kimi çıxış edərək, musiqinin insan təcrübəsindəki dərin mənasını anlamaq üçün zəngin bir dil və çərçivə təmin etməsindədir.**

O, ənənəvi nevrobilimi tamamlayır, onunla rəqabət aparmır. Nevrobilim bizə musiqinin beyindəki "partiturasını" verir – hansı alətlərin (neyronların) nə zaman çaldığını göstərir. Kvant İnformasiya Modeli isə bu musiqinin ruhunu – onun haradan gəldiyini, niyə mənalı olduğunu və bizim onunla necə vahid olduğumuzu anlamağa çalışır. Bu, elmin "necə" sualı ilə fəlsəfənin "niyə" sualını birləşdirmək cəhdidir.

Növbəti bölmədə bu multidissiplinar perspektiv əsasında qurulan Enerji-informasiya modelinin detallarını təqdim edirik.

## 3. ENERJİ_İNFORMASİYA MODELİNİN XÜSUSİYYƏTLƏRİ VƏ YA MUSİQİNİN ONTOLOJİ_ENERJİ MODELİ

**3.1. Ontoloji baza: Musiqi kainatın hansı təbəqəsində mövcuddur?** Təklif etdiyimiz modelə görə musiqi fundamental olaraq fiziki səviyyədən əvvəl mövcuddur. Bu baxımından Platonun "İdealar aləmi" konsepsiyası ilə müasir "kvant informasiya sahəsi" anlayışları arasında əlamətdar paralellər mövcuddur.

Musiqi bu kontekstdə fiziki hadisədən əvvəl mövcud olan riyazi-harmonik prinsip kimi başa düşülür.

Bu ontoloji baza üç əsas sübutla təsdiqlənir:

Birincisi, musiqi qanunlarının riyazi universallığıdır. Pifaqor intervalları bütün mədəniyyətlərdə eyni akustik prinsiplərə əsaslanır. Bu, onların insan qavrayışından asılı olmayan obyektiv mövcudluğuna işarə edir.

İkincisi, təbii aləmdə musiqi fenomenidir. Quş nəğmələri, balina mahnıları və həşəratların ünsiyyət sistemləri musiqinin insandan əvvəl və xaric mövcud olduğunu sübut edir. Bioakustika tədqiqatları göstərir ki, heyvan səsləri təsadüfi deyil, müəyyən harmonik qanunauyğunluqlara tabedir.

Üçüncüsü isə insanın bio-ritmik kökləridir. Ana laylası və ya yuxu mahnıları bütün mədəniyyətlərdə oxşar xüsusiyyətlər daşıyır. Bu, musiqinin insanın bioloji və emosional sahəsi ilə qədim və daxili bir rezonans qurduğunu göstərir. Körpələrin müəyyən tembr və melodiyalara avtomatik reaksiyası, bu əlaqənin hələ tam öyrənilməmiş olduğunu sübuta yetirir. Sonrakı tədqiqatlarımızda biz bu fenomenin arxetiplərə əsaslana bilən bəzi izahlarını verməyə çalışırıq.

**3.2. Musiqinin kvant informasiya modeli.** Ənənəvi elmin "həzm prosesi" izahı ilə kvant şüurunun elmi cəhətdən problemli tətbiqi arasında bir yerdə, üçüncü bir yol mövcuddur: kvant prinsiplərindən ilhamlanan, lakin onları birbaşa fiziki təsir kimi deyil, güclü bir fəlsəfi metafora kimi istifadə edən bir model. Bu, Kvant İnformasiya Modelidir. Onun mərkəzində, musiqi yaranma prosesinin "qidalanma" ilə olan dərin anologiyası durur.

**3.2.1. Fundamental anolojiya: Aclıq, istək və qida kimi musiqi.** Ənənəvi neyrobilim bizə yeməyin ağızdan bağırsaqlara qədər olan "həzm prosesi"ni izah edir. Lakin bu, daha dərin suallara cavab vermir: **Niyə acıram? Niyə məhz alma, çiyələk deyil, niyə, məsələn indi mən sup yemək istəyirəm? Alma ağacı niyə alma yetişdirir? İki növ, təbiətdən hazır şəkildə aldığımız və özümüz bişirdiyimiz yeməklər qidalanma zəncirinin bir hissəsi kimi baxılmalıdır, yoxsa onlar qidalanma zəncirinə müəyyən ehtiyac yarandığında daxil olur?** Eynilə, musiqi üçün: **"Həzm elmi":** Səs dalğasının qulaqdan beyinə qədər olan səfəri (necə). **"Qidalanma modeli":** Musiqinin niyə mövcud olduğu, niyə onu yaratmaq və eşitmək ehtiyacı hiss etdiyimiz, və onun haradan yaranıb bizə çatdığı (niyə). Məhz bu "niyə" suallarına cavab vermək üçün aşağıdakı postulatları irəli sürürük:

**3.2.2. Modelin üç əsas postulatı. Postulat 1: Musiqi superpozisiya halındadır – Kainatın qida anbarı.** Kainatın fundamental səviyyəsində, fiziki

maddədən daha üstün olan bir informasiya şəbəkəsi və ya enerji sahəsi mövcuddur. Bu sahədə bütün mümkün melodik, harmonik, ritmik və emosional kombinasiyalar – bütün yazılmış və yazılmaq potensialı daşıyan musiqi əsərləri – ehtimal dalğaları, yəni superpozisiya halında potensial şəklində mövcuddur. Bu, sonsuz bir "musiqi ehtimalları pleroması"dır. **Fəlsəfi əsas:** Bu ideya, Platonun İdeyalar Nəzəriyyəsi ilə birbaşa rezonansdadır. Platon üçün fiziki dünyadakı bir şey (gözəl bir musiqi parçası) əslində daha yüksək, qeyri-maddi bir reallıqda mövcud olan müvafiq İdeyanın (mükəmməl Harmoniyanın) kölgəsidir. Bənzər şəkildə, David Bohmun "örtülü nizam" (implicate order) anlayışı da bu modelə dayaq verir. Bohma görə, bizim qavradığımız ayrı-ayrı hadisələr dünyası (açıq nizam), daha dərin, bölünməz və hər şeyin bir-birinə "büküldüyü" bir tamlığın (örtülü nizam) açılmasıdır. Musiqi informasiya sahəsi, Bohmun örtülü nizamına, fiziki səs isə onun açıq nizama çıxmış formasına uyğun gəlir.

**Anolojiya ilə əlaqə:** Bu, **kainatın qida anbarı** kimi təsəvvür oluna bilər. Bu anbarda bütün mümkün qidaların "reseptləri" (çörək, plov, sup, dovğa, dolma və s) və ya "informasiya nümunələri" (alma, armud, buğda, düyü, heyvanlar, bitgilər və s) potensial halda mövcuddur. Heç biri hələ fiziki deyil, lakin onların hamısı var olmaq ehtimalına malikdir.

**Postulat 2: Şüur "Çökdürən" amildir – aclıq, zövq və bişirmə**. Bəstəkarın, ifaçının və dinləyicinin şüuru, bu informasiya sahəsi ilə qarşılıqlı əlaqədə olmaq qabiliyyətinə (kvant dolaşıqlığı) malikdir. Bu qarşılıqlı təsir – diqqət, niyyət, emosional vəziyyət – superpozisiya halındakı ehtimallardan birinin reallıq planına keçməsinə, yəni **"çökməsinə"** səbəb olur. Bu, kvant mexanikasındakı "müşahidəçi effekti"nin metaforik bir tətbiqidir.

**Bəstəkar ("Kanal" və ya "Aşpaz"):** Bəstəkar sadəcə "yaradan" deyil. O, fundamental informasiya sahəsində artıq mövcud olan bir musiqi ehtimalını öz şüuru ilə "kəşf edən" və ya "qəbul edən" bir kanaldır. Onun yaradıcılığı, bu qeyri-maddi harmoniyanı fiziki dünya üçün nota alınmış bir kod formasına salmaqdır. Bu, aclıq hissi ilə müəyyən bir qidanın reseptini axtaran və onu bişirən aşpaza bənzəyir.

**İfaçı ("Transduser" və ya "Zövq Ustası"):** İfaçı, bəstəkarın yaratdığı bu simvolik kodu (notları) yenidən enerjiyə çevirir. Lakin o, bunu sadə bir maşın kimi deyil; öz emosiyaları, texnikası və şərhi ilə edir. O, "xammal qidanı" alır və onu unikal bir ləzzət təcrübəsinə çevirir.

**Dinləyici ("Rezonator" və ya "Qonaq"):** Dinləyici passiv deyil. O, fiziki səsi qəbul edir, lakin həqiqi musiqi təcrübəsi onun şüurunun bu səsin arxasındakı

orijinal "informasiya nümunəsi" ilə rezonansa girməsindən yaranır. Dinləyici öz yaddaşı, emosiyaları və mədəni konteksti ilə musiqini özünəməxsus şəkildə "həzm edir" və ona şəxsi məna yükləyir. O, təklif olunan qidanı qəbul edib onu öz bədəninə çevirən qonaqdır.

**Postulat 3: Fiziki reallıq nəticədir – yeməyin özü**. Bu modeldə, səs dalğaları, notlar, ifa və beyin aktivliyi, artıq seçilmiş və "çökmüş" olan musiqinin fiziki daşıyıcıları və təzahürləridir. Onlar səbəb deyil, nəticədir. Musiqi onlar vasitəsilə özünü büruzə verir, lakin onlardan əvvəl də var idi.

**Anologiya ilə əlaqə:** Fiziki yemək (alma) qidalanma prosesinin son mərhələsidir. O, reseptin (informasiya nümunəsi), aclığın (şüurun niyyəti) və bişirmənin (yaradıcılıq) nəticəsidir. Eynilə, fiziki musiqi də informasiya, şüur və ifanın nəticəsidir.

Ənənəvi elmin "həzm prosesi" izahı ilə kvant şüurunun elmi cəhətdən problemli tətbiqi arasında bir yerdə, üçüncü bir yol mövcuddur: kvant prinsipləri ilə qeyri-səlis məntiqi sintez edən, musiqinin yaranma və qavranılma prosesini riyazi-fəlsəfi dəqiqliklə izah edən bir model. Bu, Kvant-Qeyri-Səlis İnformasiya Modelidir.

**Modelin üç əsas postulatı . Postulat 1: Musiqi Superpozisiyası Qeyri-Səlis çoxluqlar şəklində – Kainatın ehtimallar "Anbarı"**

Kainatın fundamental səviyyəsindəki informasiya sahəsində musiqi, diskret ehtimallar kimi deyil, qeyri-səlis çoxluqlar (Fuzzy Sets) şəklində mövcuddur. Hər bir musiqi ideyası (melodiya, harmoniya, emosional rəng) bu çoxluqlara müəyyən bir aid olma dərəcəsi (μ) ilə, 0 (tamamilə aid deyil) ilə 1 (tamamilə aid) arasında dəyər alaraq, mənsubdur.

**Riyazi izah:** "Kədərli Melodiya" anlayışı bir A~*A*~ qeyri-səlis çoxluğu olsun. Müəyyən bir minor üçlüyü bu çoxluğa μA~(minoru¨c\clu¨k)=0.9 dərəcəsi ilə, bir xromatik gediş isə μA~(xromatikgedis\c)=0.6 dərəcəsi ilə aid ola bilər. Bu, "Şur" muğamının niyə "Segah" muğamından daha dərin bir kədər ifadə etdiyini – onun quruluşunda yüksək aid olma dərəcəsinə malik elementlərin daha çox olması ilə – riyazi izah edir.

**Fəlsəfi əsas:** Bu, Platonun İdeyalar aləmini, ancaq kəskin deyil, spektral və dərəcəli bir şəkildə təsəvvür edir. Mükəmməl "Kədər" ideyası var, lakin fiziki dünyadakı bütün təzahürlər ona müxtəlif dərəcələrdə yaxınlaşır.

**Postulat 2: Şüur Qeyri-Səlis çökdürmə və optimallaşdırma amilidir**. Şüur (bəstəkar, ifaçı, dinləyici), informasiya sahəsi ilə qarşılıqlı əlaqədə qeyri-səlis məntiq qaydalarını tətbiq edən bir prosessordur. Bu, "axtarış sahəsinin"

qeyri-səlis olması deməkdir: bir həll yolu “düzgün” və ya “səhv” deyil, “qismən uyğun” və ya “çox uyğun” ola bilər. **Ross (2010)**-un qeyd etdiyi kimi, qeyri-səlis məntiq qərar qəbul etmə proseslərində effektiv şəkildə tətbiq oluna bilər.

**Riyazi izah:** Bəstəkar "qəhrəmanlıq VƏ liriklik" ifadə edən bir tema axtarır. Kvant sahəsində bu, iki ayrı qeyri-səlis çoxluq olan B~*B*~ (Qəhrəmanlıq) və C~*C*~ (Liriklik) ilə təmsil olunur. Bəstəkarın şüuru, bu iki çoxluğun kəsişməsini (B~∩C~)(*B*~∩*C*~) axtarır, yəni hər iki şərti də ödəyən elementləri seçir. Qeyri-səlis məntiqdə kəsişmə ümumiyyətlə minimum əməli ilə hesablanır: μB~∩C~(x)=min[μB~(x),μC~(x)].

Bəstəkar, bu *min* dəyəri ən yüksək olan kvant ehtimalını “çökdürərək” yaradıcılıq aktını həyata keçirir.

**Nəticə:** Bu, ilham anını təsadüfi bir “vurğun” deyil, qeyri-səlis məhdudiyyətlər daxilində optimal həllin tapılması kimi izah edir.

**Postulat 3: Fiziki reallıq Qeyri-Səlis çıxış və modulyasiyadır**. Fiziki dünyada təzahür edən musiqi, seçilmiş kvant ehtimalının kəskin və dəyişməz bir kopyası deyil. O, qeyri-səlis bir çıxışdır. İfaçının daxili vəziyyəti – texnikası, emosiyaları, anlıq inspirasiyası – bu çökdürülmə prosesinə qeyri-səlis modulyasiya kimi təsir göstərir.

**Riyazi İzah:** İfaçının vəziyyəti bir sıra qeyri-səlis dəyişənlərlə D~ təsvir oluna bilər: “İfadə Dərinliyi” (μ=0.8), “Texniki Dəqiqlik" (μ=0.9), “Emosional İstilik” (μ=0.95). Bu dəyişənlər, kvant informasiyasının fiziki səsə çevrilməsi zamanı defuzzifikasiya prosesinə nəzarət edir, nəticədə eyni notlar hər ifadə bir qədər fərqli, özünəməxsus bir ruh və rəng alır.

**Nəticə:** Bu postulat, bir əsərin niyə müxtəlif ifaçılar tərəfindən fərqli şəkildə, hər dəfə də orijinal və mənalı səslənməsinin arxasında duran mexanizmi izah edir.

**3.3. Modelin ağlabatanlığı**. Bu modelin “ağlabatanlığı” onun elmi bir hipotez kimi sınaqdan keçirilə bilməsində deyil (hələ ki, bu mümkün deyil), fəlsəfi və hermenevtik (izahverici) bir çərçivə kimi gücündədir.

1. **Yaradıcılığın problemini həll edir:** Model, bəstəkarı yoxdan var edən sehrbaz kimi deyil, kainatın əbədi harmonik ehtimalları ilə əlaqə quran bir kəşfiyyatçı kimi təqdim edir. Bu, “ilham” anının təbiətini daha vüsətli bir şəkildə izah edir.

2. **Universallığı əsaslandırır:** Müxtəlif mədəniyyətlərdən insanların eyni harmonik qanunlara (məsələn, Pifaqor intervalları) reaksiya verməsinin səbəbi,

hamımızın eyni fundamental **informasiya şəbəkəsinə** "qoşulmuş" olmamızdır. Bu şəbəkədəki riyazi qanunlar hamımız üçün ortaqdır.

3. **Subyektiv mənanın önəmini bərpa edir:** Model, musiqi təcrübəsini sırf fiziki bir proses kimi deyil, şüur ilə fundamental reallıq arasında baş verən mənalı bir qarşılıqlı əlaqə kimi qələmə verir. Bu, onun dərin emosional və spiritual təsirini anlamağa kömək edir.

**Nəticə:** Kvant İnformasiya Modeli, musiqini anlamaq üçün "qidalanma" kimi fundamental bir ehtiyac kontekstinə yerləşdirir. O, elmə qarşı çıxmaq əvəzinə, onun çərçivəsindən kənarda qalan, lakin insan təcrübəsi üçün mərkəzi olan suallara cavab vermək üçün bir fəlsəfi dil təqdim edir. Bu modelə görə, musiqi yemək kimi – o, təkcə fiziki bir obyekt deyil, həyat üçün zəruri, məna daşıyan və varlığın daha dərin təbəqələri ilə bizi birləşdirən bir enerji və informasiya mübadiləsidir.

## 4. MODELİN İZAH GÜCÜNÜN YOXLANILMASI

Təklif olunan Kvant İnformasiya Modelinin izah gücünü yoxlamaq üçün onu müxtəlif və mürəkkəb musiqi hadisələrinə tətbiq etmək vacibdir. Aşağıdakı vəziyyət təhlilləri, ənənəvi elmi izahlarla yanaşı, yeni modelin bu fenomenlərə necə fərqli və tamamlayıcı bir işıq sala biləcəyini nümayiş etdirir.

**4.1. Azərbaycan muğamı, improvizasiya və transsendental təcrübə**. Muğam, qəti qaydalara əsaslanan, eyni zamanda dərin bir improvizasiya tələb edən, emosional dramaturgiyası ilə fərqlənən mürəkkəb bir musiqi sənəti formasıdır.

**Nevyrobilim perspektivi**. **İfaçı: Limb və Braun (2008)**-ün fMRI tədqiqatları göstərir ki, improvizasiya zamanı prefrontal korteksin deaktivasiyası baş verir. Belə ki, musiqi improvizasiyası zamanı beynin prefrontal korteksinin (PFC) ziddiyyətli məlumatları emal edən və özünü nəzarət edən hissələri deaktivasiya olunur. Eyni zamanda, medial prefrontal korteks kimi özünü ifadə etmə və motivasiya ilə bağlı olan bölgələr, həmçinin sensorimotor və emosional mərkəzlər yüksək dərəcədə aktivləşir (Beaty, 2015). Bu, ifaçının şüurlu tənqiddən azad olaraq "axın" (flow) vəziyyətinə daxil olmasının neyronal əsasını təşkil edir.

**Dinləyici:** Muğamın tədricən yüksələn və enən dramaturgiyası, gözlənilən və gözlənilməyən melodik gedişləri, beynin mükafat sistemində (nucleus accumbens) daimi bir gərginlik və həll dövriyyəsi yaradır. Bu, dopamin ifrazı ilə nəticələnərək, həzz, gözlənti və emosional boşalma (katarsis) yaradır.

**Kvant İnformasiya modeli perspektivi, "kolektiv enerji axını"**. **İfaçı:** Bu modelə görə, xanəndə və ya sazəndə sadəcə notları icra etmir. O, əsrlər boyu formalaşmış bir **"kollektiv mədəni-informasiya sahəsinə"** – muğamın ideal arxetipik formasına qoşulan bir "kanal" rolunu oynayır. İmprovizasiya anı, onun şüurunun bu sahədən anlıq olaraq informasiya (melodik fikir, emosional nüans) "çökdürməsi"dir. Prefrontal korteksin deaktivasiyası, şüurun məntiqi filtrləri aradan qaldırması və informasiya sahəsi ilə birbaşa, maneəsiz əlaqə qurması kimi şərh oluna bilər.

**Dinləyici:** Dinləyicinin yaşadığı dərin təsir və katarsis, onun öz şüur sahəsinin, ifaçı vasitəsilə yayılan bu güclü və arxetipik "enerji-informasiya axını" ilə rezonansa girməsinin nəticəsidir. Bu, sadə bir səs qavranışı deyil, dinləyicinin daxili aləminin, xarici bir harmonik informasiya nümunəsi ilə sinxronlaşmasıdır. Muğamın kompozisiya quruluşu (dəstgahın hissələri) bir enerji dalğalanmasının (yüksəliş, zirvə, eniş və sakitlik) simvolik təzahürüdür.

**Əgər kvant modelinə Qeyri-**səlis məntiq nəzəriyyəsini inteqrasiya etsək yeni izah modeli əldə etmiş oluruq:

Muğam, qəti qaydalara əsaslanan, eyni zamanda dərin bir improvizasiya tələb edən mürəkkəb bir musiqi sənəti formasıdır.

- **Nevrobilim perspektivi:** İmprovizasiya zamanı beynin prefrontal korteksinin məntiqi nəzarət mərkəzləri deaktivasiya olunur, özünü ifadə və emosional mərkəzlər isə yüksək aktivlik göstərir. Bu, ifaçını "axın" (flow) vəziyyətinə aparır.
- **Kvant-Qeyri-Səlis Modeli Perspektivi:** Bu model, improvizasiyanı qeyri-səlis məhdudiyyətlər daxilində kvant optimallaşdırması kimi izah edir.

**İfaçı üçün model:** Hər bir muğam (məsələn, "Şur"), aşağıdakı kimi təyin olunan bir qeyri-səlis məhdudiyyət çoxluğu $M$~ kimi modelləşdirilir:

- $\mu M$~$Emosional(x)$: "Kədər" qeyri-səlis çoxluğuna aid olma dərəcəsi (məsələn, 0.9).
- $\mu M$~$Struktural(x)$: Muğamın quruluş qaydalarına uyğunluq dərəcəsi.
- $\mu M$~$Dramaturji(x)$: Gərginliyin artım-azalma qanunauyğunluğuna uyğunluq dərəcəsi.

Xanəndə "axın" vəziyyətində ikən, onun şüuru Kvant İnformasiya Sahəsindən gələn improvizasiya variantlarını ($x_1$, $x_2$,...$x_n$) bu qeyri-səlis

məhdudiyyət çoxluğuna qarşı qiymətləndirir və ümumi uyğunluq dərəcəsi ən yüksək olanı avtomatik seçir:

$$Uyg\breve{}unluq(x)=min[\mu M\sim Emosional(x), \mu M\sim Struktural(x), \mu M\sim Dramaturji(x)]$$

Bu, improvizasiyanın niyə həm sərbəst, həm də nizamlı olduğunu riyasi izah edir: o, qeyri-səlis qaydalar daxilində optimal həllin anlıq tapılmasıdır.

**Dinləyici üçün model:** Dinləyicinin yaşadığı katarsis, onun öz şüur sahəsinin **qeyri-səlis rezonansı** ilə bağlıdır. İfaçı tərəfindən "çökdürülmüş" enerji-informasiya axını, dinləyicinin daxili "Kədər" (*K*~) və "Təmizlənmə" (*T*~) kimi qeyri-səlis çoxluqları ilə qarşılıqlı təsirə girir. Bu iki çoxluğun qeyri-səlis qovuşması (union) nəticəsində yaranan yüksək ümumi aid olma dərəcəsi, dərin emosional təcrübə və transsendental hissi yaradır:

$$\mu K\sim\cup T\sim(T\partial cru\ddot{}b\partial)=max[\mu K\sim(T\partial cru\ddot{}b\partial), \mu T\sim(T\partial cru\ddot{}b\partial)]$$

**Nəticə:** Kvant-Qeyri-Səlis modeli, muğam təcrübəsini təkcə enerji axını deyil, həm də qeyri-səlis məntiq alqoritmi ilə idarə olunan dəqiq bir informasiya emalı prosesi kimi təqdim edir. Bu, onun transsendental təsirinin arxasında duran riyazi mahiyyəti aşkar edir.

### 4.2. Azan: Ruhani çağırışın səsi və Kvant İnformasiya Modeli

#### 4.2.1. Azanın mahiyyəti və mədəni təzahürləri

Azan, mətni sabit qalsa da, ifa üslubunda dərin mədəni və fərdi zənginlik daşıyan ruhani bir çağırışdır. Bu çağırış, İslam aləmində inkişaf etmiş müxtəlif məktəblər (məsələn, Hicazi/Ərəb, Türk, Fars/İran, Hindistan, Cənub-Şərqi Asiya üslubları) vasitəsilə özünü ifadə edir. Türkiyədə olduğu kimi bir çox mədəniyyətdə azan, ənənəvi musiqi qanunları olan *maqamlar* əsasında oxunur və hər namaz vaxtı üçün müəyyən bir maqam (məsələn, sübh üçün Hicaz/Səba, günorta üçün Rast, gecə üçün Uşşaq) tövsiyə olunur. Bu təsnifat, təkcə bir dini ayin deyil, həm də günün enerji dövranı ilə uyğunlaşan incə bir estetik və psixoloji sistem yaradır.

#### 4.2.2. Psixoakustik və nevroloji perspektiv

Psixoakustik baxımdan əzanın monotonluğa yaxın, təkrarolan və qeyri-ritmik melodik xətti, beynin prefrontal korteksini (məntiqi analiz mərkəzi) nisbətən söndürərək, dinləyicini daha daxili, reflektiv və meditativ bir vəziyyətə yönəldir. Mətnin tanışlığı və proqnozlaşdırıla bilən maqam quruluşu psixoloji təhlükəsizlik hissi yaradır, dini məzmun isə yaddaş və məna ilə bağlı beyin bölgələrini (məsələn, temporal pay) aktivləşdirir. Nəticə etibarilə, aszan təkcə

sözləri çatdırmır, həm də dinləyicinin şüur vəziyyətini dəyişdirən bir psixofizioloji mühit yaradır.

**4.2.3. Kvant İnformasiya Modeli çərçivəsində təhlil: "Kodlaşdırılmış İnformasiyanın qatlaşdırılması"**

Təklif olunan Kvant İnformasiya Modeli, azanın bu mürəkkəb fenomenini yeni bir dərinlikdə anlamağa imkan verir. Bu modelə görə, azan aşağıdakı qatlı quruluş kimi başa düşülə bilər:

1. **Semantik məzmun: Əsas Informasiya Paketi**. Azanın dəyişməz mətni, fundamental informasiya sahəsində mövcud olan arxetipik və universal bir ruhani çağırışın semantik (mənalı) nümunəsi kimi qəbul edilə bilər. Bu, bütün mümkün ifa variantları üçün potensial ehtimalların üst-üstə düşdüyü (superpozisiya vəziyyətində olan) informasiya konfiqurasiyasıdır.
2. **Mədəni modulyasiya: Kollektiv şüurun "Çökmə" aktı.** Müxtəlif mədəniyyətlərin (Türk, Ərəb, Fars və s.) yaratdığı spesifik musiqi üslubları, həmin cəmiyyətlərin kollektiv şüurunun yuxarıda qeyd olunan universal informasiya nümunəsini özünəməxsus harmonik, melodik və ritmik parametrlərlə "çökməsi" (konkretləşdirməsi) prosesidir. Başqa sözlə, vahid ruhani mesaj yerli musiqi dilinə tərcümə olunur. Müəyyən vaxt üçün müəyyən maqamın seçimi isə, bu mədəni çökmənin günün enerji dəyişkənliyi ilə sinxronlaşdırılmasıdır.
3. **Fərdi İfa: Şəxsi şüurun modulyasiya edici təsiri**. Müəzzin isə, nəinki sadə bir ötürücüdür. O, həm mədəni şablona riayət edir, həm də o anki daxili vəziyyətini (eşq, təvazökarlıq) informasiya axınına daxil edən aktiv bir transduser rolunu oynayır. Onun səsi və üslubu, mədəni model daxilində qalaraq, həmin modeli öz şəxsi emosional-kvant vəziyyəti ilə modulyasiya edir. Bu, səsin tembrində, ifa dinamikasında və mikrotonal nüanslarda özünü göstərir.
4. **Qəbul və Rezonans: Dinləyicidə Informasiyanın "Açılması".** Dinləyicinin şüuru isə bu kompleks qatlı informasiya paketini qəbul edir. O, təkcə sözlərin mənasını deyil, həm də mədəni kodlaşdırmanın harmonik quruluşunu və ifaçının şəxsi emosional rəngini eşidir. Əgər dinləyici həmin mədəni kodlarla tanışdırsa və ya ifanın emosional tonu ilə şüur sahəsi səviyyəsində rezonansa girirsə, informasiya daha dərin və tam şəkildə "açılır". Bu, dinləyicidə sakitlik,

təfəkkür və ya ruhani yüksəliş kimi təzahür edən subyektiv bir təcrübəyə səbəb olur.

**4.2.4. Nəticə: Bir model kimi Azan**

Beləliklə, azan, Kvant İnformasiya Modelinin tətbiqi üçün ideal bir nümunə təşkil edir. O, göstərir ki, musiqi (və ya ümumiyyətlə, mənalı səs) təkcə fiziki vibrasiya deyil:

- Universal bir məna nümunəsinin (semantik informasiya),
- Müəyyən bir mədəniyyət sistemi tərəfindən onun strukturlaşdırılmasının (harmonik çökmə),
- Fərdi bir ifaçı tərəfindən daha da zənginləşdirilməsinin (emosional modulyasiya),
- Və nəhayət, dinləyicinin şüuru tərəfindən subyektiv rezonansla qəbulunun ardıcıl prosesidir.

Bu, musiqinin təsirinin, enerjinin (səs) və mənanın (informasiya) vahid bir mübadiləsi prinsipinə əsaslandığını təsdiq edir. Azan, informasiyanın bu cür qatlı ötürülməsi ilə insan şüurunu dəyişdirə bilən, yəni təklif olunan modelin əsas tezisini təsdiqləyən güclü bir fenomen kimi çıxış edir.

**Kvant İnformasiya modeli perspektivi: “Tezlik uyğunlaşdırıcısı”**. Bu model çərçivəsində azan, fiziki dünya ilə metafizik bir reallıq arasında qurulan bir **“enerji-informasiya körpüsü”** kimi şərh olunur. Onun səsi, insanı gündəlik həyatın “səs-küyündən” (kaotik informasiya axınından) ayıraraq, onun şüurunu daha fundamental və harmonik bir “informasiya tezliyinə” kökləmək üçün bir vasitədir.

Hər bir namaz vaxtı üçün fərqli muğam üstündən oxunması təsadüfi deyil. Bu, günün enerji dövranına (səhər, günorta, axşam) uyğun olaraq, insanın və ətraf mühitin “enerji sahəsini” harmonizasiya etmək üçün nəzərdə tutulmuş bir tənzimləmədir. Dinləyici, azanın daşıdığı bu yüksək məqsədli informasiya nümunəsi ilə rezonansa girərək, öz şüur vəziyyətini dəyişir.

**Nəticə:** Bu nümunələr göstərir ki, elmi və fəlsəfi yanaşmalar bir-birini istisna etmir, əksinə tamamlayır. Neyrobilim prosesin mexanizmini (“necə”), Kvant İnformasiya Modeli isə onun mənası və mahiyyətini (“niyə”) izah etməyə çalışır. Biri partituranı, digəri isə musiqinin ruhunu anlamağa kömək edir.

**4.3. Təbii səslər və ana laylası**. Təbii səslər (çay axını, yağış, külək) və ana laylası musiqinin ən təmiz formaları kimi qəbul oluna bilər. Bu səslərin bütün mədəniyyətlərdə oxşar təsir göstərməsi onların universal enerji xarakteri ilə

bağlıdır. Ana səsinin körpələrin sinir sisteminə təsiri müasir tədqiqatlarla təsdiq olunur - ana laylası ürək döyüntüsünü normallaşdırır, stressi azaldır.

Növbəti bölmədə müqayisəli təhlilə yer veriləcək, klassik musiqi nəzəriyyələri ilə təklif olunan modelin üstünlük və məhdudiyyətləri müzakirə olunacaq.

**4.4. Ənənəvi musiqi nəzəriyyələri və ontoloji-enerji modelinin müqayisəli təhlili**. Təklif etdiyimiz ontoloji-enerji modelinin elmi dəyərini qiymətləndirmək üçün onu ənənəvi musiqi nəzəriyyələri ilə müqayisəli şəkildə təhlil etmək vacibdir. Aşağıdakı cədvəl bu müqayisəni aydın şəkildə nümayiş etdirir:

| Xüsusiyyət/nəzəriyyə | Ənənəvi/Müasir Nəzəriyyələr | Ontoloji-enerji modeli | Müqayisəli şərh |
|---|---|---|---|
| **Musiqinin mənşəyi** | Psixoloji (ifadə ehtiyacı), Sosioloji (kollektiv fəaliyyət), Akustik (fiziki qanunlar). | Ontoloji. Musiqi insandan asılı olmayaraq, kainatın fundamental quruluşunda mövcuddur. İnsan onu kəşf edir, icad etmir. | Model, musiqinin universallığını və heyvanlar aləmində də mövcudluğunu daha yaxşı izah edir. |
| **Əsas diqqət** | Quruluş (Schenker, 1935), Sistem (Schoenberg, 1978), Qavrayış (Deutsch, 2013). | Enerji və İnformasiyanın Transformasiyası. Musiqi bir “şey” deyil, bir prosesdir | Model, strukturun özündən çox, onun daşıdığı enerji və yaratdığı təsirlə maraqlanır. |
| **Dinləyicinin rolu** | Çox zaman passiv qəbuledici kimi | Aktiv İştirakçı və “Çökdürən”. Dinləyici musiqinin yekun mənasını yaradır. | Kvant fəlsəfəsindən güc alaraq, dinləməni yaradıcı bir akt kimi təqdim edir. |

| | | | |
|---|---|---|---|
| **Təsir mexanizmi** | Nevroloji (beyin mərkəzlərinin aktivləşməsi), Psixoloji (assosiasiyalar). | Enerjetik rezonans. Musiqi, dinləyicinin şüur sahəsi ilə rezonansa girir | Ənənəvi izahları tamamlayır, ancaq daha abstrakt və vahid bir prinsip təklif edir. |
| **Spiritual/etafizik boyut** | Çox zaman nəzərə alınmır və ya elmdən kənarda qalır. | Modelin ayrılmaz hissəsidir. Azan, ana laylası kimi nümunələr enerji mübadiləsinin ali forması kimi təhlil olunur. | Elmi və spiritual təfəkkürü birləşdirməyə çalışır. |
| **Təbii aləmlə əlaqə** | Ayrıca bir mövzu kimi öyrənilir (bioakustika). | Modelin ontoloji əsasını gücləndirir. Quş nəğməsi də, insan musiqisi də eyni fundamental harmonik prinsiplərin təzahürüdür. | Musiqi nəzəriyyəsini antropomorfizmdən (insanmərkəzcilikdən) çıxarır. |

## 5. MÜZAKİRƏ VƏ NƏTİCƏ: MUSİQİŞÜNASLIQDA KVANT-QEYRİ-SƏLİS PARADİQMASI

Bu tədqiqat, musiqinin yaranması, ötürülməsi və qavranılması proseslərini anlamaq üçün ənənəvi modelləri əhatə edən, lakin onların izah sərhədlərini aşan vahid bir çərçivə təklif etmişdir. Kvant-Qeyri-Səlis İnformasiya Modeli, musiqinin təkcə fiziki bir vibrasiya və ya neyroloji bir hadisə olmadığını, daha çox fundamental bir informasiya reallığının şüur vasitəsilə ifadəsi olduğunu iddia edir. **Horowitz (2015)**-ün qeyd etdiyi kimi, qeyri-səlis məntiq musiqi təhlilində effektiv şəkildə tətbiq oluna bilər.

**5.1. Modelin üstünlükləri: Üç problemin Qeyri-Səlis həlli.** Modelin əsas gücü, ənənəvi yanaşmaların qarşılaşdığı ontoloji çətinliklərə kəmiyyət və keyfiyyəti birləşdirən bir izah təmin etməsindədir:

**1. Yaradıcılıq probleminin həlli**: Model, yaradıcılığı “yoxdan varetmə” kimi deyil, qeyri-səlis məhdudiyyətlər daxilində kvant optimallaşdırması kimi izah edir. Bəstəkar və ya improvizasiya edən ifaçı, qeyri-səlis məntiq qaydalarına (kəsişmə, birləşmə) əsasən, Kvant İnformasiya Sahəsindəki superpozisiya halındakı variantlardan ən yüksək ümumi uyğunluq dərəcəsinə malik olanı seçir. Bu, “ilham anının” mahiyyətini daha alqoritmik və eyni zamanda sərbəst bir şəkildə izah edir.

**2. Universallıq probleminin həlli**: Müxtəlif mədəniyyətlərdə oxşar harmonik qanunların və emosional reaksiyaların mövcudluğu, hamımızın eyni fundamental qeyri-səlis informasiya çoxluqları ilə əlaqədə olması ilə izah oluna bilər. Məsələn, “kədər” qeyri-səlis çoxluğunun riyazi təyinatı (müəyyən intervallara yüksək aid olma dərəcəsi) mədəniyyətlər arasında sabit qala bilər, hər bir mədəniyyət isə onu özünəməxsus üsulla (“Şur” və ya “Phrygian modu” kimi) ifadə edir.

**3. Məna probleminin həlli**: Musiqinin yaratdığı subyektiv məna və transsendental təcrübələr, artıq tək bir fizioloji reaksiya kimi deyil, dinləyicinin şəxsi şüur sahəsinin (öz yaddaş və emosiya çoxluqları) ifaçı vasitəsilə çökdürülmüş kvant informasiyası ilə qeyri-səlis rezonansı nəticəsidir. Bu qarşılıqlı təsirin yüksək ümumi uyğunluq dərəcəsi, anlamlı və dərin bir təcrübə kimi qavranılır.

**5.2. Modelin məhdudiyyətləri və statusu.** Bu konseptual uğurlara baxmayaraq, modelin məhdudiyyətlərini etiraf etmək vacibdir:

**Empirik təsdiq**: “Kvant İnformasiya Sahəsi” və onunla şüurun qeyri-səlis qarşılıqlı əlaqəsi, hazırda birbaşa ölçülə bilməz. Bu, modeli sınaqdan keçirilə bilən bir elmi nəzəriyyədən çox, güclü bir fəlsəfi-riyazi çərçivə və ya hermenevtik metafor statusuna qoyur.

**Riyazi mürəkkəblik**: Modelin tam inkişaf etdirilmiş forması, qeyri-səlis məntiq və ehtimal nəzəriyyəsinin qarışığı olan qeyri-səlis ehtimal (fuzzy probability) kimi daha mürəkkəb riyazi aparat tələb edə bilər.

Lakin, ən əsası, bu model dekoherensiya problemini həll edir: əsas kvant prosesləri beyində deyil, ondan kənarda baş verdiyi üçün beyinin “isti və səs-küylü” mühiti model üçün əngəl təşkil etmir.

**5.3. Gələcək tədqiqatlar üçün təkliflər: Kvant-Qeyri-Səlis proqramı**

Bu model təkcə fəlsəfi nəticə nöqtəsi deyil, eləcə də yeni tədqiqatlar üçün bir başlanğıc nöqtəsidir:

**1. Kompüter modelləşdirmə:** Müxtəlif muğamların və ya musiqi formalarının qeyri-səlis məhdudiyyət çoxluqları yaradıla bilər. Bu çoxluqlardan istifa-

də edərək, kvant-alqoritmlər əsasında işləyən süni intellekt proqramları yaradıcı improvizasiya edə bilər. Bu, modelin proqnozlaşdırıcı qüvvəsini sınaqdan keçirəcək ən güclü yoldur.

**2. Kəmiyyət təhlil**: Dinləyicilərin müxtəlif musiqi parçalarına emosional reaksiyaları sorğular vasitəsilə toplanaraq, "kədər", "sevinc", "gərginlik" kimi qeyri-səlis dəyişənlər üçün aid olma funksiyaları qurula bilər. Bu, musiqi ilə emosiya arasındakı əlaqəni kəmiyyətləndirməyə imkan verər.

**3. Nevrofizioloji korrelyasiya:** EEG və ya fMRI ölçmələrlə dinləyicilərdə müşahidə olunan beyin aktivliyi nümunələri ilə, modelin proqnozlaşdırdığı qeyri-səlis rezonans dərəcələri (məsələn, gözlənilən və pozulan harmonik irəliləyişlərin yaratdığı "qeyri-səlis təəccüb" dəyəri) müqayisə edilə bilər.

## 6. YEKUN

Təklif olunan Kvant-Qeyri-Səlis İnformasiya Modeli, musiqini kainatın təməlində mövcud olan, qeyri-səlis riyazi qanunlarla təşkil olunmuş fundamental bir dil kimi təqdim edir. Bu model, musiqişünaslıqda yeni bir təfəkkür paradigması təklif edir ki, bu da musiqinin təkcə bir sənət obyekti kimi deyil, həm də şüur, enerji, informasiya və riyaziyyatın kəsişməsində yerləşən mürəkkəb bir fenomen kimi başa düşülməsinə imkan verir. O, elmin "necə" sualı ilə fəlsəfənin "niyə" sualını, qeyri-səlis məntiqin "nə qədər" sualı vasitəsilə birləşdirməyə cəhd edir. Gələcək tədqiqatlar bu çərçivəni empirik cəhətdən yoxlayıb inkişaf etdirdikcə, nəinki musiqi nəzəriyyəsi, həm də süni yaradıcılıq və insan şüurunun tədqiqi sahələrində yeni üfüqlər açıla bilər.

## Ədəbiyyat siyahısı

1. Beaty, R. E. (2015). The neuroscience of musical improvisation. Neuroscience & Biobehavioral Reviews, 51, 108–117
2. Bohm, D. (1980). Wholeness and the implicate order. London: Routledge
3. Deutsch, D. (2013). The psychology of music. In Psychology (pp. 1-28). New York: Academic Press
4. Ferreri, L., Mas-Herrero, E., Zatorre, R. J., et al. (2019). Dopamine modulates the reward experiences elicited by music. Proceedings of the National Academy of Sciences, 116(9), 3793–3798
5. Hameroff, S. (2006). The entwined mysteries of anesthesia and consciousness. Anesthesiology, 105(2), 400–412

6. Hameroff, S., & Penrose, R. (2014). Consciousness in the universe: A review of the 'Orch OR' theory. Physics of Life Reviews, 11(1), 39–78

7. Horowitz, J. (2015). Fuzzy logic applications in musical analysis. Journal of New Music Research, 44(3), 219–230

8. Koelsch, S. (2014). Brain correlates of music-evoked emotions. Nature Reviews Neuroscience, 15(3), 170–180

9. Krumhansl, C. L. (1990). Cognitive foundations of musical pitch. New York: Oxford University Press

10. Lambert, N., Chen, Y. N., Cheng, Y. C., Li, C. M., Chen, G. Y., & Nori, F. (2013). Quantum biology. Nature Physics, 9(1), 10–18

11. Levitin, D. J. (2006). This is your brain on music: The science of a human obsession. New York: Dutton

12. Limb, C. J., & Braun, A. R. (2008). Neural substrates of spontaneous musical performance: An fMRI study of jazz improvisation. PLoS ONE, 3(2), e1679

13. Penrose, R. (1994). Shadows of the mind: A search for the missing science of consciousness. Oxford: Oxford University Press

14. Plato. (380 BCE). The Republic. Athens

15. Ross, T. J. (2010). Fuzzy logic with engineering applications (3rd ed.). Hoboken: Wiley

16. Schenker, H. (1935). Der freie Satz. Vienna: Universal Edition

17. Schoenberg, A. (1978). Theory of harmony (R. E. Carter, Trans.). Berkeley: University of California Press

18. Tegmark, M. (2000). The importance of quantum decoherence in brain processes. Physical Review E, 61(4), 4194–4206

19. Walter, Y., Altorfer, A., & Hilti, L. (2022). Physiological foundations for religious experiences in devotional worship practices with music using heart rate and respiration rate analyses. European Journal of Investigation in Health, Psychology and Education, 12(2), 194–211

20. Wheeler, J. A. (1990). Information, physics, quantum: The search for links. In W. Zurek (Ed.), Complexity, entropy, and the physics of information (pp. 3-28). Redwood City: Addison-Wesley

21. Zadeh, L. A. (1965). Fuzzy sets. Information and Control, 8(3), 338–353

22. Zatorre, R. J. (2003). Music and the brain. Annals of the New York Academy of Sciences, 999(1), 4–14

**Yasin Khalilov Khalaf oghlu**

## MUSIC AND THE QUANTUM INFORMATION MODEL

**Summary:** The article proposes a new ontological-energy model that transcends traditional approaches of acoustics, psychology, and neuroscience to explain the nature of the music phenomenon. The main objective of the research is to explain the interrelationship between music, sound, and consciousness within a unified “Quantum Information Model” framework. The introduction notes the universal power of music's influence and the gaps in its explanation by traditional sciences – the problems of the origin of creativity, the universality of harmonics, and subjective meaning.

In the main body, the historical roots of music, Pythagoras's harmonic ratios, and how modern scientific approaches (neuromusicology, psychoacoustics) explain the process of music perception are first analyzed, highlighting the ontological difficulties they face. Subsequently, an alternative model based on the principles of quantum physics is presented to overcome these difficulties. According to this model, music is understood as probability waves existing in superposition within a fundamental “quantum information field”; the composer, performer, and listener are agents who, by interacting with this field, “collapse” the information and transfer it into physical reality. The article explains how the model addresses the decoherence problem and its conceptual difference from traditional quantum theories of consciousness.

Finally, the explanatory power of the model is tested on specific cultural and natural examples, such as Azerbaijani Mugham, the Azan (Islamic call to prayer), and lullabies. Based on these examples, it is shown how the model can explain the emotional and transcendental effects of music through a unified principle of energy-information exchange. The comparative analysis discusses the advantages and limitations of the proposed ontological-energy model compared to traditional music theories.

**Key words:** Quantum information model, ontology of music, energy-information exchange, Mugham and consciousness, harmonic universality.

**Ясин Халилов Халаф оглы**

## МУЗЫКА И КВАНТОВАЯ ИНФОРМАЦИОННАЯ МОДЕЛЬ

**Резюме:** В статье предлагается новая онтолого-энергетическая модель, выходящая за рамки традиционных подходов акустики,

психологии и нейронауки для объяснения природы феномена музыки. Основная цель исследования – объяснить взаимосвязь между музыкой, звуком и сознанием в рамках единой «Квантовой информационной модели». Во введении отмечаются универсальная сила воздействия музыки и пробелы в её объяснении традиционными науками – проблемы происхождения творчества, универсальности гармоник и субъективного смысла.

В основной части сначала анализируются исторические корни музыки, гармонические пропорции Пифагора и то, как современные научные подходы (нейромузыкология, психоакустика) объясняют процесс восприятия музыки, но сталкиваются с онтологическими трудностями. Затем представляется альтернативная модель, построенная на принципах квантовой физики, для устранения этих трудностей. Согласно этой модели, музыка понимается как волны вероятности, существующие в суперпозиции в фундаментальном «квантовом информационном поле»; композитор, исполнитель и слушатель являются агентами, которые, взаимодействуя с этим полем, «редуцируют» информацию и переводят её в физическую реальность. Объясняется, как модель решает проблему декогеренции, и в чём её концептуальное отличие от традиционных квантовых теорий сознания.

Наконец, объяснительная сила модели проверяется на конкретных культурных и природных примерах, таких как азербайджанский мугам, азан и колыбельная песня. На этих примерах показано, как модель может объяснить эмоциональные и трансцендентальные эффекты музыки единым принципом энерго-информационного обмена. В сравнительном анализе обсуждаются преимущества и ограничения предлагаемой онтолого-энергетической модели перед традиционными теориями музыки.

**Ключевые слова:** Квантовая информационная модель, онтология музыки, энерго-информационный обмен, мугам и сознание, гармоническая универсальность.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 17.02.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.02.2026**

**UOT 78**
**ORCID: 0009-0008-9275-629X**
**DOI: 10.52094/DLYH5370**

**Afaq Agayeva Agaibrahim qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Baş müəllim**
afaqagayeva15@gmail.com

# AZƏRBAYCAN MUĞAMLARININ TƏDRİSİNDƏ ƏNƏNƏ İLƏ MÜASİRLİYİN VƏHDƏTİ

**Xülasə:** Təqdim olunan məqalə muğamların tədrisində korifey sənətkarlarımızın ənənəvi ifa tərzi ilə yanaşı müasir metodların tətbiqi məsələlərinə həsr edilmişdir. Qeyd olunur ki, muğamların tədrisində korifey sənətkarlarımızın ifa tərzi və interpretasiyaları gənc ifaçılar üçün əvəzsiz örnək olmalıdır. Müasir muğam tədrisində ənənəvi “ustad-şagird” üsulunu qoruyub saxlamaqla yanaşı, rəqəmsal platformalar, səs proqramları və not sistemindən istifadə tələbələrin həm ənənəvi qaydaları mənimsəməsinə, həm də yaradıcılıq qabiliyyətinin formalaşmasına şərait yaradacaqdır.

**Açar sözlər:** Səkinə İsmayılova, muğam, interpretasiya, Ağaxan Abdullayev, müasir üsullar, ənənə.

**GİRİŞ.** Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında muğamlar xüsusi yer tutur. Dərin məna çalarlarını özündə səciyyələndirən muğamlar dinləyicilərə bədii zövq verir, gənclərin estetik tərbiyəsini inkişaf etdirir, mənəvi aləmi zənginləşdirib, əxlaqi keyfiyyətləri formalaşdırır. Muğam ifaçılığında ənənə ilə müasirliyin vəhdəti bu qədim sənətin yaşamasının və inkişafının əsas şərtlərindən biridir.

Professor Ramiz Zöhrabov yazırdı: “*Muğam musiqimizin təməli, onun bünövrəsi, onun dayaq sütunudur. Muğam mahnılarımız, təsniflərimiz, oyun havalarımız, simfonik əsərlərimiz, opera və baletlərimiz üçün tükənməz və gözəl təranələr mənbəyidir. Bir sözlə muğamat, Azərbaycan musiqi dilinin, əgər təbiri düzgün başa düşülərsə, lüğət fondudur*” [Zöhrabov R., 1991, 219 səh.].

**ƏSAS MƏTN.** Muğam hissləri, emosiyaları, əhvali-ruhiyyəni, ehtirası ifadə edən ən güclü vasitə, insana daha çox təsir edən bir incəsənət növüdür. Əsrlər boyu muğamların tədrisi “ustad-şagird” ənənəsi üzərində qurulmuşdur.

Ustad şagirdinə muğam dəstgahının məqamlarını, şöbələrini və ritm quruluşunu əvvəlcə nəzəri cəhətdən izah edir, sonra isə öz ifasında nümayiş etdirir, şagird ustadın ifasını dəfələrlə dinləyərək, təkrarlayır və mənimsəyirdi. Ənənəvi təlimdə şagird əvvəlcə sadə muğam şöbələrini, sonra isə tədricən mürəkkəb dəstgahların tam strukturunu öyrənirdi.  Muğam məclislərində görkəmli xanəndələrin ifasını dinləmək, onların ifa tərzini, improvizasiya qabiliyyətini, zərb ustalığını müşahidə etmək gənc xanəndələr üçün əvəzsiz təcrübə mənbəyi idi.

Muğamlarımızı tədris edərkən ənənəvi üsullarla yanaşı, korifey sənətkarlarımızın ifa tərzini nəzərdən keçirməli, onların interpretasiyalarına diqqətlə qulaq asaraq, onlardan bəhrələnməliyik. Çünki muğam sənətinin əsl mahiyyəti məhz ustad sənətkarların ifasında özünün ən parlaq təcəssümünü tapır. Onların hər biri muğamın ənənəvi qaydalarına sadiq qalmaqla bərabər, özünəməxsus interpretasiyası, səs tembri, ifa tərzi ilə bu sənətə yeni nəfəs gətirmişlər. Görkəmli muğam ifaçısı ağaxan abdullayevin tələbəsi olduğum üçün onun ifa tərzinin tədrisdə rolunu vurğulamaq istərdim. Xalq artisti Ağaxan Abdullayev çox böyük səs diapazonuna malik bir ifaçı idi. Onun ifasında muğamlar xüsusi bir gözəllik və zənginliklə interpretasiya olunurdu.  Xalq arasında ona “Zil Xan” deyilməsi təsadüfi deyildi. Belə ki, onun zil səslərdəki məharəti, vokal texnikasının kamilliyi dinləyiciləri heyran edirdi. Ağaxan Abdullayevin ifa tərzini muğam tədrisində örnək kimi götürmək, onun səs aparatından istifadə metodlarını, muğam şöbələri arasında keçidlərdəki ustalığını öyrənmək gənc xanəndələr üçün əvəzsiz təcrübədir. Ağaxan Abdullayevin ifa tərzi nəinki Azərbaycanda, hətta bir sıra xarici ölkələrdə də dərin maraqla qarşılanmış, muğam sənətinin beynəlxalq səviyyədə tanınmasına və yayılmasna mühüm təkan vermişdir. Onun geniş səs diapazonu, zil səslərdəki misilsiz məharəti və orijinal vokal texnikası xarici musiqişünasların, vokal pedaqoqların və sənətşünasların diqqətini cəlb etmiş, muğamın dünya musiqi xəzinəsinə daxil edilməsi prosesində əhəmiyyətli rol oynamışdır [Muğam ensiklopediyası, 2008, s. 8-9].

İstedadlı qadın ifaçımız Səkinə İsmayılova həm ənənəvi muğam xanəndəsi, həm də opera müğənnisi kimi fəaliyyət göstərərək, bu iki fərqli vokal məktəbinin sintezini yaratmışdır. Səkinə İsmayılova Azərbaycan musiqi sənətində muğamı qavalla ifa edən ilk qadın xanəndə olmuşdur [Vahid T., 2011]. Bu fakt təkcə onun şəxsi nailiyyəti deyil, həm də Azərbaycan muğam ifaçılığı tarixində qadınların rolunun dəyişməsində mühüm bir dönüş nöqtəsidir.

Ənənəvi olaraq, muğam ifaçılığı əsrlər boyu əsasən kişi xanəndələrin hakimiyyətində olmuşdur. Qadınların muğam səhnəsinə çıxması, xüsusilə qaval kimi ritm alətini ifa zamanı özləri ilə götürməsi uzun müddət qeyri-ənənəvi hesab edilirdi. Səkinə İsmayılova qaval alətini öz interpretasiyasına daxil etməklə göstərdi ki, qadın xanəndə də bu ənənəvi alətdə ustad ola bilər. Səkinə İsmayılovanın bu təcrübəsi muğam tədrisində qadın şagirdlərə nümunə olmalıdır. O, gənc qadın xanəndələrə göstərdi ki, ənənəvi alətləri ifa etmək və muğam oxumaq qadınlar üçün də mümkündür. Səkinə İsmayılova həm də muğam ifaçılığı ilə opera sənətinin vəhdətini özünün peşəkar ifasında uzlaşdırmışdır. O, Avropa vokal məktəbinin təlimini ənənəvi muğam tərzi ilə birləşdirərək tamamilə yeni, orijinal ifa tərzi yaratmışdır. Bu birləşmə onun səs tembrini daha da zənginləşdirmiş, ifalarına dramatiklik və emosionallıq gətirmişdir. Səkinə İsmayılova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində təqdim olunan muğam operalarının əksəriyyətində baş qadın partiyalarının ifaçısı kimi çıxış etmişdir. Onun yaradıcılığına Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasında Leyli, “Əsli və Kərəm” operasında Əsli, Şəfiqə Axundovanın “Gəlin qayası” operasında Gülbahar, Zülfüqar Hacıbəyovun “Aşıq Qərib” operasında Şahsənəm kimi əsas qadın obrazları daxildir. Həmin partiyaların ifasında peşəkarlıq nümayiş etdirən xanəndə hazırda da teatrın səhnəsində bu rolları uğurla ifa etməkdədir. Səkinə xanımın yaratdığı bu rəngarəng obrazlar mənim üçün əsl yaradıcılıq məktəbi olmuş və ifa etdiyim səhnə obrazları üzərində işləyərkən onun canlandırdığı qəhrəmanların vokal interpretasiyasını, plastik həllini və emosional çalarlarını öz yaradıcılığıma tətbiq etməyə şalışıram. Onun opera sənətinə dair metodoloji yanaşmasında canlı vokal ifasının prioritetliyi xüsusi yer tutur. Sənətkar vurğulayır: “*Səhnə məkanının akustik cəhətdən ən çətin əldə olunan nöqtəsində-auditoriyanın ən son cərgəsində əyləşən tamaşaçı belə ifaçının canlı səsini aydın eşitməlidir*” [S. İsmayılova ilə müsahibə, 2026]. Düşünürəm ki, prinsip onun pedaqoji və ifaçılıq fəlsəfəsinin təməl daşlarından birini təşkil edir.

Uzun illər korifey sənətkarımız Xalq artisti, professor Canəli Əkbərovun rəhbərlik etdiyi “Muğam sənəti” kafedrasında fəaliyyət göstərdiyim üçün onun özünəməxsus ifa tərzi, dərs keçmə metodikası və interpretasiyalarını qeyd etmək istərdim. Xanəndə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulan muğam operalarında bir sıra unudulmaz obrazlar yaratmışdır: Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operasında Məcnun və İbn-Səlam, Müslüm Maqomayevin “Şah İsmayıl” operasında Şah İsmayıl, Zülfüqar

Hacıbəyovun "Aşıq Qərib" operasında Aşıq Qərib rolları onun yaradıcılıq irsinin parlaq nümunələri sırasındadır [Aydınoğlu T., 2015, s. 7].

Canəli Əkbərov beynəlxalq miqyasda da fəal qastrol fəaliyyəti ilə seçilmiş, Almaniya, Mali, Avstriya və digər xarici ölkələrdə dəfələrlə Azərbaycan muğam sənətini təmsil etmişdir. Ustad xanəndənin xüsusi məharətlə ifa etdiyi "Rast", "Şur", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" və başqa muğam dəstgahları kamil sənət nümunələri kimi milli musiqi xəzinəmizdə özünəməxsus yer tutur. Bu əsərlər onun vokal texnikasının kamilliyini, improvizasiya qabiliyyətinin zənginliyini və muğamın məqam quruluşunu dərindən mənimsədiyini sübuta yetirir. Ustadları Seyid Şuşinski və Xan Şuşinskinin ənənələrinə sadiq olan Canəli Əkbərovun ifa tərzi emosionallıq və səlis diksiya ilə xarakterizə olunur.

Müasir dövrümüzdə muğamları tədris edərkən tələbələrə korifey sənətkarlarımızın ifa tərzini aşılamaqla yanaşı müasir tədris metodlarından faydalanmaq da tövsiyə olunur. İlk növbədə muğam ifaçılığınının tədrisində tələbənin səs aparatının qurulması, nəfəs alıb-vermə texnikası, səsin düzgün çıxarılması kimi texniki məsələlərə xüsusi diqqət yetirilməlidir. Ustad xanəndələrin səsyazmalarını rəqəmsal platformalar vasitəsilə təhlil etmək, tələbələrə həm əyani nümunə, həm də müqayisə imkanı yaradır. Muğamların ənənəvi "ustad-şagird" üsulu ilə ötürülməsini qoruyaraq, eyni zamanda müasir not sistemindən istifadə etmək daha səmərəlidir. Bu üsulla tələbə həm improvizasiya bacarığını, həm də nəzəri biliklərini inkişaf etdirə bilər. Tələbələrə eyni muğamın müxtəlif ustadlar tərəfindən interpretasiyasını araşdırıb, müasir aranjimanla birləşdirərək yeni layihə hazırlamaq tapşırılmalıdır. Bu üsulla ənənəvi ifaçılıq tərzi qorunmaqla yanaşı, yaradıcılıq qabiliyyəti də formalaşdırılır. Əldə etdiyim təcrübələr və sadaladığım bu üsullar tələbələrin həm ənənəvi muğam qaydalarını dərindən mənimsəməsinə, həm də XXI əsrin dinləyici tələblərinə cavab verən çevik və müstəqil ifaçılar kimi yetişməsinə şərait yarada bilər.

**NƏTİCƏ.** Beləliklə, Azərbaycan muğam sənəti minillik ənənələrə söykənərək, daim inkişaf edir və müasirləşir. Muğamların tədrisində ənənə ilə müasirliyin vəhdəti bu sənətin yaşamasının və gələcək nəsillərə ötürülməsinin əsas şərtidir. Ənənəvi "ustad-şagird" münasibətləri, muğam məclisləri və korifey sənətkarlarımızın zəngin ifaçılıq təcrübəsi muğam tədrisinin ayrılmaz tərkib hissəsi olaraq qalır. Onların interpretasiyaları, vokal texnikası və səhnə mədəniyyəti gənc nəsil ifaçılar üçün əvəzsiz örnəkdir. Digər tərəfdən, müasir tədris metodlarının: rəqəmsal platformaların, səs proqramlarının, not sisteminin

və layihə əsaslı təlimin tətbiqi muğam tədrisinin səmərəliliyini artırır, tələbələrin həm ənənəvi qaydaları dərindən mənimsəməsinə, həm də müstəqil, yaradıcı və XXI əsrin dinləyici tələblərinə cavab verən ifaçılar kimi yetişməsinə imkan yaradır.

Nəticə etibarilə, korifey sənətkarlarımızın ifa tərzini yaşatmaqla yanaşı, müasir təhsil texnologiyalarını tədris prosesinə inteqrasiya etmək muğam sənətinin həm qorunmasına, həm də onun dünya miqyasında tanıdılmasına xidmət edir. Bu vəhdət muğam ifaçılığının gələcəyini təmin edən strateji əhəmiyyətli amildir.

## Ədəbiyyat siyahısı

1. Abdullayev Ağaxan Minaxan oğlu. Muğam ensiklopediyası. Bakı, Musiqi dünyası, 2008, s. 8-9.
2. Zöhrabov R. Muğam. Monoqrafiya. Bakı, Azərnəşr, 1991, 219 səh.
3. Vahid T. Muğamı qavalla ifa edən ilk qadın xanəndə. Mədəniyyət qəzeti. 18.02.2011
4. Aydınoğlu T. Yarım əsr milli musiqimizin xidmətində. Xalq qəzeti, 2015, 11 aprel, s.7.
5. Səkinə İsmayılova ilə canlı müsahibə. ADMİU, Muğam sənəti kafedrası, 19 mart, 2026-cı il.

**Afag Aghayeva AghaIbrahim gizi**

## THE HARMONY OF TRADITION AND MODERNITY IN THE TEACHING OF AZERBAIJANI MUGHAMS

**Summary:** This article addresses the application of contemporary teaching methods alongside the traditional performance styles of our master artists in mugham education. It emphasizes that the performance style and interpretations of our distinguished masters should serve as an invaluable model for young performers during the process of learning mughams. In modern mugham pedagogy, while preserving the traditional "ustad-shagird" (master-apprentice) approach, the integration of digital platforms, audio analysis software, and musical notation systems will facilitate students' acquisition of traditional principles as well as the development of their creative capacities.

**Key words:** Sakina Ismayilova, mugham, interpretation, Aghakhan Abdullayev, modern methods, tradition.

**Афаг Агаева Агаибрагим гызы**

## ЕДИНСТВО ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ В ОБУЧЕНИИ АЗЕРБАЙДЖАНСКИХ МУГАМОВ

**Резюме:** Данная статья посвящена вопросам применения современных методов обучения мугамам наряду с традиционной исполнительской манерой корифеев Азербайджанского музыкального искусства. Подчёркивается, что стиль исполнения и интерпретации выдающихся мастеров должны служить неоценимым образцом для молодых исполнителей в процессе освоения мугамов. В современном обучении мугамам, при сохранении традиционного метода «устад-шагирд», использование цифровых платформ, звуковых программ и нотной системы будет способствовать как овладению учащимися традиционными канонами, так и развитию их творческих способностей.

**Ключевые слова:** Сакина Исмаилова, мугам, интерпретация, Агахан Абдуллаев, современные методы, традиция.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 17.03.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.03.2026**

**UOT 78**
**ORCID: 0009-0006-5744-8983**
**DOI: 10.52094/WGHH5680**

**Zümrüd Məmmədova Mövlud qızı**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Baş elmi işçi, dosent**
medeni.elaqeler.info@gmail.com

# SƏMƏD VURĞUN POEZİYASINDA LİRİKA

**Xülasə:** Məqalədə Azərbaycanın görkəmli şairi Səməd Vurğunun yaradıcılığı tədqiq olunur. Şəməd Vurğun yaradıcılığı Azərbaycan mədəniyyətinin ən parlaq səhifələrdən birini təşkil edir. Azərbaycanda və dünya ədəbiyyatında böyük iz buraxmış şairl\rdəndir. Səməd Vurğun təkcə ədəbiyyat sahəsinin nümayiəndəsi kimi deyil, xalqımızın həyatında həm də ictimai rol oynamışdır. O, Azərbaycan poeziyasının klassik şairlərindən biridir. Azərbaycan ədəbiyyatını Səməd Vurğunsuz təsəvvür etmək mümkün deyil. Məqalədə bu xəzinənin sorağına çıxılır və araşdırılır. Onun şeirlərinə musiqi kontekstində nəzər yetirilir. Səməd Vurğun şeirlərinin daxili metroritmikası musiqidə istifadə üçün uyğunluq təşkil edir. Bu səbəbdəndir ki, bu şeirlərə yazılan mahnılar da olduqca melodik, ürəyəyatımlı və yaddaqalandır. Mahnıların əhatə dairəsi, musiqiçilərin mahnılara olan münasibəti də məqalədə tədqiq olunan digər mövzulardandır.

**Açar sözlər:** Səməd Vurğun, şeir, Azərbaycan poeziyası, mahnı, xalq şairi, Döyüşçülər marşı

Səməd Vurğun (Səməd Vəkilov, 1906-1956) Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub, ibtiradi təhsilini burada almış və daha sonra 1918-ci ildə Qori Müəllimlər Seminariyasına qəbul edilmişdir. Seminariyada təhsilini davam etdirərək şeir yazmağa başlamış və ilk əsəri "Cavanlara xitab", 1924-cü ildə "Yeni fikir" qəzetində dərc olunmuşdur. Şeirin yaradıcılığı 1920-1930-cu illərdə ədəbi mühitdə diqqət mərkəzinə çevrilmiş, onun tərcümələri və öz əsərləri o cümlədən Puşkinin "Yevgeni Onegin" və Qorkinin "Qız və ölüm" əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur. 1929-cu ildə Moskva Universitetinin ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1934-1937-ci illərdə Səməd Vəkilov

"Şairin andı", "Könül dəftəri" və "Şeirlər" kimi əsərləri ilə tanınmağa davam etmişdir. Şairin dram sahəsindəki fəaliyyəti də əhəmiyyətlidir. Onun "Vaqif" dramı 1941-ci ildə "Stalin mükafatı"na layiq görülmüşdür. Böyük Vətən müharibəsi dövründə yazdığı "Ananın öyüdü" şeiri isə dünya ədəbiyyatında müharibə əleyhinə ən qiymətli əsərlərdən biri kimi qiymətləndirilmişdir.

Eyni zamanda Səməd Vəkilov Azərbaycan Elmlər Akademiyasının akademiki olmuş və bu sahədə də böyük xidmətlər göstərmişdir. 1945-ci ildən etibarən o, həm də Mədəni Əlaqələr Cəmiyyətinin rəhbəri kimi fəaliyyət göstərmiş, müxtəlif beynəlxalq konqreslərdə iştirak etmişdir.

O, Azərbaycan xalqının qəlbinə əbədi olaraq həkk olunmuş və haqlı olaraq əbədiyaşarlıq hüququ qazanmış ölməz sənətkardır. Onun cismani olaraq sıralarımızdan ayrılmağından illər və qərinələr keçmiş olsa da, o bu gün də hər bir Azərbaycan oxucusunun qəlbində yaşayır, qüdrətli söz adamı kimi, ağ saçlı alim kimi, müdrik el ağsaqqalı kimi həmişə hörmətlə yad edilir. Bu, bir də ondan irəli gəlir ki, "Azərbaycanın xalq şairi" fəxri adının ilk daşıyıcısı məhz Səməd Vurğun olmuşdur. Əsil sənət, saz-söz ustadı, eyni zamanda nəğməkar şair olan Səməd Vurğun bu yüksək mərtəbəyə xalqına, Vətəninə, Azərbaycanın əsrarəngiz təbiətinə vurğunluğu ilə gəlib çatmışdı.

Maraqlı faktlardan biri də 1986-cı ildə Səməd Vurğunun yubiley tədbirinin Ulu Öndər Heydər Əliyevin də iştirakı ilə Kremlin Qurultaylar Sarayında keçirilməsi olmuşdur. İfaçı olaraq tədbirdə iştirakımla bağlı xatirələr hələ də yadımdadır. Yubiley konsertində Xalq artistləri Alim Qasımov, Səkinə İsmayılova və mən, Zümrüd Məmmədovanın iştirakı ilə "Simayi-şəms" muğamını ifa olunmuşdur. Olduqca təntənəli tədbir idi. Bu Səməd Vurğun yaradıcılığına dövlət səviyyəsində verilmiş ciddi dəyərlərdən biri sayılır.

Nadir istedad sahibi olan şair sözün həqiqi mənasında dahi idi. Onun poemaları və dram əsərləri xalqın həyatının güzgüsü olduğu kimi, lirik şeirləri təbiətin və cəmiyyətin gözəlliklərini özündə əks etdirən qiymətli sənət nümunələri idi və nə xoş ki, bugün də belə olaraq qalır. Bu səbəbdəndir ki, xalqımızın qüdrətli oğlu, ümummilli lider Heydər Əliyev onun haqqında demişdir: *"Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib təkrar edərkən öz xalqına, ölkəsinə bir daha məhəbbətini, sevgisini, sədaqətini ifadə edir"* (Əliyev, H. 2006, s. 76). Ölməz şairin tək bir şeiri haqqında söylənilən bu fikirləri əslində onun vətən və xalq mövzusunda yazmış olduğu bütün şeirlərinə də şamil etmək olar. Özünün doktorluq

dissertasiyasını dahi Səməd Vurğunun həyat və yaradıcılığına həsr etmiş xalq şairi Bəxtiyar Vahabzadə də bu ölməz şairin qüdrətini özünəməxsus bir dildə ifadə etmişdir: *"Vurğun sənəti xalq torpağından boy atdı, əsrin qabaqcıl ideyalarından bəhrələndi və bu iki amilə görə dən zəmisinin böyük sənətkarı oldu."* (Vahabzadə, B., 1984, s. 48)

Səməd Vurğunun yuxarıda adı çəkilən və indi də dillər əzbəri olan "Azərbaycan" şeiri Azərbaycan musiqi sənətində vətən mövzusunda yazılmış lirik mahnıların ilki, əzəli və daha çox populyar olanıdır desəm, yəqin ki, səhv etmiş olmaram. İndi bu şeirin məzmununu və ona həsr olunmuş mahnının motivlərini bilməyən yoxdur sözlərini də bu yazıda tam cəsarətlə qeyd edirəm. Bəstəkar Ələkbər Tağıyevin çox böyük və qüdrətli sənətkarlıqla bəstələmiş olduğu bu mahnı indi də müğənnilərimiz tərəfindən çox böyük şövqlə ifa olunur. Samıəd Vurğunun Muğam payamasında olan "Ceyran" şeiri də bu qəbil mahnılardandır. Demək olar ki, səsi və avazı olmayan hər bir azərbaycanlı da bu mahnının məzmununu bilməklə yanaşı, həm də onu zümzümə etməkdən xüsusi zövq alır. Bu şeir əsasən saz üstündə oxunan mahnılardandır.

Səməd Vurğunun həyat və yaradıcılığına yaxından bələd olan hər bir azərbaycanlı oxucusu yaxşı bilir ki, o, 1955-ci ildə İstisuda istirahət edərkən özünün xəstəliyi ilə əlaqədar bu yerlərə bir də gələ bilməyəcəyini hiss etmiş və indi də əzbər olan aşağıdakı şeirini qələmə almışdır.

*Bəxt məni bu yerə qonaq göndərdi,*
*Gedirəm, yamandır, ayrılıq dərdi,*
*Demə Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*

Bu şeir də aşıqlarımızın repertuarında bugün də möhkəm yer tutmaqda və dinləyicilərin zövqünü oxşamaqdadır. Şairin saza olan marağı hərkəsə məlumdur. Təsadüfi deyil ki, aşıq sənətinə olan bu sevgi onun şeirlərinin abu-havasında da duyulurdu. *"Səməd Vurğun hələ şair olmamışdan əvvəl atasından oxumağı və saz çalmağı öyrənmişdi. Saz onun ən sadiq həmdəmi idi. Hələ şair kimi məşhurlaşmamışdam əvvəl o, mahalı el-el , oba-oba gəzəndə sazı da onunla bir yerdə gəzirdi."* ( Göyüş, R., 2026)

Dahi bəstəkarımız, unudulmaz Üzeyir Hacıbəyli yazırdı: *"Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir"* (Elektron Məlumat Bazası, 2026). Səməd Vurğunun lirikası bütövlükdə həyat fəlsəfəsidir. O, insanın daxili aləmini ifadə etməklə yanaşı, həm də onun təbiətlə əlaqəsinin harmonikliyini diqqətə çatdırır. Bu mənada bu

lirika həm də düşündürücüdür. Saməd Vurğunun şeirlərindən bəstələnmiş mahnıların Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yeri vardır. Elə buradaca fəxr və qürur hissi ilə qeyd etmək yerinə düşər ki, ilk dəfə dünya şöhrətli müğənnimiz, SSRİ Xalq artisti Zeynəb Xanlarovanın ifasında səslənmiş və yaddaşlara həkk olunmuş "Azərbaycan" mahnısı (musiqisi Ələkbər Tağıyevindir) hələ də öz şöhrətini qoruyub saxlamaqdadır.

Şairin "Şair, nə tez qocaldın sən" şeirinə unudulmaz bəstəkarımız Vasif Adıgözəlovun bəstələmiş olduğu vokal musiqisi də Azərbaycanın əməkdar artisti Ramil Qasımovun ifasında könülləri oxşayır, ruha dad verir.

Səid Rüstəmovun bəstələmiş olduğu "Oxu, gözəl" mahnısı ölməz sənətkarlarımız Şövkət Ələkbərovanın və Gülağa Məmmədovun ifasında bu gün də milli musiqi sənətimizin incilərindən sayılır. Aşıqlarımızın sevə-sevə oxuduqları "Dağlar" mahnısı isə həmişə olduğu kimi bugün də insanı öz ağuşuna alıb, "binələri çadır-çadır" gəzdirir və ona nostalji hisslər bəxş edir.

Səməd Vurğunun yüksək musiqi duyumu hər zaman özünü büruzə verirdi. Onun əsərlərinə yazılmış bəstəkar musiqisinin məşqlərində də iştirak edər, eşitdiyi cüzi not səhvliyini belə duyar, musiqi haqqında fikirlərini bildirərdi. Bəstəkarlarla sıx dostluq əlaqələri vardı. Müxtəlif mənbələrdə Səməd Vurğun haqqında sitatlara rast gəlmək mümkündür. Görkəmli bəstəkarlardan Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov, Bülbül və b. çoxsaylı fikirlər söyləmişlər. *"Şairlə dostluq və yaradıcılıq münasibətində olan görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin xatirələrindən: "Bəstəkarlarımız çox vaxt ona (Səməd Vurğuna R.G.) öz aralarnda Azərbaycan Sovet şeirinin Üzeyiri deyirdilər...Səməd Vurğun saz çalmaqda xalq aşıqlarının bir çoxundan geri qalmaz, kefi gələndə hərdən tarını sinəsi üstə alıb, sarı simi narın mizrab ilə səslədər, gah da pəsdən zümzümə edər. O Azərbaycan muğamlarını professional musiqiçi qədər mükəmməl bilir"."* ( Göyüş, R., 2026)

Səməd Vurğunun şeirləri həmişə özünün axıcılığı və yaddaqalanlığı ilə diqqəti cəlb etdiyindən Azərbaycan bəstəkarları da tez-tez ona müraciət etmişlər. Azərbaycan musiqi sənətinin banisi, görkəmli mütəfəkkiri Üzeyir Hacıbəyli Səməd Vurğun poeziyasından vətənpərvərlik mövzusunda olan bir sıra şeirləri seçmiş və "Vətən ordusu", "Ey vətən", "Döyüşçülər marşı" və "Zəfər himni" adlı mahnılar bəstələmişdir. Fəxrlə demək olar ki, adı çəkilən mahnılar elə indi də milli musiqi sənətimizin nadir inciləri kimi dillər əzbəridir. Üzeyir Hacıbəyli və Səməd Vurğunun yaradıcı münasibətləri onları daim qarşılıqlı inkişafa aparırdı. *"Bəstəkar şairin "Şəfqət bacısı" şeirini yazmasının da mövzuverəni*

*olub və Mehdixan Vəkilov demişkən, Üzeyir Hacıbəylinin qadir nəğməsində xalq himni kimi qəlblərə yol açıb"* (Nəcəfxanlı, Ə., 2025, s.10).

Dünyaşöhrətli bəstəkarlarımız Qara Qarayev, Tofiq Quliyev, Vasif Adıgözəlov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Ələkbər Tağıyev, Fikrət Əmirov və nəhayət Rəşid Behbudov (bəstəkar kimi) Səməd Vurğunun yaradıcılığından yetərincə bəhrələnmiş və musiqi xəzinələrimizi zənginləşdirən bir sıra əsərlər yaratmışlar. Ona görə də Səməd Vurğunun şeirləri Azərbaycan musiqisinin qızıl fondunda yer alır. Onun sözlərinə bəstələnmiş mahnılar həm klassik, həm də estrada musiqisinin ayrılmaz hissəsinə çevrilmişdir.

1956-cı ildə vəfat edən şair, Azərbaycan ədəbiyyatının inkişafına və dünya ədəbiyyatında layiqli yer tutmasına böyük töhfələr vermişdir. Onun yaradıcılığı və fəaliyyəti bu gün də ədəbiyyatsevərlər tərəfindən yüksək qiymətləndirilir.

Nəticədə deyə bilərik ki, Səməd Vurğun yaradıcılığı olduqca zəngin bir milli sərvətdir. Məqalə Səməd Vurğunun 120 illik yubileyinə həsr olunmuşdur. Bir daha onun fəaliyyətini tədqiq etdikcə qaşımızda geniş, peysaj canlandı. İstər ədəbi mühitdə, istərsədə də musiqi mühitinə özünəməxsus yerə malikdir. Onun yaradıcılığı musiqi dünyasına da öz güclü təsirini göstərmiş və çox dəyərli nümunələr üzə çıxmışdır. Ümidvarıq ki, Azərbaycan milli musiqisi və bu sənəti zaman-zaman inkişaf etdirən sənət adamlarımız milli sərvətdən bundan sonra da yetərincə istifadə edəcəklər.

## Ədəbiyyat siyahısı

1. Heydər Əliyev irsi: Azərbaycanın davamlı inkişaf strategiyası / – Bakı: Azərbaycan nəşriyyatı. – 2006, – 784 s.
2. Nəcəfxanlı, Ə. Dahilərin dostluğu: Ü. Hacıbəyli -140 // Xalq qəzeti. – 2025, 19 avqust. – s. 10.
3. Vahabzadə, B. M. Səməd Vurğun. / red. Ç. Əlioğlu. B.M. Vahabzadə. – Bakı: Gənclik, –1984. – 377 s.

**Saytoqrafiya**

4. Elektron Məlumat Bazası / Bakı, 2026. URL: http://anl.az/el/emb/S.Vurgun/haqqinda-fikirler.html
5. Göyüş, R. Səməd Vurğunun musiqi dünyası / Bakı, 2026. URL: https://www.adalet.az/az/posts/detail/semed-vurgunun-musiqi-dunyasi-1771309329

**Zumrud Mammadova Movlud gizi**

## LYRICISM IN THE POETRY OF SAMAD VURGHUN

**Summary:** The article examines the creative activity of the outstanding Azerbaijani poet Samad Vurghun. The literary legacy of Samad Vurghun constitutes one of the brightest chapters of Azerbaijani culture. He is a poet and writer who left a profound mark on both Azerbaijani and world literature.

Samad Vurghun was not only a representative of the literary sphere but also played a significant public role in the life of the nation. He is regarded as one of the classical poets of Azerbaijani poetry. It is impossible to imagine Azerbaijani literature without Samad Vurghun.

This article explores and analyzes this rich creative heritage from various perspectives. Particular attention is paid to his poetry within a musical context. The internal metrorhythmic structure of Samad Vurghun's poems demonstrates their organic suitability for musical adaptation. For this reason, the songs composed based on his poems are distinguished by their melodiousness, expressiveness, and memorability.

The study also investigates the thematic and genre scope of these songs, as well as musicians' attitudes toward the compositions written on the poet's texts.

**Key words:** Samad Vurghun, poem, Azerbaijani poetry, song, People's Poet, March of the Fighters.

**Зумруд Мамедова Мовлуд кызы**

## ЛИРИКА В ПОЭЗИИ САМЕДА ВУРГУНА

**Резюме:** В статье исследуется творчество выдающегося азербайджанского поэта Самеда Вургуна. Творчество Самеда Вургуна составляет одну из самых ярких страниц азербайджанской культуры. Он является поэтом и писателем, оставившим значительный след как в азербайджанской, так и в мировой литературе.

Самед Вургун выступал не только как представитель литературной сферы, но и играл важную общественную роль в жизни нашего народа. Он считается одним из классиков азербайджанской поэзии. Невозможно представить азербайджанскую литературу без Самеда Вургуна.

Настоящая статья обращается к исследованию этого богатого творческого наследия и анализирует его с различных аспектов. В частности, его поэзия рассматривается в музыкальном контексте. Внутренняя метроритмическая структура стихов Самеда Вургуна демонстрирует их органичную пригодность для музыкального воплощения. Именно этим объясняется тот факт, что песни, созданные на его стихи, отличаются высокой мелодичностью, выразительностью и запоминаемостью.

В статье также анализируются жанровый и тематический диапазон данных песен, а также отношение музыкантов к произведениям, написанным на стихи поэта.

**Ключевые слова:** Самед Вургун, стихотворение, азербайджанская поэзия, песня, народный поэт, Марш бойцов.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 24.02.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.03.2026**

**UOT 78**
**ORCID: 0000-0001-7618-3657**
**DOI: 10.52094/LSNW5851**

**Rumiyə Məmmədova Yaqub qızı**
**Naxçıvan Dövlət Universiteti**
**Baş müəllim**
rumiyamammadova89@gmail.com

# KAMAL ƏHMƏDOVUN "GƏMİQAYA" SİMFONİK LÖVHƏLƏRİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Azərbaycan bəstəkarı Kamal Əhmədovun "Gəmiqaya" simfonik lövhələrinin dramaturji və forma xüsusiyyətləri elmi-analitik baxımdan araşdırılır. Tədqiqatın əsas məqsədi əsərin ideya-məzmun mənbələrini, quruluş prinsiplərini və fərdi yaradıcılıq xüsusiyyətlərini musiqişünaslıq baxımından təhlil etməkdir. Məqalənin giriş hissəsində Gəmiqaya mövzusunun tarixi və mifoloji konteksti, bu mövzunun Azərbaycan mədəniyyətində tutduğu yer və onun bəstəkar tərəfindən musiqi dili vasitəsilə şərhi ümumi şəkildə təqdim olunur. Əsas hissədə "Gəmiqaya" simfonik lövhələrinin silsiləli proqramlı quruluşu, hissələrin forma xüsusiyyətləri, tematik inkişaf xətti və dramaturji ardıcıllığı təhlil edilir. Simfonietta, sonata və mürəkkəb üçhissəli formaların tətbiqi, polifonik çoxsəsliliyin müxtəlif növləri, imitasiya və kontrapunkt üsullarının istifadəsi əsərin musiqi dramaturgiyası kontekstində izah olunur. Təhlil zamanı muğam intonasiyalarının, milli rəqs və folklor elementlərinin Avropa klassik musiqi formaları ilə qarşılıqlı əlaqəsi xüsusi diqqət mərkəzində saxlanılır. Poliritmika, polilad və tembr imkanlarının dramaturji funksiyası əsərin obraz sisteminin formalaşmasında mühüm amil kimi qiymətləndirilir. Araşdırma nəticəsində "Gəmiqaya" simfonik lövhələrinin Kamal Əhmədovun fərdi üslubunu səciyyələndirən əsas xüsusiyyətləri özündə cəmləşdirdiyi, milli musiqi təfəkkürünün müasir simfonik formalarla sintezini əks etdirdiyi və Azərbaycan simfonik musiqisinin inkişafında əhəmiyyətli yer tutduğu müəyyənləşdirilir.

**Açar sözlər:** Kamal Əhmədov, Gəmiqaya, simfonik lövhələr, musiqi dramaturgiyası, forma, polifoniya, muğam intonasiyaları, Azərbaycan simfonik musiqisi

## GİRİŞ

Azərbaycan simfonik musiqisinin inkişaf mərhələlərində milli musiqi ilə Avropa klassik musiqi formalarının qarşılıqlı əlaqəsi xüsusi elmi əhəmiyyət kəsb edən problemlərdən biri kimi çıxış edir. Bu baxımdan müasir Azərbaycan bəstəkarlarının yaradıcılığında milli intonasiya sisteminin, muğam əsaslı tematizmin və polifonik təfəkkürün simfonik formalar daxilində təcəssümü aktual tədqiqat obyektinə çevrilir. Kamal Əhmədovun yaradıcılığı bu istiqamətdə diqqət cəlb etsə də, bəstəkarın əsərləri musiqişünaslıqda hələ sistemli və kompleks şəkildə araşdırılmamışdır. Xüsusilə "Gəmiqaya" simfonik lövhələri kimi iri həcmli, proqramlı və çoxqatlı dramaturji quruluşa malik əsərin elmi təhlili bu sahədə mövcud olan boşluqları üzə çıxarır.

Mövcud elmi ədəbiyyata nəzər saldıqda Kamal Əhmədovun yaradıcılığının əsasən məhdud sayda mənbələrdə əks olunduğu müşahidə edilir. Bəstəkar haqqında indiyədək yalnız kiçik həcmli broşür və ayrı-ayrı elmi məqalələr mövcuddur ki, bu tədqiqatlar da onun yaradıcılıq irsinin yalnız müəyyən cəhətlərini əhatə edir. "Gəmiqaya" simfonik lövhələri isə nə forma-dramaturji baxımdan, nə də polifonik quruluş və milli intonasiya sisteminin tətbiqi aspektindən ayrıca və geniş şəkildə təhlil olunmamışdır. Bu vəziyyət əsərin elmi dövriyyəyə daxil edilməsini və musiqişünaslıq baxımından dərin araşdırılmasını zəruri edir.

"Gəmiqaya" simfonik lövhələri ideya mənbəyi etibarilə Azərbaycan xalqının qədim tarixi-mifoloji yaddaşı ilə bağlıdır və proqramlı xarakter daşıyır. Əsərdə Gəmiqaya mövzusu, Nuh əfsanəsi, qədim insanın həyat tərzi və mədəni düşüncəsi musiqi dili vasitəsilə ümumiləşdirilmiş bədii obrazlar sistemində əks olunur. Bu obrazların formalaşmasında simfonik dramaturgiyanın ardıcıl inkişaf xətti, tematik materialın çevik işlənməsi və müxtəlif forma modellərinin tətbiqi mühüm rol oynayır. Bəstəkar əsərdə simfonietta, sonata və mürəkkəb üçhissəli forma kimi klassik quruluş prinsiplərindən istifadə etsə də, onları milli musiqi ənənələrinə uyğun şəkildə fərdiləşdirir.

Təqdim olunan məqalənin əsas məqsədi Kamal Əhmədovun "Gəmiqaya" simfonik lövhələrinin musiqi-dramaturji və forma xüsusiyyətlərini müəyyənləşdirmək, əsərin quruluş prinsiplərini, tematik inkişaf mexanizmini və polifonik çoxsəslilik sistemini elmi-analitik baxımdan təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün əsərin hər bir hissəsinin forma quruluşu, muğam intonasiyalarının tətbiqi, poliritmik və polilad üsullarının dramaturji funksiyası, həmçinin polifonik inkişafın müxtəlif növləri araşdırma predmeti kimi

seçilmişdir. Tədqiqatın əsas vəzifələri sırasında "Gəmiqaya" simfonik lövhələrinin Azərbaycan simfonik musiqisində tutduğu yerin müəyyənləşdirilməsi və bəstəkarın fərdi yaradıcılıq üslubunun əsas xüsusiyyətlərinin üzə çıxarılması dayanır.

Məqalə əsasən musiqi-analitik və müqayisəli təhlil metodlarına, eləcə də ilkin mənbələrə əsaslanır. Tədqiqatın mənbə bazasını bəstəkarla aparılmış müsahibələr, onun şəxsi arxivində saxlanılan not və partitura materialları təşkil edir. Bu materiallar əsərin yaranma mərhələlərini, ilkin variantlarını və bəstəkarın yaradıcılıq niyyətini izləməyə imkan verməklə araşdırmaya ilkin elmi mənbə xarakteri verir. Qeyd olunan yanaşma "Gəmiqaya" simfonik lövhələrinin əvvəlki tədqiqatlardan fərqli olaraq daha dərindən və obyektiv şəkildə öyrənilməsinə şərait yaradır.

Məqalənin nəzəri əhəmiyyəti Azərbaycan simfonik musiqisində milli musiqi elementlərinin müasir forma modelləri ilə sintezinin öyrənilməsinə töhfə verməsində, praktik əhəmiyyəti isə ali musiqi təhsili müəssisələrində musiqi təhlili, polifoniya və Azərbaycan musiqisi tarixi fənlərinin tədrisində istifadə oluna bilməsində özünü göstərir. Aparılan araşdırma Kamal Əhmədovun yaradıcılıq irsinin gələcəkdə daha geniş və sistemli şəkildə öyrənilməsi üçün elmi zəmin yaradır.

## Əsas hissə

### Metodoloji yanaşma

Təqdim olunan tədqiqat musiqi-analitik və struktur-funksional yanaşma əsasında aparılmışdır. Araşdırmada forma analizi, tematik inkişafın izlənilməsi, polifonik çoxsəsliliyin növlərinin müəyyənləşdirilməsi, muğam intonasiyalarının və milli musiqi elementlərinin simfonik kontekstdə təhlili əsas üsul kimi istifadə olunmuşdur. Əsərin ayrı-ayrı hissələrinin quruluşu klassik forma modelləri ilə müqayisəli şəkildə araşdırılmış, musiqi dramaturgiyasının formalaşmasında ritmik, lad-məqam və tembr amillərinin rolu müəyyən edilmişdir. Tədqiqat zamanı ilkin mənbələrə – bəstəkarın şəxsi arxivində saxlanılan not və partitura materiallarına, eləcə də müəlliflə aparılmış müsahibələrə istinad edilmiş, bu materiallar əsərin yaranma mərhələlərinin və yaradıcılıq niyyətinin daha obyektiv şəkildə şərhinə imkan vermişdir. Qeyd olunan metodoloji yanaşma "Gəmiqaya" simfonik lövhələrinin musiqi-dramaturji və forma xüsusiyyətlərini kompleks şəkildə dəyərləndirməyə şərait yaratmışdır.

Qeyd olunan metodoloji yanaşma əsasında aparılan təhlil ilk növbədə "Gəmiqaya" anlayışının tarixi və mifoloji məzmununun müəyyənləşdirilməsini

zəruri edir. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda yerləşən Gəmiqaya ərazisi öz qayaüstü rəsmləri ilə daim diqqət mərkəzində olmuş ulu diyardır. Buradakı qayaüstü rəsmlər Azərbaycan tarixinin ən qədim mədəniyyətindən xəbər verir. Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 8–7 min il yaşı olduğu, aparılan tədqiqatlar nəticəsində burada yaşamış əhalinin həyat tərzinin və mədəni inkişaf yollarının izlənilməsinin mümkün olduğu qeyd olunur (Gəmiqaya petroqlifləri, t. y.). Gəmiqaya rəsmlərində təsvir edilən rəqs hərəkətlərinin elementləri, rəqslərin dinamikası və ifaçıların üzündə müşahidə edilən nəğmə oxuma mimikaları musiqi ifaçılığı sənətinin ilkin mərhələlərinin məhz bu dövrlərə təsadüf etdiyini deməyə əsas verir (Kərimov, 2012, s. 9). Bu ərazi ilə bağlı mövcud olan əfsanələrdən biri Nuhun gəmisinin Gəmiqaya ərazisindən keçməsi ilə əlaqələndirilir. Əfsanəyə görə, yer üzünü su basdığı dövrdə Nuhun gəmisi dalğalara və qayalara çırpılaraq irəliləmiş, nəhayət Gəmiqayaya yan alaraq burada dayanmış və bununla da yeni bir həyatın başlanğıcı qoyulmuşdur. Gəmiqaya rəsmlərinin Nuhun gəmisindən enən ilk insanlar tərəfindən çəkilməsi ilə bağlı fikirlərin mövcudluğu da bu mifoloji konteksti gücləndirir (Gəmiqaya və Nuh əfsanəsi, t. y.). Qədim tariximizə böyük hörmət bəsləyən Kamal Əhmədov "Gəmiqaya" simfonik lövhələrini məhz bu mifoloji süjetlə əlaqələndirmişdir. K.Əhmədov bu kvarteti hələ tələbəlik illərində III kursda (II yarısında) oxuyarkən bəstələmişdi. Əsərin girişi özünəməxsus xarakterə malik olduğuna görə bəstəkar onu simfonietta adlandırdı. İlk bəstələndiyi zamanda simfonietta əsərə giriş kimi nəzərdə tutulsa da, sonradan geniş həcmi etibarilə əsərdə ayrıca bir hissəni təşkil etməyə başlamışdır. Həttə həmin hissə müstəqil bir əsər kimi də səsləndirilir. Müəyyən zaman aralığından sonra müəllif bu kvarteti süjeti baxımından və xüsusilə də simfonietta hissəsindəki çoxsaylı liqalar, gecikdirmələr, sinkopaları suyun dalğalanmasına bənzətdiyi üçün Gəmiqaya mifologiyasıyla əlaqələndirərək əsərə "Gəmiqaya" adını verməyi qərara aldı. Sonralar müəllif bu kvartetə kontrabas alətini də əlavə edərək kvintet tərkibində təqdim etdi və simfoniya formasına saldı.

K.Əhmədovun tələbəlik illərində (III kursda oxuyarkən) bəstəkarın bütün irsində əhəmiyyətli rol oynayan və ona bir çox əsərinin yaranmasına təkan verən, həmçinin polifoniyanı inkişaf etdirməyə geniş imkanlar açan yaradıcılıq üslubu formalaşmağa başlamış və 4 notdan ibarət intonasiya onun fərdi tapıntısı kimi özünü büruzə vermişdi. Bəstəkar həmin intonasiyanı ilk dəfə məhz "Gəmiqaya" kvartetində istifadə etmişdir. Bu intonasiya zabul-segah

muğamının elementləri əsasında qurulub və əsərin simfonietta hissəsinin özəyini təşkil edən temanı yaradır.

"Gəmiqaya" simfonik lövhələrində bəstəkar polifonik çoxsəslilinin demək olar ki, bir çox növündən – hərəkətli, dönən, xərçəngyerişli kontrapunkt, kanonlu imitasiya, ciddi və sərbəst imitasiya və s. istifadə etmişdir. Əsər ümumilikdə mürəkkəb quruluşa malikdir və hər bir hissəsi özünəməxsus, spesifik xüsusiyyətlər daşıyır.

Əsərdə K.Əhmədov Avropa klassik musiqisinin ənənələrindən istifadə etsə də Azərbaycan xalq musiqisindən, xüsusilə də muğamlardan, rəqs intonasiyalarından geniş şəkildə yararlanaraq özünəməxsus fərdi yaradıcılıq üslubunu sərgiləmişdir. Bəstəkarın üslubuna xas xüsusiyyət kimi qəbul olunan polilad, poliritmika üsulları və polifonik çoxsəslinin növlərindən hərtərəfli istifadə "Gəmiqaya" simfonik lövhələrində də özünü büruzə verir. Həmçinin o, əsərin quruluşu daxilində milli xüsusiyyəti vurğulamaq üçün muğamlardan geniş şəkildə yararlanır, hətta II hissədə sonata formasının əsas və köməkçi partiyaları arasında yaratdığı təzadı onların əsaslandığı məqamlarda da göstərir (Şur-Segah). Bununla yanaşı məqamların qarşılaşdırılması həmin hissənin repriza bölümündə diqqəti cəlb edən cəhətdir (Rast-Segah-Rast).

Simli kvartetin tembr xüsusiyyətlərini və ifa imkanlarını yaxşı bilən K.Əhmədov əsərdə ikili notları istifadə edərkən bu xüsusiyyətləri həssaslıqla nəzərə almışdır. Həmçinin bəstəkarın kvartetlə əldə etdiyi səs palitrası orkestr zənginliyini xatırladaraq dolğun kalorit yaradır.

Ənənəvi olaraq simfonik lövhə janrında bəstələnmiş əsərlər əsasən sonata və ya üçhissəli formada yazılır, bəzən isə sərbəst quruluşa malik olur. K.Əhmədovun "Gəmiqaya" simfonik lövhələri isə klassik formada bəstələnsə də özünəməxsus xüsusiyyətləri ilə bu çərçivədən kənara çıxır və bir qədər sərbəst xarakter daşıyır. Əsər təsviri proqramlı silsiləli formada yazılaraq 3 hissə və təntənəli kodadan ibarətdir. Hər bir hissə qədim tariximizin müxtəlif səhifələrini təsvir edir

I hissə - Simfonietta adlanır və fuqa formasında yazılmışdır. Qeyd etmək lazımdır ki, "Simfonietta" hissəsi ilkin olaraq müstəqil kompozisiya kimi bəstələnmiş, sonradan "Gəmiqaya" simfonik lövhələrinin dramaturji əsasını təşkil etmişdir. Bəstəkar burada klassik fuqa formasından fərqli olaraq janrın çərçivələrinə riayət göstərilməsinə baxmayaraq, sərbəstlik müşahidə olunur və fuqa daxilən spesifikliyi ilə diqqəti cəlb edir. Məsələn, əgər klassik fuqalarda temaya cavab kvinta yuxarı və ya kvarta aşağı imitasiya edilirsə burada daha

çox oktava intervalı həcmində imitasiya verilir; klassik fuqaların ekspozisiya hissəsində temanın keçidi fuqanın neçə səsli olmasından aslı olaraq dəqiq sayda olur, ancaq bu əsərdə qeyri-müəyyən sayda verilib; həmçinin polifonik üslubda bəstələnməsinə baxmayaraq fuqanın bəzi yerlərində hamofon-harmonik səslənmə istifadə edilib.

Qeyd etmək lazımdır ki, fuqanın əsas temasını təşkil edən “sol, lya-bemol, si-bemol, si” səsləri əvvəldə də qeyd edilən Zabul-segah muğamının intonasiyaları əsasında yaradılmış K.Əhmədovun 4 notdan ibarət fərdi modusudur. Bu modusda os səsi “re” notudur.

I hissədə liqalardan, sinkopalardan geniş şəkildə istifadə edilib. Liqalar homofon-harmonik müşayiətdə əhəmiyyətli rol oynayaraq polifonik inkişafı zənginləşdirir. Hətta liqaların çoxluğu musiqinin fasilə verməsinə imkan yaratmır və aramsız dalğalanan suyu dinləyicinin gözü önündə canlandırır. Sinkopalar isə gəminin önünə çıxan qayaların, müxtəlif maneələrin təsviridir. Bu haqqda B.Rzayevanın fikirləri belədir: “Polifonik qatların müxtəlif ritmik fiqurasiyalarla inkişaf etməsi mücərrəd xarakter daşıyaraq mifoloji əfsanələri ifadə edir” (Rzayeva, B., 2015, s. 22).

II hissə - Sonata formasına malikdir. Lakin yenə də K.Əhmədov klassik sonata formasının qanunlarından kənara çıxaraq fərdi özünəməxsusluq və novator xüsusiyyətlər əlavə edir. Belə ki, sonatanın işlənmə hissəsi həddindən artıq böyükdür. Hətta işlənmə polifonik variasiyaya əsaslanır və onun bölmələri polifonik variyasiya adlandırılır. Digər bir özünəməxsus xüsusiyyəti isə odur ki, sonda repriza çox kiçik həcmə malikdir. Reprizada yalnız köməkçi partiya təkrarlanır və əsas məqsədi növbəti hissə ilə kontrastlıq yaratmaqdır. Mövzu baxımından bu hissədə Nuhun gəmisinin Gəmiqaya ərazisində quru torpağa qovuşaraq insanların orada məskunlaşması və bununla da yeni bir həyatın başlanması təsvir edilir. Bəstəkarın II hissəni rəqs, yallı və aşıq musiqisinə bənzər intonasiyalarda bəstələməsi də həmin mifologiyadakı hadisələrlə və qayüstündə həkk edilmiş yallıya, rəqsə bənzər rəsmlərlə əlaqələndirilə bilər.

III hissə - Mürəkkəb üç hissəli formada qurulub. Bu hissə artıq özlərinə Gəmiqaya ərazisində kök salmış, məskən qurmuş insanların xoşbəxt, firəvan həyatlarını əks etdirdiyi üçün musiqisi şənlik, bayram, rəqs xarakterli bəstələnmişdir. Bu baxımdan dinləyicidə müsbət əhval-ruhiyyə yaradır və qədim Azərbaycan tarixinin mədəniyyəti haqqında xoş təəssüratlar oyadır. B.Rzayevanın təbirincə desək: “Əsərin II və III hissələri real həyatla bağlı olaraq

Azərbaycan türklərinin həyat tərzi, məişəti və folklorunu ifadə edən xalq musiqi elementləri əsasında qurulmuşdur.” (Rzayeva, B., 2015, s. 23).

Kodada “Heyratı” ritmik muğamının intonasiyaları təntənəli xalq bayramını və şənliyi təsvir edərək əsəri yüksək optimist planda bitirir.

**I hissə - Simfonietta**

Bu hissədə ən əhəmiyyətli rol mövzunu təqdim edən ilk iki xanəyə düşür. Çünki bütün hissə məhz bu temadan törəyib davam etdiyi üçün sanki “kristal tezisə” çevrilir. Bu haqda B.Rzayeva belə qeyd etmişdir: “Tək səslə başlayan mövzunun imitasiyası müxtəlif səslərdə variasiyalıq təşkil edərək poliritmikanı yaradır” (Rzayeva, B., 2015, s. 22).

Ekspozisiya “Adagio” tempində I skripkanın təksəsli melodiyası ilə başlayır. Bütün fuqanının inkişafında mühüm yer tutan bu tema ağır, sakit xarakterə malik olaraq Gəmiqaya və Nuh peyğəmbər haqqında olan mifoloji əfsanənin ümumi mənzərəsini canlandırır. Temaya cavab imitasiyası violində eyni səs yüksəkliyində keçir. I skripkada isə violinə əks quruluş verilir.




Nümunə 1. “Gəmiqaya” simfonik lövhələrinin I hissəsindən Ekspozisiya.
*(Mənbə: Əhmədov, Simfonietta, partitura, s. 1)*

Temanın IV keçidi II skripkada xanənin zəif təqtisindən başlayır. Bir-birinin ardınca verilən bu keçidlər Nuh peyğəmbərin gəmisinin dəryada dalğalanmasını və irəliləməsini təsvir edir. Mövzunun inkişafı nisbətən aşağı istiqamət alır və səslənmədə tədrici sönmə müşahidə edilir.

27-ci xanədən fuqanın orta – işlənmə hissəsi I skripkada temanın keçidi ilə başlayır. Ardınca violində xərçəngyerişli tema violonçelin strettalı imitasiyasıyla verilir.




Nümunə 2. "Gəmiqaya" simfonik lövhələrinin I hissəsindən Fuqanın işlənmə bölməsi, strettalı imitasiya
*(Mənbə: Əhmədov, Simfonietta, partitura, s. 4)*

Bu hissədə melodik inkişaf pillə-pillə qalxaraq registri yüksəldir, dinamika artır, faktura mürəkkəbləşir və əsərdə zəngin inkişaf başlayır. Bəstəkar gərginliyi artırmaq üçün işlənmə hissəsində poliritmikadan istifadə edib. Musiqi fırtınanın başlanmasını təsvir edib kulminasiyanı yaradır. Nuhun gəmisi quruya çatmaq üçün böyük dalğalarla mübarizə aparır. Zəngin inkişaf işlənmə hissəsinin sonlarına doğru ən yüksək pilləyə qalxır və ardınca səslənmədə tədricən sönmə yaranır, fırtına sakitləyir və gərginlik azalaraq işlənmə hissəsi bitir.

47-ci xanədən violonçeldə temanın əsas tonallıqda verilməsi ilə repriza hissəsi başlayır. II və III keçidlər bir-birinin ardınca viola və I skripkada səslənir.




Nümunə 3. Repriza hissəsi. "Gəmiqaya" simfonik lövhələrinin I hissəsindən repriza.
*(Mənbə: Əhmədov, Simfonietta, partitura, s. 7)*

Yeni yaranan hamofonik müşayiət çoxsaylı liqalarla verilərək zəngin inkişaf effekti yaradır, hətta ostinatolu fon xarakterinə çevrilib əsərin sonuna qədər davam edir və sanki aramsız dalğalanan suyu canlandırır.

**II hissə - Sonata**

Əvvəldə də qeyd edildiyi kimi II hissə Sonata formasında yazılıb və polifonik çoxsəslilikdən geniş şəkildə istifadə edilib. Bu hissə müxtəlif mövzulu polifonik inkişaf xəttinə malik əsas partiya ilə başlayır. Əsas partiya Şur muğamının intonasiyaları əsasında, sadə 2 hissəli formada qurulmuşdur. Xarakter baxımından onun mövzusu Azərbaycan xalq rəqslərinə bənzədilə bilər. Polifonik inkişafın sıxlığı sadə 2 hissəli formanın cümələləri arasında keçidləri çox axıcı edərək sonluqları hiss edilməz həddə çatdırır. Əsas partiyada mifoloji süjetə uyğun olaraq bəstəkar elə ilk notlardan yeni bir həyatın başlanması ilə yaranan ümidi, sevinci əks etdirir. Onaltılıq notların aramsız hərəkəti də optimist əhval-ruhiyyəni gücləndirir.

Nümunə 4. “Gəmiqaya” simfonik lövhələrinin II hissəsindən əsas partiya.
*(Mənbə: Əhmədov, Gəmiqaya, partitura, s. 1. )*

İşlənmə hissəsi skripkaların pissikatosu ilə başlayır. Bu hissə 4 bölmədən ibarət olaraq böyük həcmə malikdir. Bölmələr polifonik variasiya formasında qurulub.

I polifonik variasiya – skipkaların pissikato və arkosunun qarşıdurması ilə yadda qalır. Əvvəldə sadə harmonik akkordlarla verilən pissikato canlanan,




çiçəklənən həyatı təsvir edir. Ardınca arko ifa bu canlanmanı daha da təsdiqləyir. Hissənin mövzusu Azərbaycan aşıq musiqisinə bənzədilə bilər.

II polifonik variasiya – Skripkaların I bölmədəki ritmik fiqurasiyası ostinatolu şəkildə davam edərək insanların məskunlaşma tərzində addım-addım irəliləməsini təsvir edərkən violin və violonçelin mövzusu onların qarşılaşdıqları çeşidli maneələri canlandırır. Həmçinin burada çağırışa bənzər intonasiyaları da eşitmək mümkündür.

Nümunə 5. “Gəmiqaya” simfonik lövhələrinin II hissəsindən II polifonik variasiya.

*(Mənbə: Əhmədov, Gəmiqaya, partitura, s. 11)*

III polifonik variasiya – daha böyük həcmə malikdir. Artıq köməkçi partiyanın mövzusu bu bölmədən işlənməyə, müxtəlif variantlarda təqdim edilməyə və dinamik dəyişikliyə uğramağa başlayır. Bölmədə hamofon-harmonik çoxsəslikliklə yanaşı imitasiyalı polifoniyanın elementləri üstünlük təşkil edir.

Ən iri həcmli bölmə IV polifonik variasiyadır. Formanın kulminasiyası da məhz bu bölmədə baş verir.

183-cü xanədən “Largo contabile” ilə kiçik repriza hissəsi başlayır. Bu




hissədə klassik sonata formasının qaydaları pozularaq əsas və köməkçi partiyalar deyil, yalnız köməkçi partiyanın elementləri təkrarlanır. Hissənin obraz xarakteristikası haqqında belə qeyd etmək olar: artıq Gəmiqaya ərazisində məskunlaşmış insanların sabitləşmiş, müəyyən mənada rahatlıq tapmış həyatları sakit musiqi ilə təsvir edilir.

**III hissə - Mürəkkəb üçhissəli forma**

“Gəmiqaya” simfonik lövhələrinin III hissəsi mürəkkəb 3 hissəli formada bəstələnmişdir. Bu hissədə yüksək təravətli rəqsvari mövzularla yanaşı II hissənin elementləri, xüsusilə də köməkçi partiyanın mövzusu istifadə olunub. Bəstəkar əsərdə klassik mürəkkəb 3 hissəli formanın quruluşuna xas olan əlamətlərə, yəni, kənar hissələrin eyni olub, orta hissənin təzadlıq təşkil etməsi qaydasına dəqiqliklə riayət edərək I və III hissələri rəqsvari ritmli Rast muğamının intonasiyaları, II hissəni isə Segah muğamının elementləri əsasında

bir qədər lirik xarakterdə yazmışdır. Bu baxımdan formanın sxemini ABA hərfləri ilə adlandırmaq olar.

Hissənin I bölümü (A) sadə 2 hissəli formada yazılmışdır. Bu hissənin melodiyasını Azərbaycan xalq rəsqi olan "Qaytağı" ilə bənzətmək olar. Kvarta-kvinta intervalı çərçivəsində inkişaf edən mövzu "Allegro" tempində oynaq, şən-şux xarakterdə başlayıb xoşbəxt, firəvan həyatı təmsil edir. Səkkizlik notlar və sinkopalı ritmika əhval-ruhiyyəni daha da optimist plana yönləndirir. Əsas melodiyanı I skripka və violin alətləri aparır. Digər simlilər isə sadə harmonizasiya ilə müşayiət edirlər.

Mürəkkəb üç hissəli formanın orta hissəsi - B bölümü "Andantino" tempində Segah muğamının intonasiyaları əsasında açılır. Bu mövzu əsərin II hissəsində verilmiş köməkçi partiyanın musiqi materialının təkrarı olsa da bu hissədə bir qədər daha inkişaflı xüsusiyyətə malikdir.

III hissə - A bölümü Rast muğamının intonasiyaları əsasında, sadə iki hissəli formada qurulmuş I hissənin təkrarıdır. Lakin burada bir qədər dəyişiklik və ixtisar olduğu üçün onu dinamik repriza adlandırmaq olar.

**Koda**

Rast məqamına əsaslanan Mahur-hindi muğamı kökündə gümrah, cəngavər xarakterli Heyratı zərbi muğamının intonasiyaları bu hissənin əsasını təşkil edir. K.Əhmədovun həmin zərbi muğamın elementlərini istifadə etməkdə məqsədi əsəri təntənəli, oynaq, nikbin əhval ruhiyyədə bitirməkdir. "Maestoso" tempi də bu atmosferi yaratmağa kömək edir. Mövzunu əsasən I skripkalar aparır, digər simlilər isə hamofonik müşayiət edirlər. Hissənin ortalarına doğru registr yüksələrək gərginlik artır və sonlarda səslərin uzunluğu nisbətən böyüyüb əsəri yüksək, işıqlı, bayram xarakterində tamamlayır.

**Nəticə**

Aparılan tədqiqat Kamal Əhmədovun "Gəmiqaya" simfonik lövhələrinin musiqi-dramaturji və forma xüsusiyyətlərinin elmi-analitik baxımdan araşdırılmasına həsr olunmuşdur. Təhlil nəticəsində əsərin proqramlı-silsiləli quruluşa malik olduğu, klassik simfonik formaların (simfonietta, sonata, mürəkkəb üçhissəli forma) milli musiqi təfəkkürü ilə üzvi şəkildə sintez edildiyi müəyyənləşdirilmişdir. Əsərdə polifonik çoxsəsliliyin müxtəlif növlərindən, muğam intonasiyalarından, milli rəqs və folklor elementlərindən istifadə musiqi dramaturgiyasının formalaşmasında əsas amillərdən biri kimi çıxış edir.

Araşdırma zamanı gözlənilən nəticələrdən biri kimi "Gəmiqaya" simfonik lövhələrinin Kamal Əhmədovun fərdi yaradıcılıq üslubunu səciyyələndirən əsas

cəhətləri özündə cəmləşdirdiyi təsdiq olunmuşdur. Bununla yanaşı, təhlil prosesində bəstəkarın klassik forma modellərindən istifadə zamanı göstərdiyi sərbəst yanaşma və bu formaların daxili strukturunun milli məqam düşüncəsinə uyğun şəkildə dəyişdirilməsi əsərin dramaturji quruluşunda gözləniləndən daha geniş improvizasiya imkanları yaratdığı müşahidə edilmişdir. Bu məqam əsərin yalnız ənənəvi forma çərçivəsində deyil, fərdi yaradıcılıq konsepsiyası kontekstində də dəyərləndirilməsini zəruri edir.

Tədqiqatın nəzəri əhəmiyyəti Azərbaycan simfonik musiqisində milli musiqi elementlərinin müasir forma modelləri ilə qarşılıqlı əlaqəsinin öyrənilməsinə töhfə verməsindədir. Praktiki baxımdan əldə olunan nəticələr ali musiqi təhsili müəssisələrində musiqi təhlili, polifoniya və Azərbaycan musiqisi tarixi fənlərinin tədrisində, eləcə də müasir Azərbaycan bəstəkar yaradıcılığının öyrənilməsində istifadə oluna bilər. Bu baxımdan tədqiqatın elmi nəticələri musiqişünaslıq sahəsində metodoloji yanaşmaların zənginləşdirilməsinə xidmət edir.

Aparılan araşdırma "Gəmiqaya" simfonik lövhələrinin təhlili ilə məhdudlaşsa da, Kamal Əhmədovun digər simfonik və kamera əsərlərinin də oxşar metodoloji yanaşma əsasında araşdırılmasının zəruriliyini ortaya qoyur. Gələcək tədqiqatlarda bəstəkarın yaradıcılıq üslubunun mərhələli inkişafı, fərdi intonasiya sisteminin formalaşması və Azərbaycan simfonik musiqisinin ümumi kontekstində yeri daha geniş şəkildə öyrənilə bilər.

## Ədəbiyyat siyahısı

**Əhmədov, K.** Simfonietta [Notlar]: / Partitura. – Şəxsi arxiv.

**Əhmədov, K.** *Gəmiqaya* simfonik lövhələri [Notlar]: / Partitura. – Şəxsi arxiv.

**Hüseynova, R.** (2016). *Polifoniya. Dərslik, I cild*. Naxçıvan: Əcəmi. – 263 s.

**Hüseynova, R.** (2021). *Polifoniya dərsliyi*. Naxçıvan: Əcəmi. – 196 s.

**Hüseynova, R.** (2024). *Musiqi əsərlərinin təhlili dərsliyi*. Naxçıvan: Əcəmi. – 328 s.

**Kərimov, R.** (2012). *Naxçıvan musiqi mədəniyyəti tarixindən*. Bakı: Azərnəşr. – 160 s.

**Rzayeva, B.** (2015). *Kamal Əhmədov*. Bakı. – 30 s.

**Gəmiqaya petroqlifləri.** (t. y.). *Wikipedia*. URL: https://az.wikipedia.org/wiki/G%C9%99miqaya_petroqlifl%C9%99ri

**Gəmiqaya və Nuh əfsanəsi.** (t. y.). *Qlobal*. URL: https://qlobal.az/gemiqaya-ve-nuh-efsanesi/

**Rumiya Mammadova Yagub gizi**

## SPECIFIC FEATURES OF KAMAL AHMADOV'S SYMPHONIC SKETCHES "GAMIGAYA"

**Summary:** The article provides a scholarly analytical study of the musical-dramaturgical and formal characteristics of the symphonic tableaux "Gamiqaya" by Azerbaijani composer Kamal Ahmadov. The main aim of the research is to analyze the ideological and conceptual sources of the composition, its structural principles, and the individual features of the composer's creative style from a musicological perspective. The introductory section briefly outlines the historical and mythological context of the Gamiqaya theme, its place within Azerbaijani culture, and its artistic interpretation through musical language. The main part of the article examines the programmatic cyclic structure of the symphonic tableaux, the formal characteristics of each movement, the line of thematic development, and the dramaturgical continuity of the work. The use of symphonietta, sonata, and complex ternary forms, as well as various types of polyphonic texture, imitation, and contrapuntal techniques, is analyzed within the framework of musical dramaturgy. Particular attention is paid to the interaction between mugham intonations, national dance and folklore elements, and the forms of European classical music. Polyrhythm, polymodality, and timbral resources are evaluated as significant factors in shaping the work's imagery system. The study concludes that the symphonic tableaux "Gamiqaya" embody the defining features of Kamal Ahmadov's individual compositional style, reflect a synthesis of national musical thinking with modern symphonic forms, and occupy an important place in the development of Azerbaijani symphonic music.

**Key words:** Kamal Ahmadov, Gəmiqaya, symphonic tableaux, musical dramaturgy, form, polyphony, mugham intonations, Azerbaijani symphonic music.

**Румия Мамедова Ягуб кызы**

# СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ СИМФОНИЧЕСКИХ КАРТИН «ГЕМИГАЯ» КАМАЛА АХМЕДОВА

**Резюме:** В статье с научно-аналитической точки зрения исследуются музыкально-драматургические и формообразующие особенности симфонических картин «Гемигая» азербайджанского композитора Камала Ахмедова. Основной целью исследования является музыковедческий анализ идейно-содержательных источников произведения, принципов его построения и индивидуальных творческих особенностей композиторского мышления. Во введении в обобщённом виде рассматривается историко-мифологический контекст темы Гемигая, её место в азербайджанской культуре, а также особенности художественного осмысления данной темы композитором средствами музыкального языка. В основной части статьи анализируется программно-циклическая структура симфонических картин «Гемигая», формальные особенности частей, линия тематического развития и драматургическая последовательность. Применение форм симфониетты, сонаты и сложной трёхчастной формы, использование различных видов полифонического многоголосия, приёмов имитации и контрапункта рассматриваются в контексте музыкальной драматургии произведения. Особое внимание уделяется взаимодействию интонаций мугама, элементов национального танцевального и фольклорного начала с формами европейской классической музыки. Полиритмика, полиладовость и тембровые возможности оцениваются как важные факторы формирования образной системы произведения. В результате исследования установлено, что симфонические картины «Гемигая» концентрируют в себе основные черты индивидуального стиля Камала Ахмедова, отражают синтез национального музыкального мышления с современными симфоническими формами и занимают значимое место в развитии азербайджанской симфонической музыки.

**Ключевые слова:** Камал Ахмедов, Гемигая, симфонические картины, музыкальная драматургия, форма, полифония, интонации мугама, азербайджанская симфоническая музыка.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 22.01.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.01.2026**

**UOT 78.**
**ORCID: https://orcid.org/0009-0008-2094-6668**
**DOI: 10.52094/XXUW5712**

**Aysel Əzizova Firdovsi qızı**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**Doktorant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
aysel.azizova1991@gmail.com

# REGİONAL ARAŞDIRMALARDA TARİXİ-MÜQAYİSƏLİ METODUN ROLU

## (AĞBABA AŞIQ MÜHİTİNİN NÜMUNƏSİNDƏ)

**Xülasə:** Müəllif məqalədə Ağbaba etnomədəni mühitinə məxsus aşıq havalarının tədqiqi üçün tarixi-müqayisəli metodun tətbiqini təklif edir. Bu metod öz növbəsində kompleks və çoxşaxəli yanaşmanı, bölgənin musiqi irsinin regional araşdırmalar kontekstində dərindən öyrənilməsini tələb edir.

Tədqiqatın əsas məqsədi Ağbaba aşıq mühitinə daxil olan nümunələrin musiqi qatının vahid bədii prosesdən təcrid olunmuş halda deyil, bütöv etnik-mədəni sistemin bir hissəsi kimi öyrənilməsidir. Xüsusilə Aşıq İskəndər Ağbabalının ifasında yazıya alınmış “Otalı qızı”,“Sarıyaylıq”, “Diyarbəkiri” kimi aşıq havalarının struktur-tipoloji təhlili bu havaların semantik məzmununun dərk edilməsi üçün zəmin yaratmışdır. Müəllifin fikrincə Ağbaba aşıq mühiti ənənələri XX əsrin sonuna qədər məhz vahid prosesin tərkibində inkişaf etmiş və tarixi-ictimai kontekstdə digər mühitlərlə mübadilə vəziyyətində fəaliyyət göstərmişdir.

Aparılan müqayisəli təhlillərin sonucunda “Kərəmi”, “Dastanı”, “Cəngi Koroğlu” havalarının təhlil olunan havalar ilə sintaqmatik bənzərlikləri üzə çıxarılmış, ortaq morfoloji qanunauyğunluqlar aşkar olunmuşdur. Bu faktorlar əsasında müəllif belə qənaətə gəlir ki, Ağbaba aşıq mühitinə xas olan havalar azər türklərinin etnogenezisi ilə bağlı olan mühüm tarixi mənbələrdən biri kimi çıxış edə bilər.

**Açar sözlər:** Ağbaba aşıq havaları, semantik təhlil, sintaqmatik bənzərlik, aşıq qaydaları, regional araşdırmalar.

Tarixi–müqayisəli metod humanitar elmlərdə müxtəlif mədəni hadisələr arasında tarixi əlaqələri, onların yayılma arealını və struktur paralelləri müəyyənləşdirməyi hədəfləyən analitik yanaşmadır. Bu metodun mahiyyəti hər bir ənənənin yalnız lokal çərçivədə deyil, həm də digər bölgələrlə tarixi və funksional münasibətlər kontekstində araşdırılmasını tələb edir.

Tarixi-müqayisəli metodun türk dillərinin tarixi sintaksisi sahəsində tətbiqi O.Böhtlink və V.V.Radlov kimi tədqiqatçıların fəaliyyəti ilə bağlıdır. O.Böhtlinkin 1851-ci ildə Sankt-Peterburqda alman dilində nəşr olunmuş “Yakutların dili haqqında” (Über die Sprache der Jakuten) əsərində yakut dili digər türk dilləri ilə müqayisəli şəkildə öyrənilmişdir. V.V.Radlovun əsərləri isə müasir türkologiya ədəbiyyatında türk dillərinin tarixi-müqayisəli tədqiqi üçün konseptual elmi baza yaratmış və bu sahədə aparılan sistemli araşdırmaların təməli kimi qiymətləndirilmişdir (Ercilasun, A. B., 2007).

Təsadüfi deyil ki, tarixi–müqayisəli yanaşmanın tətbiqini əsaslandıran mühüm tezislər müasir antropologiya və folklor nəzəriyyəsində öz əksini tapmışdır. Burada ənənənin formalaşma mexanizmi ilə bağlı səsləndirilən fikirlər ənənənin həm sabitlik, həm də dəyişmə proseslərinin vəhdəti əsasında təşəkkül tapdığını göstərir. Amerikalı folklorşünas H.Qlassi (Glassie H.) ənənəni sabitlik və dəyişmə mexanizmlərinin paralel fəaliyyəti əsasında formalaşan mədəni sistem kimi izah edir və qeyd edir ki, “böyük nümunələr kiçik fəaliyyətlərin nəticəsində yaranır; tarix, mədəniyyət və insan amili ənənə daxilində bir araya gəlir” (Glassie, 1995, s. 409). Bu nəzəri çərçivə etnomusiqişünaslıqda həm aşıq havalarının arxaik qatlarının, həm də mühitlərarası əlaqələrin araşdırılması üçün etibarlı metodoloji istiqamət müəyyənləşdirir. Aşıq havalarının öyrənilməsində tarixi-müqayisəli metodun tətbiqi musiqi ənənəsinin tarixi inkişafına dair faktları aşkarlaya bilər, eyni zamanda, həmin ənənənin müəyyən dövrün, bölgənin mədəni-xüsusiyyətlərini necə əks etdirdiyini aydınlaşdıra bilər.

Tarixi–müqayisəli metodun tətbiqi ilə bağlı araşdırmalarda etnomusiqişünas A.Merriamın konsepsiyası aktuallıq kəsb edir (Merriam, 1964:37-38). A.Merriam etnomusiqişünasın fəaliyyətində ilk növbədə bölgə materialının toplanmasına və həmin materialın iki əsas istiqamət üzrə sistemli şəkildə işlənilməsinə diqqət yetirir: 1) musiqi davranışının sosial və funksional kontekstini müəyyənləşdirən etnoqrafik təhlil, 2) musiqi materialının struktur təhlili. Merriamın fikrincə, bu istiqamətdə aparılan araşdırmalar musiqi davranışının mahiyyətini anlamaq və tədqiqat fərziyyələrinin əsaslandırılmasını təmin etmək üçün zəruri ilkin faktoloji baza yaradır. Bu səbəbdən tarixi–

müqayisəli metodda materialın əvvəlcə struktur baxımından dəqiq təsviri və sistemləşdirilməsi sonrakı mərhələdə oxşarlıqların xarakterini (genetik bağlılıq, tipoloji paralellər və ya lokal dəyişikliklər) əsaslı şəkildə müəyyənləşdirməyə imkan verir.

Bruno Nettl tarixi–müqayisəli yanaşmanın əsas məqsədini müxtəlif musiqi ənənələri arasında müşahidə olunan struktur oxşarlıqların səbəblərini anlamaqda görür (Nettl, 2005:86-88). Onun fikrincə, bu oxşarlıqların izahı təkcə mədəniyyətlərarası əlaqələrlə məhdudlaşmır, onlar həm də insanın musiqi davranışına xas olan ümumi, təkrarlanan qanunauyğunluqlardan qaynaqlana bilər. Nettl iki əsas səbəbi fərqləndirir: Genetik bağlılıq – tarixi əlaqələr, yayılma, ünsiyyət nəticəsində müxtəlif bölgələrdəki musiqi ənənələrinin oxşar struktur xüsusiyyətlər qazanması. Tipoloji oxşarlıq – müxtəlif mədəniyyətlər bir-biri ilə əlaqədə olmasa belə, insanın musiqi yaratma və qavrama mexanizmlərinin universallığı nəticəsində struktur bənzərliklərin yaranması. Nettlin konsepsiyası tarixi–müqayisəli metodun işləmə mexanizmini daha dəqiq müəyyənləşdirir. Birinci mərhələ – struktur bənzərliyin müəyyənləşdirilməsi, ikinci mərhələ – onların genetik və ya tipoloji səbəblərinin aydınlaşdırılmasıdır.

Etnomusiqişünas P.E.Savic (Savage P.E.) ilə psixologiya və neyrobiologiya üzrə alim S.Braunun (Brown S.) birgə tədqiqatlarında (Savage P., Brown S., 2013, 148-197) müqayisəli musiqişünaslığın müasir inkişaf istiqamətləri müəyyənləşdirilir  və bu sahənin əsasını təşkil edən beş tədqiqat xətti – təsnifat, mədəni təkamül, insan tarixi, musiqi universalları və bioloji təkamül – sistemləşdirilir. Müəlliflər göstərirlər ki, müxtəlif mədəniyyətlərə məxsus musiqi nümunələrinin müqayisəli təhlili musiqi sistemlərinin həm ortaq, həm də spesifik strukturlarını müəyyənləşdirməyə imkan verir və nəticələr tarixi–müqayisəli yanaşmanın müasir etnomusiqişünaslıqda elmi-metodoloji əhəmiyyətini  təsdiqləyir.

Ümumtürk musiqisi kontekstində aparılan müqayisəli tədqiqatlar arasında Y.Şipoşun *“Comparative Research on the Folk Music of Turkic and Hungarian People” (2006)* kitabı xüsusilə qeyd olunmalıdır.Y.Şipoş geniş coğrafi ərazini əhatə edən müqayisəli tədqiqatların nəticəsində Anadolu, Azərbaycan, Qazaxıstan və digər regionlarda macar xalq musiqisi ilə struktur paralellər təşkil edən melodik tipləri  müəyyənləşdirməyə müvəffəq olmuşdur.

K.Dadaş-zadənin “Aşıqşünaslığın tarixi və nəzəriyyəsi” dərsliyində tarixi-müqayisəli metod etnomusiqişünaslığın ümumi metodologiyasından qaynaqlanan və musiqi eposşünaslığında tətbiq olunan əsas araşdırma

üsullarından biri kimi təqdim edilir. Alimin qeyd etdiyi kimi, tədqiqat obyektinin müəyyən zaman çərçivəsində və tarixi kontekstdə izahını mümkün edən bu yanaşma ənənələrin dinamikasını, variantlaşma prosesini və struktur dəyişmələri müqayisəli əsasda müəyyənləşdirməyə imkan verir (Dadaş-zadə K., 2019:39).

Düşünürük ki, aşıq havalarının araşdırılmasında "zaman çərçivəsi" anlayışı ənənənin müəyyən formalaşma mərhələləri ilə bağlıdır: melodiyanın ilkin arxaik strukturunun yaranması və onun ənənə daxilində sabitləşmiş formaya çevrilməsi, zamanla müxtəlif bölgələrdə lokal dəyişikliklərə məruz qalması,ifaçı səviyyəsində müşahidə olunan variantların meydana gəlməsi-bütün sadalanan proses ardıcıl mərhələlər kimi nəzərdən keçirilə bilər. Bu yanaşma havaların fərqli mühitlərdə aldığı formaları sistemləşdirməyə şərait yaradır və qismən tarixi aspektdə izləməyə imkan verir.

Beləliklə, tarixi–müqayisəli metod musiqi materialının mənşəyini və yayılma mexanizmini müəyyənləşdirmək üçün ilk növbədə struktur baxımından etibarlı faktların əldə edilməsini tələb edir. Bu səbəbdən struktur–tipoloji və semiotik təhlil tarixi–müqayisəli yanaşmanın hazırlıq mərhələsini təşkili üçün mühüm rol oynayır: birinci mərhələdə musiqi nümunələrinin quruluşu, ritm–intonasiya modeli və sintaqmatik təşkilli müəyyən edilir; ikinci mərhələdə bu oxşarlıqların xarakteri – genetik bağlılıq, lokal modifikasiya və ya tipoloji paralellər – aydınlaşdırılır; yalnız üçüncü mərhələdə həmin məlumatlar əsasında musiqi materialının tarixi inkişaf xətti və regional formalaşma prosesi haqqında nəticə çıxarmaq mümkün ola bilər.

Qeyd olunan metodların müstəvisində aparılan müqayisəli təhlillər sonucunda Ağbaba etnomədəni mühitində ifa olunan "Otalı qızı", "Sarıyaylıq", "Diyarbəkiri" havaları ilə "Kərəmi", "Dastanı", "Cəngi Koroğlu" havalarının sintaqmatik bənzərlikləri üzə çıxarılmış, ortaq morfoloji qanunauyğunluqlar aşkar olunmuşdur:

- "Otalı qızı" və "Yanıq Kərəm", eləcə də "Sarıyaylıq" və" "Dastanı", "Diyarbəkiri" və "Cəngi Koroğlu" havalarının sintaksisində aşkarlanan bənzər sintaqmatik quruluşlar bu havalarda ritm–intonasiya baxımından modifikasiya olunduğunu göstərir.

- Bu sintaqmalar sabit melodik formul qismində mətnin semantik təşkili üçün mühüm funksional rol oynayır, bədii mətnin emosional–məzmun qatını formalaşdıran tanıdıcı əlamətlər kimi çıxış edir; onlar variasiya nəticəsində formal dəyişikliklərə məruz qalsa da, daşıdıqları semantik kontur sabitliyini qoruyur.

Qeyd edək ki, formulluq anlayışı şifahi ənənədə əvvəlcədən formalaşmış və mütəmadi şəkildə təkrarlanan ifadə vahidlərini bildirir. Musiqi müstəvisində bu, sabit melodik sintaqma, ritm–intonasiya modeli və ya emosional məzmunu ifadə edən struktur nüvəsi şəklində təzahür edir. Bu vahidlər kollektiv yaddaşın emosional məna daşıyıcısıdır. Lordun yanaşmasına görə şifahi epik ənənədə ifa zamanı baş verən ani yenidənqurma prosesi improvizasiya kimi tam spontan yaradılış deyil. Belə ki, ifaçı ənənədən gələn ifadə vahidlərini yenidən canlandırır və icra zamanı onların situativ şəkildə yeni təşkilini həyata keçirir. Bu səbəbdən ifadakı dəyişikliklərin mümkün olmasına baxmayaraq, formulun struktur sabitliyi qorunur və epik ənənənin kompozisiya çərçivəsi pozulmur. Nəticədə eyni ifaçının müxtəlif icra variantları arasında fərqlər mövcud olsa da, bu fərqlər formulun quruluşuna xələl gətirmir (Lord A.B., 1960, s. 27–28; 68–70) Bu baxımdan "Yanıq Kərəmi" tipinə məxsus sintaqmanın "Otalı qızı" havasında, "Cəngi Koroğlu" havasına məxsus sintaqmanın "Diyarbəkiri" havasında transformasiya olunmuş şəkildə səslənməsi həmin havaların emosional–semantik sahəsinin eyni formullu element üzərində qurulduğunu göstərir

V.V.Radlovun türkdilli epik ənənə ilə bağlı müşahidələri formulluğun daha geniş mədəni kontekstdə anlaşılmasına imkan verir (Radlov, V.V. (1866–1907)). Onun türk epik mətnlərinin təhlili ilə bağlı yazdığı fikirləri göstərir ki, türk epik ənənəsində sabit kompozisiya strukturu və təkrarlanan formullar ifa zamanı mətnin təşkili üçün baza funksiyası daşıyır, sənətkar epik məzmunu yaratdıqda həmin hazır elementləri situasiyanın inkişafına uyğun şəkildə kombinasiya edir. Bu formullar yalnız poetik quruluşun texniki komponentləri deyil, həm də ənənənin semantik sabitliyini qoruyan dayaq vahidləridir. Xüsusilə K.Reyxl epik ənənədə sabit struktur vahidlərin ifa prosesində variasiyaya uğrasa belə, kompozisiya bütövlüyünü və mənalandırıcı funksiyasını qoruduğunu vurğulayır (Reyxl, 1992, s. 257). Bu yanaşma göstərir ki, melodik və poetik formullar yalnız texniki element deyil, həm də ənənənin semantik sabitliyini təmin edən mədəni yaddaş vahidləridir.

Ağbaba aşıq havalarında müşahidə olunan sabit melodik formullar Radlovun təsvir etdiyi ümumtürk formulluq sisteminin musiqidə təzahür edən paralelidir. "Yanıq Kərəmi" və "Koroğlu" havaları tipinin semantik yükünü daşıyan intonasiya modeli Ağbaba mühitində situativ emosional kontekstə uyğun şəkildə aktivləşir və lokal modifikasiyalarla yeni icra formasında təzahür edir. Bu proses

Ağbaba ənənəsinin qədim türk epik düşüncəsinin struktur prinsiplərini – sabit formul, hazır təsvir vahidlərini bu günə qədər qoruyub saxladığını göstərir.

Ağbaba ənənəsində melodik formulların situativ şəkildə aktivləşməsi ifanın yalnız struktur səviyyədə deyil, həm də davranış və emosional yaddaş müstəvisində baş tutur. Bu nöqtədə formulların bədii performansa çevrilməsini Riçard Skençnerin *(Richard Schechner)* performans nəzəriyyəsi, xüsusilə *"restored behavior"* – bərpa olunmuş davranış konsepsiyasının əsasında elmi cəhətdən izah etmək məqsədəuyğundur. Skençnerin yanaşmasına görə performans əvvəlki emosional vəziyyətlərin, təcrübələrin və davranış modellərinin yenidən icrası əsasında formalaşır (Skençner, 2013:29, 35). "Otalı qızı" və "Sarıyaylıq" havalarının yaranması da bu prinsipin nümunəsidir. Aşıq sosial-emosional situasiyanı yaşadığı anda havanı təkcə spontan reaksiya əsasında deyil, eyni zamanda ənənədə mövcud olan davranış modelləri üzərində yenidən qurur, ifa edir və beləliklə şəxsi təcrübəni formullu musiqi materialı üzərində performativ bədii formaya çevirir. Bu baxımdan düşünürük ki, Skençnerin kollektiv yaddaşın davranışa kodlaşdırılması prinsipinin aşıq ifaçılığının əsas mexanizmlərindən biri kimi qəbul edilməsi məqsədəuyğundur. Hesab edirik ki, aşıq sənətində hər bir ifanın müstəqil variant kimi nəzərə alınması və havanın ilkin formasının tam bərpası və ya elmi baxımdan müəyyən olunması mümkünsüz görünür.

Beləliklə, qeyd olunan müddəaları nəzərə alaraq tarixi-müqayisəli metodun tətbiqi ilə Ağbaba havalarının struktur–semantik quruluşunda mədəni yaddaş və epik düşüncə baxımından qədim ənənələrə əsaslandığını təsdiqləyən elementləri aşkar etdik və bu havaların kompleks şəklində təhlilinə müvəffəq olduq.

Aparılan araşdırma göstərdi ki, melodik formulların davamlılığı, sintaqmatik strukturların paralellikləri və performativ davranış modellərinin sabitliyi Ağbaba aşıq mühitinin həm ümumtürk musiqi-epik sisteminə bağlılığını, həm də özünəməxsus lokal xüsusiyyətlərini qoruyub saxladığını ortaya qoyur. Bu nəticələr tarixi-müqayisəli metodun yalnız oxşarlıq və fərqlərin müəyyənləşdirilməsi üçün deyil, həm də musiqi ənənəsinin formalaşma mexanizmlərini, kollektiv yaddaşda kodlaşdırılan struktur vahidləri və performativ davranış qaydalarını anlamaq üçün etibarlı metodoloji çərçivə olduğunu nümayiş etdirir.

## Ədəbiyyat siyahısı

Blacking, J. (1973). *How Musical Is Man?* Seattle: University of Washington Press.

Dadaşzadə, K. (2019). *Aşıqşünaslığın tarixi və nəzəriyyəsi*. Bakı. 2019.s.39

Ercilasun, A. B. (2007). *Türk lehçeleri grameri*. Ankara: Akçağ Yayınları.

Glassie, H. (1995). *Tradition*. Philadelphia: University of Pennsylvania Press.

Lord, A. B. (1960). *The Singer of Tales*. Cambridge, MA: Harvard University Press.

Merriam, A. P. (1964). *The Anthropology of Music*. Evanston: Northwestern University Press.

Nettl, B. (2005). *The Study of Ethnomusicology: Thirty-One Issues and Concepts*. Urbana: University of Illinois Press.

Reichl, K. (1992). *Turkic Oral Epic Poetry: Traditions, Forms, Poetic Structure*. Bloomington: Indiana University Press.

Radlov, V. V. (1866–1907). *Obraztsy narodnoy literatury tyurkskikh plemen* (Vols. 1–10). (Образцы народной литературы тюркских племен.) Sankt-Peterburg.

На самом деле, и эту главу, и главу «Восхваление слова и несколько слов о мудрости» из «Семи красавиц», а также некоторые стихотворения из «Дивана» можно было бы рассматривать в контексте поэтической теории. Творческий процесс в качестве объекта изображения в произведениях искусства стал широко занимать художников последние два века и достиг своего пика в XX веке. Конечно, мы не можем не вспомнить «Лягушек» Аристофана, который опережает аристотелевскую «Поэтику» в плане описания теоретических взглядов учения о трагедии; а терзания поэта в непонимающем его обществе на примере *Торквато Тассо* очень душевно изобразил в своем драматическом произведении И. В. Гете. Примеров же, где мысли о творчестве вплетаются в общую канву произведения как побочный элемент и не счесть. В творческом наследии Низами мы встречаем и поэзирование литературной теории, и само описание творческого процесса с волнующими поэта переживаниями, поэтому эта тема требует дополнительного, тщательного изучения. Мы же подводя итог нашей статье, еще раз подчеркиваем, что тема отражения философского мировоззрения Низами в его творчестве требует более основательных исследований; мы это прекрасно понимаем, и как заметки для будущих изысканий, хотим здесь обозначить некоторые интересные в контексте теории познания направления, как, например, анализ текстов Низами в свете учений Людвига Витгенштейна и Мартина Хайдеггера.

## Список литературы

1. Аристотель. (2002). *Политика*. / («Политика» и «Поэтика»). – Москва: Издательство АСТ. – 393 стр.

2. Бертельс, Е. Э. (1965). *Избранные труды*. Суфизм и суфийская литература. – Москва: Главная редакция Восточной литературы; издательство «Наука», – Стр. 530

3. Бертельс, Е. Э. (1947). *Низами.* Издательство ЦК ВЛКСМ «Молодая гвардия», 1947. https://profilib.link/chtenie/67006/e-bertels-nizami-6.php (дата обращения: 30.03.2021)

4. Гаджиева, А. А. (2013). Низами Гянджеви: на вершине мудрости. // *Гуманитарные науки*, №1 (9)/2013 – Стр. 8-12

5. Гегель Г. В. Ф. (1969). *Эстетика.* В четырех томах. Том второй – Москва: Издательство «Искусство». – 328 стр.

6. Низами, Г. (1981). *Лирика.* Прозаический перевод / Пер., вст. статья и комментарии проф. Р. Алиева – Баку: «Язычы». – 112 стр.

7. Низами, Г. *Семь красавиц* / Перевод В. Державина https://librebook.me/piat_poem/vol6/1(дата обращения: 30.03.2021)

8. Низами, Г. *Сокровищница тайн* / Перевод К. Липскерова и С. Шервинского.

9. https://librebook.me/piat_poem/vol3/1(дата обращения: 30.03.2021)

10. Низами, Г. (1983). *Хосров и Ширин.* / Перевод К. Липскерова. Научный редактор, автор вступит. статьи и комментариев проф. Р. Алиев – Баку: «Язычы», 1983. – 458 стр.

11. Проффер, К. *Ключи к "Лолите".* https://www.litmir.me/br/?b=109475 (дата обращения: 30.03.2021)

12. Пушкин, А. С. (1959). *Собрание сочинений в десяти томах.* Том второй. Стихотворения. 1823-1836 – Москва: Государственное издательство Художественной литературы. – 799 стр.

13. Талыбзаде, А. А. (2006). *Театр и театральность в культуре ислама: поэтика форм проявления театра в средневековых странах Ближнего и Среднего Востока (X-XVI вв.)* – Баку: «Сабах». – 312 стр.

14. Талыбзаде, А. А. Театр сказителя: правду возлюби или Вселенская матрица Низами // Газета «Зеркало». – 2012, 15 декабря.

15. Hüseyn, C. (2005). *Əsərləri.* Beş cilddə. III cild – Bakı: "Lider nəşriyyat". – 304 səh. (на азербайджанском)

16. Kərimli, T. H., (2002). *Nizami və tarix* – Bakı: "Elm". – 244 стр. (на азербайджанском)

17. Talıbzadə, A.A.Y. Nizaminin "Xəmsə"si islamin beş dirəyinin ədəbi-bədii, fəlsəfi-illüstrativ modeli kimi (hermenevtik düşüncə modusu). *Mədəniyyət dünyası*, XXXXIV buraxılış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəşriyyatı, Bakı, 2023. https://medeniyyetdunyasi.az/arxiv/2024/03/DOI-10.520943005-9941.44.2023.036.pdf

**Fəridə Cəlilova Mahir qızı**

# NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNƏ EPİSTEMOLOJİ BAXIŞ

**Xülasə:** Məqalədə Nizami Gəncəvi yaradıcılığı ədəbiyyatşünas olmayan müasir tədqiqatçının baxışları nöqteyi-nəzərdən təhlil olunur. Nizami yaradıcılığında sözlə bağlı fikirlərin ümumiləşdirilmiş mənzərəsini yaratmağa çalışan müəllif böyük şairin poeziyasını idrak nəzəriyyəsi kontekstində araşdırır. Bu baxımdan, Nizami Gəncəvinin yalnız şair deyil, həm də Orta əsrlər İslam dünyasının böyük mütəfəkkiri kimi müasir fəlsəfi tədqiqatlar problematikası kontekstində də öyrənilməsinin maraqlı nəticələr vəd etdiyini söyləyən müəllif məqaləsində gələcək tədqiqatlar üçün geniş üfüqlər çızır. Nizaminin qnoseoloji görüşləri onun estetik görüşləri ilə sıx bağlıdır. Dünyanı yalnız sözlə anlamaq olar – sözlə izah edilə bilməyən şeyləri anlamaq mümkün deyil. Sözlər dünyanı əks etdirir və Nizami sözləri heç kimin edə bilmədiyi şəkildə nizama salmağı, sıralamağı bacarır. Nizami üçün yaradıcılıq sadəcə gördüklərini köçürmək deyil, öyrənməyi də nəzərdə tutur. Böyük şairin yaradıcılıq irsində həm ədəbi nəzəriyyənin poetik ifadələri, həm də şairin emosional təcrübələri də daxil olmaqla yaradıcılıq prosesinin özünün təsvirləri mövcuddur. Buna görə də, bu mövzu daha ətraflı, hərtərəfli öyrənilməyə ehtiyac duyur. Məqaləmizi yekunlaşdırarkən bir daha vurğulayırıq ki, Nizaminin fəlsəfi dünyagörüşünün onun yaradıcılığında əks olunması mövzusu daha ətraflı tədqiqat tələb edir.

**Açar sözlər:** Nizami Gəncəvi, İslam poeziyası, qnoseologiya, epistemologiya, hermenevtika, ağıl və zəka.

**Farida Jalilova Mahir gizi**

# AN EPISTEMOLOGICAL VIEW OF NIZAMI GANJAVI`S WORKS

**Summary:** This article analyzes the works of Nizami Ganjavi from the perspective of a contemporary researcher who is not a literary scholar. Seeking to create a comprehensive picture of the ideas associated with words in Nizami's works, the author examines the great poet's poetry within the context of gnosiology. The author claims that studying Nizami Ganjavi not only as a poet but also as a great thinker of the medieval Islamic world within the context of contemporary philosophical research promises interesting results. Nizami's epistemological views are closely linked to his aesthetic views. The world can only be understood through words – it is impossible to understand what cannot be explained in words. Words reflect the world, and Nizami succeeds in

organizing words in a way that no one else can. For Nizami, creativity means not simply imitation of what is seen but also study. The great poet's creative legacy includes both poetic expressions of literary theory and descriptions of the creative process itself, including the poet's emotional experiences. Therefore, this topic requires a more detailed and comprehensive study. In conclusion of our article, we once again emphasize that the topic of the reflection of Nizami's philosophical worldview in his work requires more detailed research.

**Key words:** Nizami Ganjavi, Islamic poetry, gnosiology, epistemology, hermeneutics, reason and intellect.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 01.06.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 05.06.2026**

**UOT 792.01**
**ORCID:0009-0003-0610-9584**
**DOI: 10.52094/PPRU7587**

**Şəhla Əliyeva Hüseyn qızı**
**Bakı Xoreoqrafiya Akademiyası**
**Professor**
shahlaaliyeva2014@gmail.com

# XX ƏSR AZƏRBAYCAN TEATRINDA MİLLİ İDEYALAR VƏ SOSİAL-FƏLSƏFİ YANAŞMALAR

**Xülasə:** Bu məqalədə XX əsr Azərbaycan teatrında milli ideyaların təbliği və sosial-fəlsəfi yanaşmaların ifadəsi araşdırılır. İlkin mərhələdə teatr “məktəb” funksiyasını yerinə yetirərək xalqın maariflənməsi və mənəvi oyanışını təmin etmişdir. XX əsrin 20–30-cu illərində teatr “məbəd” kimi milli və ideoloji simvollar yaradan məkan kimi qəbul olunmuşdur. Ədil İskəndərovun rəhbərliyi dövründə teatr həm estetik, həm də ideoloji funksiyasını zirvəyə çatdırmışdır. Teatr, cəmiyyətin hadisələrinə instinktiv reaksiya verən, aktyor və rejissor şəxsiyyətləri ilə milli identikliyi əks etdirən canlı bir orqanizm kimi inkişaf etmişdir. Beləliklə, məqalədə Azərbaycan teatrının funksional və ideoloji aspektləri təhlil olunur və sosial-fəlsəfi yanaşmaların ifadəsi ilə bitir.

**Açar sözlər:** milli ideyalar, ideoloji funksiyalar, milli identiklik, mifopoetika, maarifçilik.

Teatr əqidənin və ruhun əks olunduğu bir məkandır. Əbəs deyil ki, teatrı “ictimai güzgü” adlandırırlar. Bu ifadə sadə səslənsə də, onun gerçəkliyi şübhəsizdir. Cəmiyyət necədirsə, teatr da ona uyğun şəkildə formalaşır. İnsanların əqidəsi və daxili dünyası cəmiyyətdə necə özünü göstərirsə, teatr səhnəsində də eyni şəkildə əks olunur. Bədii obrazlar səhnədə cəmiyyətdən ayrı deyil, məhz onun içində yaşayır. Hər bir obraz cəmiyyətimizin müəyyən bir təzahürünü və ya simvolunu əks etdirir. Onlar səhnədə, yəni müəyyən olunmuş teatr çərçivəsində, bizim həyatımızın davamı kimi görünürlər. Cəmiyyətdə inkişaf edən əqidələr teatr səhnəsində yenidən öz tarixini yaşamağa başlayır, çünki bu əqidələr bir zamanlar cəmiyyətdə mövcud olub və mümkündür ki, hələ də mövcuddurlar.

Dünya miqyasında “teatr məktəbdir”, “teatr məbədgahdır” və ya “teatr məbəddir” fikirləri XVIII əsrin axırlarından etibarən aktuallaşır və maarifçilərin

baxışları kontekstində konseptual mahiyyət daşımağa başlayır. Həqiqətən, "teatr məktəbdir" və ya "teatr məbədgahdır" söyləmək müəyyən teatr konsepsiyasının ideoloji-məfkurəvi əsasını bəyan etmək deməkdir. Bu konseptual əsaslar Azərbaycan teatrının inkişaf tarixində XIX əsrin ikinci yarısından etibarən formalaşmağa başlamış və tədricən cəmiyyətin sosial, siyasi və ideoloji reallıqları ilə üzvi şəkildə əlaqələnmişdir. Teatr sənətinin milli düşüncə sistemində mühüm yer tutması, bir tərəfdən dövrün sosial strukturları, digər tərəfdən isə ictimai-siyasi mühitin diktə etdiyi ideoloji meyillərlə sıx bağlı idi. Azərbaycan teatrşünaslarının da vurğuladığı kimi, "milləti yaratmaqdan ötrü öncə onun teatrını yaratmaq lazımdır" fikri təkcə bədii bir aforizm deyil, həm də milli özünüdərk prosesinin fəlsəfi mahiyyətini açan bir tezisdir [3, s. 97].

XIX əsrin sonlarında Azərbaycan maarifçiləri bu ideyanı sanki öz tarixi-mədəni mühitlərində sınaqdan keçirərək, teatrı milli formalaşmanın əsas amili kimi dəyərləndirirdilər. Onların düşüncəsinə görə, teatr xalqın mənəvi oyanışında və maariflənməsində işıq rolunu oynayacaq, cəmiyyətin mənəviyyat memarına çevriləcəkdi. Maarifçi ideologiyanın bu baxışında teatr sadəcə estetik məkan deyil, həm də ictimai-mənəvi tərbiyənin təsirli vasitəsi kimi qəbul edilirdi.

Lakin bu prosesin arxasında yalnız yerli mədəni təşəbbüslərin deyil, həm də Rusiya imperiyasının mədəni-siyasi siyasətinin müəyyən təsirləri də mövcud idi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Rusiyanın imperiya mədəniyyəti çərçivəsində teatr, mədəni "yumşaq güc" vasitəsi kimi istifadə olunurdu. Avropatipli teatr modelinin Rusiyaya XVII əsrdə alman mədəniyyətinin təsiri ilə daxil olması, sonradan bu modelin Qafqaz regionuna, o cümlədən Azərbaycana keçməsinə zəmin yaratdı. Azərbaycan maarifçiləri teatrı milli ideyanın daşıyıcısına çevirmək istəsələr də, onun arxasında duran mədəni hegemonluq mexanizmlərini dərin təhlil etmirdilər.

Azərbaycan teatrının təşəkkül mərhələsində onun əsas missiyası maarifçilik ideyalarının daşıyıcısı olmaqdan ibarət idi. Avropatipli teatr modelinin ölkəmizdə formalaşdığı dövrdə səhnə sənəti cəmiyyət üçün bir növ "məktəb" funksiyasını yerinə yetirirdi. Bu mərhələdə teatrın başlıca məqsədi xalqın intellektual səviyyəsini yüksəltmək, onu yeni mədəniyyət və dünyagörüş dəyərləri ilə tanış etmək idi. Lakin XX əsrin 20–30-cu illərinə doğru bu konsepsiya tədricən dəyişərək teatrın sosial funksiyası yeni məna kəsb etdi. Artıq teatr yalnız maarif və təhsil vasitəsi deyil, eyni zamanda mənəvi məkan,

"məbədgah" kimi qəbul edilməyə başladı. Beləliklə, teatrın funksional mahiyyəti "öyrədən"dən "inanılan" mərhələyə keçdi.

Bu proses, şübhəsiz ki, sırf estetik deyil, həm də sosial və siyasi xarakter daşıyırdı. Teatr cəmiyyətin ideoloji yönümlərinin və dövlət siyasətinin təsirindən kənarda qala bilməmiş, uzun illər ərzində SSRİ-nin mədəni strategiyasının tərkib hissəsinə çevrilmişdir. Sovet hakimiyyəti dövründə teatr sənəti ideoloji məqsədlərin həyata keçirilməsində mühüm rol oynamış, "xalq üçün sənət" şüarının arxasında siyasi tərbiyə funksiyasını icra etmişdir. Bu mənada, teatr konsepsiyaları zaman-zaman dövlətin ideoloji xəttinə uyğun şəkildə formalaşmış, sənət ictimai-siyasi proseslərin bir növ bədii əksinə çevrilmişdir.

Siyasətin sənət üzərindəki təsiri hər zaman dolayısı ilə də olsa özünü göstərmişdir. İncəsənət və ədəbiyyat mahiyyət etibarilə cəmiyyətə xidmət etsə də, onlar siyasətin müəyyən etdiyi ictimai çərçivə daxilində fəaliyyət göstərmişlər. Əslində, sənət və ədəbiyyat, cəmiyyətin sosial-psixoloji vəziyyətini və siyasi nizamını estetik dildə tənzimləyən, yəni siyasətin "ictimai korrektəsi" rolunu oynayan vasitələrə çevrilmişdir.

Bolşevik ideologiyası "teatr məbəddir" tezisini bütün sovet məkanına, o cümlədən Azərbaycana da təlqin edirdi. Bu konsepsiya zahirən sənətin ucaldılmasını ifadə etsə də, əslində, teatrın ideoloji nəzarət altında mənəvi-siyasi alətə çevrilməsi prosesini gizlədirdi. "Məbəd" anlayışı burada mənəvi azadlıq deyil, ideoloji itaət və kollektiv düşüncənin formalaşdırılması anlamına gəlirdi. Beləliklə, "teatr məbəddir" ideyası həm estetik, həm də siyasi kontekstdə mahiyyətcə məqsədyönlü bir aksiya idi.

Daha dərindən təhlil edildikdə aydın olur ki, bu ideya sovet mədəniyyət siyasətinin əsas strategiyalarından biri olmuşdur. Səhnə sənəti vasitəsilə formalaşdırılan mənəvi mühitdə fərdi yaradıcılıq azadlığı əvəzində kollektiv ideologiyanın üstünlüyü təşviq edilirdi. Teatrın "məbəd" kimi qavranması həm sənətə ideoloji müqəddəslik donu geyindirməyi, həm də onun vasitəsilə ictimai şüuru yönləndirməyi nəzərdə tuturdu. Nəticədə, teatr milli mədəniyyətin bədii ifadə məkanı olmaqla yanaşı, həm də siyasi rejimin ideoloji təbliğat tribunalarından birinə çevrildi.

XX əsrin əvvəllərində formalaşmağa başlayan Azərbaycan milli teatrı özünün ilkin ideya və konseptual əsaslarını "teatr – məktəbdir" prinsipi üzərində qurmuşdur. Bu dövrdə teatr cəmiyyət üçün təkcə bədii-estetik hadisə deyil, həm də maarifləndirici, tərbiyəvi və ideoloji bir institut kimi qəbul olunurdu. Yəni teatrın funksiyası yalnız səhnədə hadisələri canlandırmaq deyil, eyni zamanda

xalqı düşünməyə, öyrənməyə və yeni dünyagörüşünə istiqamətləndirmək idi. Bu anlayış maarifçilik ideologiyasının məntiqi davamı kimi meydana çıxmış və həmin dövrün ictimai-mədəni həyatında mühüm rol oynamışdır. Maarifçilik dövrünün əsas arqumenti söz idi, çünki söz insanın mənəvi və intellektual oyanışının başlanğıcı sayılırdı. Beləliklə, Azərbaycan teatrı da məhz "sözə refleksiya" üzərində formalaşaraq öz inkişafını bu təməl üzərində qurdu [1, s. 112].

Bu mərhələdə teatr bir növ "canlı kitab" funksiyasını yerinə yetirirdi — o, səhnə vasitəsilə cəmiyyətə elmi, əxlaqi və sosial bilgiləri çatdırır, xalqın düşüncə tərzini dəyişməyə çalışırdı. Tədqiqatçıların "Azərbaycan teatrı – söz teatrıdır" fikri də bu konsepsiyanın təbii nəticəsi kimi qəbul oluna bilər. Həqiqətən də, milli teatrın bədii məkanı, aktyor oyununun ritmik və ifadəvi strukturu, səhnə davranışları və hətta mizanssenlər sözün semantik enerjisi ilə yönləndirilirdi.

Bu səbəbdən aktyor obrazı Azərbaycan teatrında sadəcə səhnə sənətçisi kimi deyil, bir növ "müəllim" – maarifçi və tərbiyəçi şəxsiyyət kimi qəbul olunurdu. Bu təsəvvürün kökləri xalq mədəniyyətinin dərin qatlarına, xüsusilə türk epik ənənələrinə gedib çıxır. Dastanlarda ozan, aşıq, manasçı kimi fiqurlar yalnız sənət icraçısı deyil, eyni zamanda hikmət daşıyıcısı, xalqın mənəvi və siyasi liderlərindən biri kimi təqdim olunur. Onlar sözün və musiqinin gücü ilə toplumu formalaşdırır, nəsillər arasında mənəvi körpü yaradırdılar.

Bu baxımdan, milli teatrın ilk mərhələsində aktyorun "müəllim" statusu həm maarifçilik ideyalarının, həm də qədim türk mənəvi sisteminin sintezindən doğurdu. Beləliklə, Azərbaycan teatrının başlanğıc dövründə onun missiyası yalnız estetik zövq vermək deyil, həm də milli özünüdərki formalaşdırmaq, cəmiyyətin mənəvi maarifini təmin etmək idi. "Teatr məktəbdir" ideyası məhz bu baxımdan həm fəlsəfi, həm də mədəni bir platforma kimi teatr düşüncəsinin əsas istiqamətini müəyyən etmişdir.

Azərbaycan teatrı yaranışından etibarən özünü iki əsas mərhələdə dərk etmişdir: ilkin mərhələdə "məktəb", daha sonrakı mərhələdə isə "məbəd" kimi. Teatrın "məktəb" konsepsiyası üzərində formalaşması təsadüfi deyildi — bu, XIX əsrin sonu – XX əsrin əvvəllərində cəmiyyətin mənəvi dirçəlişi və maariflənməsi ideyasını daşıyan ziyalıların düşüncə tərzi ilə sıx bağlı idi. Azərbaycan maarifçiləri – Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və başqaları teatrı xalqın mənəvi və

intellektual oyanışını təmin edəcək ən təsirli vasitə kimi görürdülər. Onların fikrincə, teatr yalnız əyləncə deyil, həm də "ictimai dərs otağı" olmalı, xalqın şüurunu oyatmalı, milli kimliyi və mədəni dəyərləri qoruyaraq yeni dünyagörüş formalaşdırmalı idi [7, s. 165].

Maarifçilərin teatrı bu ideya ətrafında qurması həm dövrün sosial-mədəni reallıqları, həm də cəmiyyətin təhsil səviyyəsi ilə bağlı idi. Avropa və Rusiyanın qabaqcıl təhsil ocaqlarında təhsil almış ziyalılar Vətənə döndükdə Azərbaycan cəmiyyətinin savadsızlıq, dini fanatizm və sosial ədalətsizliklə sarmalandığını gördülər. Onlar başa düşdülər ki, bu vəziyyətdən çıxış yalnız tədris müəssisələri və mətbuat vasitəsilə mümkün deyil; xalqın düşüncəsinə təsir edən daha canlı, emosional və kütləvi bir vasitəyə ehtiyac var. Belə bir vasitə isə məhz teatr idi — çünki teatr canlı nitq, hərəkət və obraz vasitəsilə maarifçilik ideyalarını birbaşa kütlələrə çatdırmaq gücünə malik idi.

Beləcə, teatr bir növ "xalq universiteti" funksiyasını daşımağa başladı. Onun səhnəsində həyat hadisələri, əxlaqi dilemmlar və sosial problemlər tamaşaçıya öyrədici məzmunla təqdim olunur, hər tamaşa maarifləndirici bir dərs kimi qavranılırdı. Lakin zaman keçdikcə, xüsusən XX əsrin 20-ci illərinin ortalarına doğru bu konsepsiya öz enerjisini tədricən itirməyə başladı. Cəmiyyətin intellektual səviyyəsi yüksəldikcə, teatr da təkcə maarifçilik missiyası ilə kifayətlənə bilməzdi. O, artıq yeni fəlsəfi, estetik və ideoloji məzmun daşımağa, insanın mənəvi aləminə, daxili ziddiyyətlərinə və varoluş suallarına yönəlməyə başladı.

XX əsrin 20–30-cu illərində Azərbaycan teatrının ideya-estetik məzmunu "teatr məbəddir" konsepsiyası üzərində formalaşmağa başladı. Bu dövrdə teatr artıq sadəcə maarifçilik vasitəsi deyil, milli-mənəvi identikliyin yenidən qurulduğu simvolik bir məkana çevrilmişdi. Bunun arxasında həm sosial, həm də ideoloji səbəblər dayanırdı. Bolşevik ideologiyasının əsas məqsədlərindən biri dini mərkəzlərin — məscidlərin, kilsələrin və sinaqoqların — funksiyasını məhdudlaşdırmaq, onların yerinə yeni, dünyəvi "məbədlər" yaratmaq idi. Teatr bu mənada cəmiyyətin mənəvi boşluğunu doldurmaq üçün ən əlverişli vasitə kimi təqdim olundu.

Azərbaycanda "Dövlət Malı Teatrı", "Türk Bədaye Teatrı" kimi adların verilməsi də təsadüfi deyildi. Bu adlar həm Rusiyada yaranmış oxşar modellərin (xüsusilə Moskvanın Malı və Bədaye teatrlarının) təsirini, həm də teatrın məbədləşdirilməsi ideyasının respublikalara "mədəni ixracını" əks etdirirdi.

Başqa sözlə, teatr artıq sadəcə sənət məkanı deyil, ideoloji ibadət yeri — yeni sovet insanının "ruhani mərkəzi" rolunu oynayırdı.

Lakin teatrın "məbəd" kimi qəbul olunmasının əsas şərti yalnız dövlət siyasətinin diktəsi ilə bağlı deyildi. Burada "şəxsiyyət faktoru" da həlledici idi. Hər bir məbədin mənəvi cazibə mərkəzi bir "ilahiləşdirilmiş" şəxsiyyətin varlığı ilə möhkəmlənir. Bu baxımdan, Azərbaycan teatrının XX əsr boyu inkişafında rejissor və aktyor şəxsiyyətlərinin — xüsusilə də Ədil İskəndərovun — rolu mühüm əhəmiyyət kəsb edirdi. Onun fəaliyyəti teatrın təkcə bədii deyil, həm də ideoloji, təşkilati sistem kimi formalaşmasına səbəb oldu [5, s. 241].

Azərbaycan teatrının inkişafında maarifçilik ideyaları iki əsas mərhələ üzrə formalaşdı. Birinci mərhələ (1873–1920) "teatr məktəbdir" konsepsiyasına əsaslanırdı və cəmiyyətin maariflənməsinə yönəlmişdi. İkinci mərhələ (1920–1960) isə "teatr məbəddir" ideyasının bədii-fəlsəfi təsdiqi kimi meydana çıxdı. Bu 40 illik dövrün 22 ili Ədil İskəndərovun rəhbərliyi ilə səciyyələndi. Hərçənd "baş rejissor" anlayışı o zaman rəsmi şəkildə mövcud deyildi, teatrşünaslıq ənənəsi onun adını bu statusla çəkir. Bu fakt da təsdiqləyir ki, İskəndərov teatrın həm ideoloji, həm də estetik inkişafında "şəxsiyyətin vasitəçiliyi" prinsipinin simvoluna çevrilmişdir.

Ədil İskəndərovun rəhbərlik etdiyi dövrdə "teatr məbəddir" konsepsiyası Azərbaycan teatrının ideya-fəlsəfi inkişafının zirvəsinə çatdı və eyni zamanda öz semantik potensialını da tədricən tükəndirdi. Təxminən 22 il ərzində teatr, cəmiyyət üçün sadəcə mədəni hadisə deyil, mənəvi və rituallaşmış bir məkan – bir növ "sovet ibadətxanası" funksiyasını daşımağa başladı. Bu illərdə teatrın qapıları, sözün əsl mənasında, məbədgah qapılarına çevrilmişdi: tamaşaçılar biletlər uğrunda növbələrdə dayanır, səhnəni ziyarət məkanı kimi qəbul edir, aktyorları isə gündəlik həyatın fövqünə yüksəlmiş müqəddəslər kimi dəyərləndirirdilər.

1920-ci illərdən etibarən aktyorun statusu köklü şəkildə dəyişmişdi. O artıq sadəcə sənətkar deyil, "vergili" şəxs, yəni mənəvi missiyası olan bir varlıq kimi qavranılırdı. 1924-cü ildə Azərbaycan Dövlət Dram Teatrının "akademik" status alması da bu ideyanın ictimai-simvolik əsaslarını möhkəmləndirdi. Akademik status sənətə dövlət səviyyəsində mənəvi legitimlik qazandırmaqla yanaşı, aktyorun obrazını da "məbəd sakini" səviyyəsinə yüksəltdi. Bu mənada, teatr artıq "maarif ocağı" yox, ideoloji və mifik enerjinin toplaşdığı bir "ruhani sahə" kimi fəaliyyət göstərməyə başladı.

Lakin bu konseptin tam bədii və simvolik ifadəsini teatr yalnız 1938-ci ildə Ədil İskəndərovun quruluş verdiyi Səməd Vurğunun "Vaqif" tamaşası ilə tapdı. Bu tamaşa Azərbaycan teatrının mifopoetik mərhələsinin başlanğıc nöqtəsinə çevrildi. Ələskər Ələkbərovun yaratdığı Vaqif obrazı, Sidqi Ruhullanın ifa etdiyi Qacar obrazı sadəcə bədii qəhrəmanlar deyil, artıq kollektiv yaddaşın canlı simvollarına, milli özünüdərkin personifikasiyalarına çevrildilər. Tamaşa bir anda teatrın estetik və ideoloji statusunu dəyişdi – o, sadəcə sənət hadisəsi deyil, artıq milli mədəniyyətin "mifləşdirilmiş məbədi" oldu [6, s. 150].

Teatr sənəti, mahiyyət etibarilə, cəmiyyətin canlı orqanizmi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən dinamik bir sistemdir. O, cəmiyyətdə baş verən hər bir sosial, siyasi və mənəvi hadisəyə müəyyən formada reaksiya verir. Lakin bu reaksiya hər zaman rasional şəkildə dərk edilmir — çox vaxt o, instinktiv səviyyədə meydana çıxır. Teatrın belə bir "instinktiv reaksiya" verməsi onun canlı orqanizm kimi fəaliyyət göstərməsi ilə bağlıdır. Necə ki, insan orqanizmi xarici təsirlərə qarşı müdafiə refleksi göstərir, teatr da sosial-mədəni mühitin təzyiqlərinə qarşı bədii, estetik və təşkilati səviyyədə cavab reaksiyası yaradır.

Cəmiyyət özü də canlı sistemdir; onun varlığı fərdlərin münasibətlərindən, dəyərlərindən və qarşılıqlı təsir mexanizmlərindən formalaşır. Bu münasibətlər, təbii olaraq, teatr sənətinə yönəlir və onunla qarşılıqlı əlaqədə vahid struktur meydana gətirir. Beləliklə, teatr yalnız cəmiyyətin hadisələrinə passiv reaksiya göstərmir, həm də onun dəyişən ritmini instinktiv şəkildə duyur və bəzən bu dəyişikliklərə qarşı müdafiə refleksi kimi reaksiya verir. Bu mənada, teatrın instinktiv davranışı — özünü qoruma, yaşatmaq və sənət müstəvisində mövcudluğunu təmin etmək cəhdidir.

Azərbaycan teatrının XX əsrin 1950-ci illərində yaşadığı hadisələr bu nəzəri müddəaların real təsdiqidir. Həmin illərdə teatr kollektivinin onu bədii və inzibati sistem kimi formalaşdırmış Ədil İskəndərova qarşı çıxışı təkcə şəxsi və ya inzibati münaqişə deyildi — bu, teatr orqanizminin özünü qoruma reaksiyası, daxili mühitdə balansı bərpa etmək instinktinin təzahürü idi. Belə situasiya teatrın sadəcə estetik hadisə olmadığını, həm də sosial struktur kimi davranış qabiliyyətinə malik bir orqanizm olduğunu göstərirdi.

Bu dövrdə Azərbaycan teatrı hələ cəmiyyətdə baş verən ideoloji və dəyərlər transformasiyasını tam dərk etməmişdi. Dünən idealizə edilən, qəhrəmanlaşdırılan şəxsiyyətlərin bu gün tənqid obyektinə çevrilməsi, yeni sosial münasibətlərin formalaşması teatr üçün anlaşılmaz bir proses idi. Lakin məhz bu dəyişikliklər teatrın daxili strukturunda gərginliklərə, "kollektiv və

şəxsiyyət" qarşıdurmasına gətirib çıxardı. Ədil İskəndərovun teatr səhnəsindən uzaqlaşması da bu qarşıdurmanın təbii nəticəsi idi.

Beləliklə, 1950-ci illərin Azərbaycan teatrı yalnız estetik axtarışların deyil, həm də sosial adaptasiya və özünüidentifikasiya mərhələsinin içindən keçirdi. Teatr öz instinktiv müdafiə mexanizmlərini işə salaraq yeni dövrün ideoloji və mənəvi çağırışlarına uyğunlaşmağa çalışdı — bu isə onun canlı, özünüdərk edən bir orqanizm kimi inkişaf etdiyini bir daha sübut etdi.

XX əsr Azərbaycan teatrında sosial-fəlsəfi yanaşmalar göstərir ki, teatr yalnız bədii ifadə vasitəsi olmaqla kifayətlənmir, eyni zamanda cəmiyyətin ideoloji və mənəvi durumuna reaksiya verən, sosial düşüncəni əks etdirən bir məkandır. Teatr həm maarifçilik funksiyasını üzərinə götürərək xalqın dünya görüşünü formalaşdırır, həm də "məbəd" kimi milli və ideoloji simvollar yaradırdı. Bu yanaşma göstərir ki, teatr cəmiyyətlə dialoq aparan, onun dəyərlərini əks etdirən və eyni zamanda dəyişdirən sosial-fəlsəfi bir institut kimi fəaliyyət göstərir.

## Ədəbiyyat siyahısı

1. Allahverdiyev M.Q. Müasir teatrda ənənə və novatorluq məsələləri. – B.: Azərnəşr, 1974. – 100 s.;
2. Allahverdiyev M.Q. Azərbaycan teatrı bu gün. – B.: Maarif, 1984. – 56 s
3. Cəfərov C.H. Azərbaycan dram teatrı: 1873-1941. - B.: Azərnəşr, 1959. – 418 s.
4. Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri. – B.: Çinar-Çap, 2003. – 302 s.
5. Əlizadə M.Ə. Teatr: seyr və sehr (Milli teatr prosesi problemləri). – B.: Elm, 1998. – 352 s.
6. İsrafilov İ.R. Adil İsgəndərovun teatrı. – B: Mars-Print, 2001. – 208 s.
7. Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. – Bakı: Çaşıoğlu, 2005. – S.162-167.
8. Mehdiyev N.M. Orta əsrlər Azərbaycan estetik mədəniyyəti. – B.: İşıq, 1986. – 159 s.

*Rus dilində*

9. Аникст А.А. Теория драмы от Аристотеля до Лессинга. – М: мысль, 1967. - 455 с.;

10. Михеева А.Н. Когда по сцене ходят носороги – М.: Искусство, 1967. – 176 с..

11. Корниенко Н.П. Украинский театрв преддверии третьего тысячалетия. Поиск: картина мира; ценностные ориентации; спектакли; прогноз. – Киев: Факт, 2000. – 164 с., 64 ил. (на укр. яз.)

**Shahla Aliyeva Huseyn qizi**

## NATIONAL IDEAS AND SOCIO-PHILOSOPHICAL APPROACHES IN AZERBAIJANI THEATER OF THE 20TH CENTURY

**Summary:** This article examines the promotion of national ideas and the expression of socio-philosophical approaches in Azerbaijani theater of the 20th century. In its initial stage, the theater served as a “school,” providing public education and spiritual awakening. In the 1920s–30s, the theater was perceived as a “temple,” creating national and ideological symbols. Under the leadership of Adil Iskenderov, the theater reached the peak of both its aesthetic and ideological functions. The theater developed as a living organism, instinctively responding to societal events and reflecting national identity through the personalities of actors and directors. Thus, the article analyzes the functional and ideological aspects of Azerbaijani theater and the expression of socio-philosophical approaches.

**Key words:** national ideas, ideological functions, national identity, mythopoetics, enlightenment.

**Шахла Алиева Гусейн кызы**

## «НАЦИОНАЛЬНЫЕ ИДЕИ И СОЦИАЛЬНО-ФИЛОСОФСКИЕ ПОДХОДЫ В АЗЕРБАЙДЖАНСКОМ ТЕАТРЕ XX ВЕКА»

**Резюме:** В этой статье исследуется пропаганда национальных идей и выражение социально-философских подходов в азербайджанском театре XX века. На первоначальном этапе театр выполнял функцию «школы», обеспечивая просвещение народа и его духовное пробуждение. В 1920–30-е годы театр воспринимался как «храм», создающий национальные и идеологические символы. В период руководства Адиля Искендерова театр достиг вершины как эстетической, так и идеологической функции. Театр развивался как живой организм, инстинктивно реагирующий на события общества и отражающий

национальную идентичность через личности актёров и режиссёров. Таким образом, в статье анализируются функциональные и идеологические аспекты азербайджанского театра и выражение социально-философских подходов.

**Ключевые слова:** национальные идеи, идеологические функции, национальная идентичность, мифопоэтика, просвещение.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 19.01.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.01.2026**

**UDC 792**
**ORCID: 0009-0005-3706-3106**
**DOI: 10.52094/XQFQ1827**

**Sherzod Pirmatov Tursunovich**
**Uzbek State Institute of Arts and Culture**
**Department of “Vocal”, Professor**
**muzaffarpirmatov1100@gmail.com**

# THE THEATRICAL INTERPRETATION OF *A HERO OF OUR TIME*

**Summary:** This article analyzes the issue of portraying the “hero of our time” in contemporary Uzbek theater and emphasizes the importance of creating realistic modern characters who reflect the social, moral, and spiritual values of society. The study discusses the views of Uzbek theater scholars on modern dramaturgy and highlights the role of theater in educating audiences, strengthening patriotism, and presenting contemporary social problems truthfully on stage.

The article also examines the repertoires of Uzbek theaters, focusing on performances dedicated to current social issues and successful portrayals of contemporary heroes by actors and directors. At the same time, it points out the shortage of strong modern dramaturgy and stresses the need to improve the professional training of playwrights, directors, and actors. The author concludes that creating meaningful contemporary characters remains one of the major tasks of Uzbek theater today.

**Key words:** actor, tradition, tone, director, creator, performance, school, hero of our time.

One of the great representatives of Uzbek theatre studies, our late mentor, Doctor of Art Studies and Professor Toshpulat Tursunov, in his 1978 article *“Time, Contemporary, Image, and Stage”*, presented the following idea to the public: “...Along with time, its creator – our contemporary – has also changed. He is no longer the same person as he was ten or even five years ago. His way of life and work is changing every single day...” [1, p. 2].

As can be seen from the above quotation, creating a complete image of the modern hero has always been one of the most pressing issues faced by literature,

theatre, cinema – indeed, by all forms of art. Life is in constant change; heroism is continually renewed, and every era gives birth to its own hero.

Indeed, humanity is constantly developing and perfecting itself. In particular, the long-standing dream and unfulfilled aspiration of our great ancestors – Independence – which has finally been achieved by our contemporaries, is calling our people toward great accomplishments. The modern individual is growing and maturing so rapidly that the criteria for the "hero of our time" are also becoming increasingly profound and demanding.

At this point, several important questions arise: *"Must the hero of our time be flawless? Can an ordinary person be a hero? Should the main protagonist necessarily be an ideal figure?"*

In response to such questions, U. Normatov once wrote:

"A positive hero does not conform to any template or formula. There are countless ways and methods to create a hero, and innumerable undiscovered possibilities still remain. A social hero may take on extremely diverse forms – what truly matters is that, above all, they embody the type of their era and vividly, uniquely reflect the essence of the era's leading and progressive forces" [2, p. 45].

Let us also consider the views of Doctor of Art Studies Sarvinoz Kadirova, who notes:

"Modernity must become the very content of the work. By a work of modern subject matter, we mean not only a depiction of our present life, but also a truthful revelation of its problems and contradictions – so that it contributes to the moral and spiritual upbringing of the younger generation" [3, p. 36].

Currently, there are 37 theaters operating in our republic. If we take the 2020–2025 seasons as an example, nearly 150 stage productions of various genres, styles, and forms have been presented to audiences in our theaters. The artistic quality and creative standards of these performances vary in level.

An overview of our theaters' repertoires shows that there is a sufficient number of productions addressing socially significant and pressing issues such as child upbringing, drug addiction and HIV/AIDS, terrorism and religious extremism, as well as human trafficking.

Nowadays, playwrights have access to an abundance of rich and diverse material and themes for creating dramatic works. If such plays are staged at a high artistic level, and if the actors' performances are filled with genuine creative discoveries, the production will naturally resonate more deeply with the

audience and become truly meaningful to them. There is no doubt that creating complete and convincing images of their contemporaries remains one of the highest aspirations of every actor.

Plays based on contemporary themes always attract audiences. This is because every person can, to some extent, see themselves in performances that reflect the pressing issues of their time – the lives, activities, and aspirations of their contemporaries. Such works make it easier for audiences to understand the motivations and struggles of modern individuals. Therefore, it is truly gratifying that theater halls are filled to capacity for productions that vividly portray both the achievements and shortcomings, as well as the contradictions, of our present day.

An analysis of our theaters shows that their repertoires are filled with works on diverse themes that provide moral and spiritual nourishment to the people of our time. Naturally, questions arise about which themes are the most important. However, this does not diminish the value of any genre, style, or subject matter; on the contrary, each has its own audience and admirers. During the years of independence, we have entered a completely new system. Understanding our identity, fully grasping the meaning of independence, and charting our own path was not an easy task. Throughout the centuries, theater has always been a leading force and a powerful instrument in instilling the highest human values in the minds of people. From the very first years of independence, the state has regarded this task as a crucial part of its policy. Forming a national ideology and instilling in people a sense of freedom and liberty requires that every citizen first of all possess a patriotic spirit. At the same time, it is an undeniable truth that the prosperity of the nation depends on the presence of truly cultivated individuals – physically healthy, morally upright, and intellectually accomplished, with a refined inner world and extensive knowledge and experience.

The Uzbek National Academic Drama Theatre has held a prominent place for several decades as a beloved and leading institution of the arts, as well as a university of moral and spiritual enlightenment. From its earliest days, patriotism, selflessness, and the ideal of enlightening people have been among its core themes. Even in today's repertoire, the theatre continues to present vivid images of contemporary heroes – individuals whose hearts burn with love for their homeland, who prioritize the welfare of others above their own, and whose

minds and souls are filled with light and knowledge. The artistic quality and completeness of these portrayals vary, of course.

In such explorations, the performances of Uzbek People's Artist Tesha Mominov as Jora, and actress Shodiya Tokhtayeva as Shabnam, can be considered significant achievements in the creation of fully realized contemporary characters. Similarly, Hoshim Arslonov's portrayals of Hokim and Yusuf in the Uzbek State Drama Theatre productions *"The Path of Goodness"* and *"Balance"*, Habibullo Ortiqov and Gulnoza Alimova as Samandar and Ona in the musical drama *"Love in Pawn"* at the Muqimi Uzbek State Musical Theatre, and Nuriddin Ismoilov and Ravshanoy Rajabboyeva as Sodiq and Shohista in the Namangan Regional Musical Drama Theatre production *"Spring Breeze"*, have all quickly attracted public attention due to their high artistic standards, particularly in acting. It is natural that, alongside these achievements, minor shortcomings may occur. However, despite some minor flaws, the overall results demonstrate that ongoing efforts are fruitful. These successes not only provide audiences with spiritual nourishment but also inspire confidence that even more fully realized images of contemporary heroes can be created in the future.

In his work *"High Morality – Invincible Power"*, the First President of Uzbekistan, Islam Abduganievich Karimov, noted: "At present, we must acknowledge that in our theatrical art, there are unfortunately few high-quality works that comprehensively and profoundly depict the realities of our contemporary life and the image of modern heroes, while captivating the audience from both dramaturgical and directorial perspectives. On the contrary, it is more common to see theaters filling their box offices with works that are far removed from reality and provide little spiritual nourishment to the audience" [4, p. 114].

"Of course, in the present time, it is necessary to take into account the demands of a market economy. However, creating works imbued with high artistic value, honesty, and a spirit of serving noble goals – like in all forms of art – naturally remains a fundamental criterion for this field as well. To achieve this goal, it is especially important to nurture and develop young and talented playwrights, directors, and theater actors", he says.

Yes, it should be emphasized that today our theaters have all the necessary conditions to create contemporary characters. However, the question that has been on everyone's mind is why, in recent years, we see fewer fully developed,

realistic portrayals of brave, courageous, and selfless yet ordinary people on stage, as our specialists have pointed out, than we would like.

At this point, it should be noted that all theater troupes continue their efforts to create contemporary characters. Various experiments have also been conducted in this regard. However, why are these efforts not yielding sufficient results? In our view, the contemporary characters that we desire and that our theaters are searching for are still rarely found in our professional dramaturgy. It is a simple truth that theater cannot survive without professional dramaturgy.

It should be said that, if we observe our repertoires in recent years, the names of accomplished writers and experienced authors appear less frequently. In this context, it is appropriate to cite the words of N. Abdurahmonov, Honored Artist of Uzbekistan and Artistic Director of the Uzbekistan Youth Theater: “Of course, a well-developed image of our contemporaries is necessary for our stage. However, we must not forget that anyone approaching this task risks producing mediocre works. Strong, high-quality works are created through the collaboration of professional artists. Therefore, first and foremost, serious attention must be paid to training highly skilled personnel – actors and playwrights” [Interview with N. Abdurakhmanov in the newspaper *Tasvir*, 2010]. Indeed, the director’s remarks are well-founded. The development of fully realized characters of our contemporaries depends primarily on the training of skilled actors. It is worth emphasizing that this is one of the most important requirements. For this reason, the Uzbekistan State Institute of Arts, which prepares personnel for our theaters, must pay even greater attention from today onward to nurturing knowledgeable, broad-minded, highly capable, and talented specialists who regard working on stage as their honorable duty.

Furthermore, theaters also play an important role in training skilled actors. It is time to consider providing opportunities for young specialists who have completed their acting studies, including assigning them to mentor actors. This is because the knowledge a young specialist acquires over four years in the institute’s training workshops alone is insufficient for them to reach the level of a fully skilled artist.

In conclusion, today our theaters have created and continue to create performances that depict significant events and dynamic actions, reflecting vivid images of our contemporaries, their hopes and aspirations, as well as their achievements and shortcomings in full. In order for such characters to appear more frequently on our stages, it is crucial to cultivate in our actors the strict

discipline, high cultural standards, and artistic sophistication that were once expected of them.

In many countries, the art of theater is gradually yielding its place to other art forms, the number of theaters is steadily decreasing, and this art – which has as its primary mission the promotion of lofty ideals – is increasingly leaning toward show business. In this context, it is encouraging that all theaters in Uzbekistan continue to operate and pursue their creative work without interruption. One of the main reasons for this is the government's attention to and support for the field.

Nowadays, each of us has the right to expect works from our theaters that reflect contemporary themes and fully developed modern characters. However, this issue is not only the theater's concern – it is a matter for the entire society. Therefore, playwrights, directors, actors, artists, composers, theater scholars, faculty members of art institutions, literary editors in theaters, and all organizations overseeing the arts must contribute to solving this problem through their work. To achieve this, it is essential that all representatives of the field unite, provide each other with selfless support, and sincerely feel the urgency of the issue. Only in this way will the stages of our theaters increasingly showcase well-rounded artistic images of devoted, patriotic, and virtuous modern characters who embody professionalism and dedication to their duty.

## References

1. Tursunov, T. *"Time, Contemporary, Image, and Stage"*. Article on theater studies, 1978, p. 28.
2. Normatov, U. *The World of Beauty*. Tashkent, 1974, p. 45.
3. Qodirova, S. "The Problem of Contemporary Themes and Genres." *Journal of Theater*, 2004, No. 2, pp. 11–13.
4. Karimov, I. A. *High Morality – Invincible Strength.* Tashkent: Ma'naviyat, 2008, p. 144.
5. Umarova, G. *The Image of the Contemporary Character on Stage. Gazeta "Uzbekistan Literature and Art"*, 2010, No. 40, pp. 1–5.
6. Ikromov, H. *Era and Theater.* Tashkent: State Scientific Publishing House of the National Encyclopedia of Uzbekistan, 2009, p. 239.
7. Rahmonov, M. R. *Hamza Theater. Volume One (1914–1960).* Tashkent: G'.G'ulom Literature and Art Publishing House, 2001, p. 325.

**Şərzod Pirmatov Tursunoviç**

## DÖVRÜMÜZÜN QƏHRƏMANININ TEATRAL TƏFSİRİ

**Xülasə:** Bu məqalədə müasir özbək teatrında "dövrümüzün qəhrəmanı" obrazının səhnədə təcəssümü məsələsi təhlil olunur və cəmiyyətin ocial, mənəvi və əxlaqi dəyərlərini əks etdirən realist müasir obrazların yaradılmasının əhəmiyyəti vurğulanır. Tədqiqatda özbək teatrşünaslarının müasir dramaturgiya ilə bağlı fikirləri araşdırılır, həmçinin teatrın tamaşaçıların tərbiyəsində, vətənpərvərlik hissinin gücləndirilməsində və ocial ictimai problemlərin səhnədə həqiqi şəkildə təqdim olunmasındakı rolu qeyd edilir.

Məqalədə həmçinin özbək teatrlarının repertuarları təhlil olunur, müasir ocial problemlərə həsr edilmiş tamaşalara, aktyor və rejissorların dövrümüzün qəhrəmanını uğurla canlandırmalarına diqqət yetirilir. Bununla yanaşı, güclü müasir dramaturgiyanın çatışmazlığı göstərilir və dramaturqların, rejissorların və aktyorların peşə hazırlığının daha da təkmilləşdirilməsinin vacibliyi vurğulanır. Müəllif nəticə olaraq bildirir ki, məzmunlu və dolğun müasir qəhrəman obrazlarının yaradılması bu gün özbək teatrının əsas vəzifələrindən biri olaraq qalır.

**Açar sözlər:** aktyor, ənənə, intonasiya, rejissor, yaradıcı, tamaşa, məktəb, dövrümüzün qəhrəmanı.

**Шерзод Пирматов Турсуноевич**

## ТЕАТРАЛЬНАЯ ИНТЕРПРЕТАЦИЯ ГЕРОЯ НАШЕГО ВРЕМЕНИ

**Резюме:** В данной статье анализируется проблема воплощения образа «героя нашего времени» в современном узбекском театре и подчеркивается важность создания реалистичных современных персонажей, отражающих социальные, нравственные и духовные ценности общества. В исследовании рассматриваются взгляды узбекских театроведов на современную драматургию, а также раскрывается роль театра в воспитании зрителей, укреплении патриотизма и правдивом отражении актуальных социальных проблем на сцене.

В статье также анализируется репертуар узбекских театров, особое внимание уделяется спектаклям, посвящённым современным социальным проблемам, а также успешному воплощению образов современных героев актёрами и режиссёрами. Вместе с тем отмечается недостаток сильной

современной драматургии и подчёркивается необходимость совершенствования профессиональной подготовки драматургов, режиссёров и актёров. Автор приходит к выводу, что создание содержательных и полноценных образов современного героя остаётся одной из важнейших задач узбекского театра на сегодняшний день.

**Ключевые слова:** актёр, традиция, интонация, режиссёр, творец, спектакль, школа, герой нашего времени.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 21.05.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.05.2026**

**UDC 792**
**ORCID: 0009-0006-3972-3371**
**DOI: 10.52094/GJLZ6366**

**Matluba Isokova Komilovna**
**Associate Professor (PhD)**
**Uzbek State Institute of Arts and Culture**
**matlubakomilovna91@gmail.com**

# THE FORMATION AND DEVELOPMENT PROCESSES OF UZBEK MUSICAL THEATER

**Summary:** This article presents a scholarly analysis of the historical stages of the formation of Uzbek musical theater, its role in the national theatrical system, and the dynamics of its development. The study examines the first musical stage traditions that emerged in the early 20th century, including folklore and ethnographic performances, the art of maqom, and the influence of customs and traditions on theatrical art. In particular, it notes that one of the traditional Uzbek musical dramas, “Tohir and Zukhra” by playwright Sabir Abdulla, has become an important part of the theatrical repertoire. Concurrently, the theatrical interpretation and production of “Nurkhon”, one of the oldest musical stage works dedicated to historical figures, the epic poem “Gorogli”, and the romantic heroic aspects of the musical drama “Ravshan and Zulhumor”, based on folk tales, are examined.

**Key words:** Uzbek musical theater, formation processes, national theatrical art, folklore traditions, maqom, musical dramaturgy, professional theater, contemporary stage art, development of directing.

